AZƏRBAYCAN TARİXİ 7

DƏRSLİK



AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

Musiqisi ***Üzeyir Hacıbəylinin,***

sözləri ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

HEYDƏR ƏLİYEV

AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ

YAQUB MAHMUDLU, QABİL ƏLİYEV,
LEYLA HÜSEYNOVA, SABİR AĞAYEV,
SEVİL BƏHRƏMOVA, HƏCƏR ƏLİŞOVA
BABƏK XUBYAROV

Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün AZƏRBAYCAN TARİXİ fənni üzrə DƏRSLİK

© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə www.trims.edu.az saytında yerləşdirilmişdir. Bu nəşrdən istifadə edərkən lisenziyanın şərtləri qəbul edilmiş sayılır:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtləri ilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi **tahsil_az@yahoo.com** və **derslik@edu.gov.az** elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığa görə əvvəlcədən təşəkkür edirik!

DƏRSLİKDƏ İSTİFADƏ OLUNMUŞ ŞƏRTİ İŞARƏLƏR

– Motivasiya

– Mənbələr

– Sual və tapşırıqlar

– Maraqlı məlumat

– Açar sözlər

– Gəlin düşünək

– Tapşırıq

KİTABIN İÇİNDƏKİLƏR

AZƏRBAYCAN ERKƏN ORTA ƏSRLƏRDƏ

1. Feodal münasibətlərinin inkişafı 7
2. Ərəb işğalına qarşı mübarizə. Cavanşir 12
3. Xilafət dövründə idarəetmə, torpaq və vergi siyasəti 16
4. Xürrəmilər hərəkatı. Babək 20
5. İslamın milli və mədəni inkişafa təsiri....24

AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN DİRÇƏLİŞİ

6. Müstəqil dövlətçiliyin bərpası....28
7. Azərbaycan vahid dövlət tərkibində 31
8. Xudafərin körpüsünün birləşdirdiyi iki Azərbaycan dövləti....36
9. Slavyanların hücumları 40
10. Əhalinin məşğuliyyəti və həyat tərzi 45
11. IX – XI əsrlərdə Azərbaycan mədəniyyəti 49

OĞUZ-SƏLCUQ AXINLARI VƏ AZƏRBAYCAN

12. Oğuz-səlcuq axınları....54
13. Azərbaycan XII – XIII əsrin əvvəllərində....59
14. XI əsrin ortaları – XII əsrdə mədəniyyət 65

YADELLİ İŞĞALÇILARA QARŞI MÜBARİZƏ

15. Monqol yürüşlərinə qarşı mübarizə 71
16. Azərbaycan Elxanilər dövlətinin mərkəzi kimi....75
17. Azərbaycan uğrunda mübarizə 80
18. Şirvanşahlar dövləti və Şəki hakimliyi
XIII – XIV əsrin başlanğıcında 84
19. XIII – XIV əsrlərdə mədəniyyətin inkişafı....88

VAHİD AZƏRBAYCAN UĞRUNDA

20. Qara Yusif və varisləri....93
21. Həsən padşah və varisləri 98
22. Ərdəbil hakimliyi....103
23. XV əsrdə ictimai-siyasi və iqtisadi vəziyyət....107
24. Mərkəzləşdirilmiş vahid Azərbaycan dövləti 111
25. Səfəvi-Osmanlı müharibələrinin başlanması 117
26. XV – XVI əsrlərdə Azərbaycan mədəniyyəti....123
İstifadə olunmuş ədəbiyyat 127

ƏZİZ DOST!

Sən artıq Azərbaycanın qədim dövr tarixini öyrənmisən. Bu dərslikdə isə Vətənimizin orta əsrlər dövrü tarixi ilə tanış olacaqsan. Orta yüzilliklərdə yeni sosial-iqtisadi münasibətlər formalaşdı, vahid mərkəzləşmiş dövlətimiz yarandı.

Azərbaycanda Sasani və Ərəb xilafəti ağalığı dövrlərində milli ənənələrimiz qorunub saxlandı. Ölkəmizin çoxsaylı türk əhalisi ilə qeyri-türk əhalisi arasında etnik-siyasi və mədəni birlik daha da möhkəmləndi. Azərbaycan xalqının formalaşması prosesi başa çatdı. "Dəmirqapı" – Dərbənddən Zəncana və Həmədana qədər böyük bir regionda vahid dövlətin yaranması Qafqazda türklərin əsas etnik qüvvəyə çevrilməsinin nəticəsi idi. IX əsrdən etibarən müstəqil dövlətçilik ənənələrimizin dirçəlməsi mədəni intibahla nəticələndi.

Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər, Eldənizlər, Elxanilər, Baharlı, Bayandurlu və Səfəvi dövlətləri xalqımızın tarixində müstəsna rol oynadılar. 7-ci sinif "Azərbaycan tarixi" dərsliyi bu dövlətlərin dünya dövlətləri içərisində yerini və nüfuzunu müəyyən etmək üçün maraqlı axtarışlarda sənə bələdçilik edəcəkdir. Bu dərslik Azərbaycanın VI–XVI əsrlər tarixinin ən önəmli hadisə və proseslərini öyrənib-tədqiq etməkdə sənə geniş imkan yaradacaqdır.

Biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır.

HEYDƏR ƏLİYEV

AZƏRBAYCAN ERKƏN ORTA ƏSRLƏRDƏ

1. FEODAL MÜNASİBƏTLƏRİNİN İNKİŞAFI

Şəkildəki insanların məşğuliyyəti, sosial vəziyyəti, həyat tərzi haqqında nə deyə bilərsən? Fikirlərini qeyd et.

Feodal, islahat, can vergisi, hərbçi, mirzə, xostak, dastakert, türk axını, dil birliyi

VI əsrdə Azərbaycanda feodal münasibətləri inkişaf edirdi. Kənd icmalarının torpaqları feodalların əlinə keçirdi. Torpaqsız qalan icma üzvləri asılı kəndlilərə çevrilirdilər. Bu dövrdə əsas torpaq sahibliyi formaları ***dastakert*** – irsi torpaq sahibliyi və hərbi xidmət əvəzində verilən ***xostak*** – şərti torpaq sahibliyi idi. Əkilib-becərilməsi çətinlik törədən torpaqlar isə sahibsiz qalırdı.

Bu dövrdə Azərbaycanın cənubu – **Adurbadaqan** (Atropaten) və şimalı – **Albaniya** Sasani imperiyasının tərkibində idi. Ölkəmizdə feodal münasibətlərinin inkişafına Sasani şahı I Xosrovun islahatları da təsir göstərdi. O, sahibsiz torpaqları hərbçilərə payladı. Vergiyığan məmurların özbaşınalığına son qoyuldu. Uşaqlar, qadınlar, qocalar, hərbçilər, kahinlər, məmurlar can vergisindən azad edildilər.

Səncə, torpaqların hərbçilərə paylanmasında məqsəd nə idi?

Azərbaycanda və Qərbi Avropada feodal münasibətləri

Azərbaycan	Qərbi Avropa
III əsrdən XIX əsrin II yarısına qədər	V əsrdən XVII əsrin ortalarına qədər
Kəndlilər feodallardan şəxsən asılı deyildilər.	Kəndlilər təhkimli idi, yəni feodallardan şəxsən asılı idilər.
Feodalların xüsusi təsərrüfatı, demək olar ki, yox idi.	Feodalların xüsusi təsərrüfatları var idi.

AZƏRBAYCAN VI–VII ƏSRLƏRDƏ



Türk döyüşçüləri

VI–VII əsrlərdə Albaniya və Adurbadaqanda feodal münasibətləri tədricən möhkəmlənirdi. Bu dövrdə Sasani hökmdarları Azərbaycanın şimal torpaqlarına farsdilli tayfaları köçürüb məskunlaşdırırdılar. Onların məqsədi İrandan köçürdükləri bu tayfaların köməyi ilə Azərbaycanda mövqelərini möhkəmləndirmək və özlərinə etnik dayaq yaratmaq idi.

Sasani şahları, həmçinin Azərbaycanın Xəzərsahili bölgələrində mövqelərini möhkəmləndirmək, şimaldan türk axınlarının önünü kəsmək üçün qalalar və müdafiə divarlarını inşa etdirirdilər.

VI əsrin ortalarında Sasani dövləti Dərbənd keçidi üzərindəki nəzarəti daha da gücləndirdi. Dərbənd keçidində 8 m qalınlığında daş divarlar və bürclər inşa edildi. Bununla da Böyük Qafqaz dağlarının zirvələrindən Xəzər dənizinin içərilərinə qədər uzanan və bizim günlərə qədər öz əzəməti ilə insanları heyran edən möhtəşəm Dərbənd səddi və Dəmirqapı – Dərbənd qalası yaradıldı.

Dərbənd səddi

Xalqımızın formalaşmasında önəmli mərhələ. Erkən orta əsrlərdə ölkəmizə bir-birinin ardınca kütləvi axın etmiş türk tayfaları daha öncədən Azərbaycanda yaşayan türk tayfaları ilə qaynayıb-qarışdılar. Türk dili bütün Azərbaycan əhalisi üçün vahid ünsiyyət vasitəsinə çevrildi, ***dil birliyi*** yarandı.Vahid xalqın yaranması prosesi sürətləndi.

Erkən orta əsrlərdə hun, basil, bulqar, sabir, xəzər və digər türk tayfaları Dərbənd keçidindən cənuba yürüş edərək Azərbaycan torpaqlarında məskən saldılar. Sonrakı yüzilliklərdə ölkəmizdə qədimdən yaşamaqda olan yerli türk tayfaları ilə qaynayıb-qarışdılar.

Səncə, türk tayfalarını Azərbaycana cəlb edən nə idi?

Erkən orta əsrlərdə Azərbaycanın şimalının və cənubunun vahid dövlətdə birləşdirilməsi də bu prosesə müsbət təsir göstərdi. Ölkəmizin bölgələri arasında əlaqələr yarandı, etnik-mədəni birliyin təşəkkülü baş verdi. Yadelli işğallarına qarşı uzun müddət ərzində birgə azadlıq mübarizəsi aparılması da bütün əhalinin sıx birləşməsinə, qaynayıb-qarışmasına şərait yaratdı.

Bu dövrdə aparıcı hərbi-siyasi qüvvəyə çevrilən çoxsaylı türk tayfaları Azərbaycan xalqının təşəkkülündə başlıca rol oynadılar. Məhz türk tayfaları və türk dili şimallı-cənublu bütün ölkə miqyasında birləşdirici qüvvə kimi çıxış etdi. Ərəb mənbələrində Xilafət qoşunlarının ilkin yürüşləri zamanı – VII əsrin ortalarında Azərbaycan ərazisində toplu halında yaşayan türklərlə qarşılaşdıqları qeyd edilib.

Xalqımızın ümummilli lideri Heydər Əliyev 1998-ci ildə "Kitabi-Dədə Qorqud dastanı"nın yaradılmasının 1300 illiyinin qeyd edilməsi haqqında fərman vermiş, dastanın böyük mənəvi dəyərini müdrikliklə yüksək qiymətləndirmişdir: ""Kitabi-Dədə Qorqud dastanı" qəhrəmanlıq eposudur, özü də bir cəngavər, bir igid haqqında yox, bütöv bir xalqın qəhrəmanlığını özündə cəmləşdirən bir eposdur. Onun ən böyük ideyası baş sərkərdədən tutmuş, böyükdən kiçiyə kimi bütün qəhrəmanlarının doğma torpaqlarını qorumaq uğrunda canlarından keçməyə daim hazır olduqlarını göstərməkdir. Eposun əsas mahiyyətini qəhrəmanlıq ideologiyası təşkil edir".

"Kitabi-Dədə Qorqud" dastanının Azərbaycan tarixi üçün əhəmiyyətini dəyərləndir.

VII əsrdə Azərbaycan türk ədəbi dilinin formalaşması başlandı. Bu dövrdə Azərbaycan mühitində "Kitabi-Dədə Qorqud" dastanının yaradılması Azərbaycan türkcəsinin böyük inkişaf yolu keçdiyini göstərirdi.

Azərbaycan ərazisində bu dövrdə əhalinin çoxu ***tanrıçılıq*** dininə sitayiş edirdi. Qədim türklərin təkallahlı səmavi dini tanrıçılıq adlanırdı. tanrıçılıq Azərbaycanın bütün vilayətlərində, xüsusən də düzən bölgələrində yayılmışdı.

Sasani şahları tabe etdikləri ölkələrdə xristianlıq məzhəbini təqib edir, atəşpərəstliyi cidd-cəhdlə yayırdılar. Yerli əhalinin tanrıçılıq dini inanclarını qoruyub saxlamaqda israrlı olması da, xristianlığın yayılmasına və möhkəmlənməsinə imkan vermədi.

*Maraqlıdır ki, Qafqazda ilk xristian məbədi Qarabağda – qədim türk tayfası olan **sakların** toplu halda yaşadığı **Ərsakda*** *(Arsak) yaradılmışdır. Xristian məbədlərimiz erməni işğalı altında olduğu zaman ermənilər bu məbədlərin üzərindəki kitabələri saxtalaşdırıb dünyaya erməni abidəsi kimi təqdim etmişlər.*

***Ərsak** – erkən orta əsrlərdə Qarabağın dağlıq hissəsi sak ərinin – igidinin adı ilə bağlı belə adlanırdı. Erməni işğalçıları qədim Azərbaycan torpağı olan Qarabağın dağlıq ərazilərinə sahib çıxmaq üçün Ərsak adını saxtalaşdırıb "Artsax" kimi təqdim edirlər.*



Qarabağ. Amaras monastırı

1. Feodalizmin xüsusiyyətlərinə aid cədvəl qur.

2. "Azərbaycanda və Avropada feodal münasibətləri" cədvəlinə əsasən müəyyən et:

a. Feodal münasibətləri hansı ərazilərdə daha sürətlə inkişaf etmişdir?

b. Səncə, Azərbaycanda hansı səbəbdən feodalların xüsusi təsərrüfatı olmurdu? Fikrini faktlarla əsaslandır.

3. VII əsr xalqımızın formalaşmasında nəyə görə önəmli mərhələ hesab edilir? Fikrini əsaslandır.

4. Azərbaycana türk tayfalarının axınları haqqında əlavə məlumat topla.

2. ƏRƏB İŞĞALINA QARŞI MÜBARİZƏ. CAVANŞİR

VII əsr Azərbaycan tarixi çox mürəkkəb siyasi-hərbi proseslərlə zəngindir. Sasani imperiyası ərəblərin istilasına məruz qaldığı bir vaxtda öncə Azərbaycanın cənubu, ardınca da şimal hissəsi təhlükə altına düşdü.

Gəlin tədqiqata başlayaq. VII əsrdə Albaniya dövləti kimlərin hücumuna məruz qaldı? Sasani imperiyası vassalını qoruya bildimi? Belə bir vəziyyətdə Albaniya hökmdarı necə siyasət yeritdi?

Mehranilər, Cavanşir, Bərdə, Hun keçidi, xəzərlər, Bizans, Ərəb xilafəti, Bələncər döyüşləri

Mehranilər sülaləsinin hakimiyyətə gəlməsi. VII əsrin əvvəllərində Azərbaycanın şimalında – Albaniyada Mehranilər sülaləsinin hökmranlığı başladı. Daha öncə bu sülalə Girdiman vilayətində hakimiyyətə gəlmişdi. Sülalənin banisi Mehran idi. O, sabirlər adlı türk tayfalarına mənsub idi. Mehran Girdiman vilayətində Mehrəvan qalasını saldırdı. Sonralar Mehranilərin hakimiyyəti bütün Albaniyanı əhatə etmiş, Bərdə şəhəri də yenidən paytaxt olmuşdu.

VII əsrin 30-cu illərində Albaniya Sasani imperiyasından asılı vəziyyətdə idi. Bu səbəbdən də Albaniya hökmdarı oğlu **Cavanşiri** böyük qoşunla ərəblərə qarşı vuruşmaq üçün göndərdi. Gənc sərkərdə Cavanşir döyüşlərdə igidliyi ilə fərqləndi, İran şahı onu qızıl silahla mükafatlandırdı. Lakin Sasani imperiyasının paytaxtı Mədain (Ktesifon) ərəblər tərəfindən mühasirəyə alındıqdan sonra Cavanşir vətəninə qayıtdı.

Doğma vətənin təhlükəsizliyini təmin etmək üçün atası Cavanşiri ***642-ci ildə*** hökmdar taxtına çıxardı. Albaniya tarixçi-salnaməçisi Musa Kalankatlının yazdığına görə, Cavanşir İberiya* sərhədlərindən Hun qapısına* və Araz çayına qədər ərazilərdə hökmranlıq etmişdir.

Azərbaycana ərəblərin ilk yürüşləri. Ərəb dövləti yarandıqdan az sonra onun Sasani və Bizansa qarşı qalibiyyətli yürüşləri başlandı. İslam bayrağı altında birləşmiş ərəb tayfaları ilk xəlifələrin dövründə yeni dini yaymaq, kafirləri "gerçək, düzgün yola gətirmək" adı altında bir çox əraziləri işğal etdilər. VII əsrin 30–40-cı illərində Azərbaycan Xilafət ordusu ilə ilk dəfə açıq döyüşlərdə üzləşməli oldu.

Səncə, Xilafət ordusunun yürüşlərinin əsas məqsədi nə idi: din yaymaq, yoxsa yeni torpaqlar ələ keçirmək?

**İberiya* – Şərqi Gürcüstanın – Kartlinin antik mənbələrdə adı*

**Hun qapısı* – Dərbənd keçidinin adlarından biri

639-cu ildə ərəb qoşunları Qəzvini tutdular və Cənubi Azərbaycanın digər bölgələrinin də işğalına başladılar. **642-ci ildə** ərəb sərkərdəsi Azərbaycan (ərəb mənbələrində ölkəmizin cənubu ***Azərbaycan***, şimal hissəsi ***Arran*** adlanırdı – *red.*) mərzbanı ***İsfəndiyar ibn Fərruxzadla*** döyüşdə qalib gəldi və onunla sülh bağladı. Bu məğlubiyyətdən sonra Cənubi Azərbaycan əhalisi Xilafətə tabe edildi. Yerli əhali üzərinə vergi qoyuldu.

Cavanşir döyüşdə

Ərəb ordusu daha sonra Muğana, Şirvana, Dərbəndə doğru yürüşlərə başladı. Ərəblər Muğanda yerli əhalinin güclü müqaviməti ilə üzləşdilər. Yalnız üç il davam edən mübarizədən sonra Muğan ələ keçirildi. Həmin vaxt ərəblər Azərbaycanın işğalını tam başa çatdırmasalar da, Dərbəndi tutmağa can atırdılar.

Şirvan və Dərbəndin hakimi ***Şəhriyar*** ərəb sərkərdəsi ilə sülh bağladı. Yerli əhali ərəblərə tabe olmalı və vergi ödəməli idi. Lakin xəlifənin göstərişi ilə Dərbənd əhalisi vergidən azad edildi. Əvəzində isə onlar bütpərəstlərə və Xilafətin düşmənlərinə qarşı döyüşlərdə iştirak etməli idilər.

! ***Yadına sal: Sasani dövləti Dərbənddə möhkəmlənmək üçün hansı addımlar atdı?***

Ərəblər daha sonra Dərbənddən şimala, Xəzər xaqanlığının paytaxtına doğru yürüşə başladılar. Lakin ***Bələncər*** yaxınlığındakı döyüşdə xəzərlərə məğlub oldular.

Ərəblərin Azərbaycana yeni yürüşü **653-cü ildə** baş verdi. Xəzərsahili düzənlik əraziləri yenidən itaət altına alan ərəb ordusu ***Bələncər yaxınlığında*** yenə də xəzərlərə məğlub oldu.

Müdrik dövlət xadimi. Mehranilərin ən görkəmli nümayəndəsi, bacarıqlı dövlət xadimi, tədbirli sərkərdə Cavanşir olmuşdur. Cavanşir dinc quruculuq işlərini həyata keçirmək, ölkənin daxili sabitliyini təmin etməklə yanaşı, həm də uğurlu xarici siyasət yeridirdi.

VII əsrin ortalarında Cavanşir ərəblərə qarşı mübarizəni qətiyyətlə davam etdirdi. **654-cü ildə** Bizans imperatoru ilə ittifaq yaratdı. Xilafətə qarşı birgə mübarizə aparmaq haqqında imperatorla razılığa gəldi. Lakin Bizans öz öhdəliyini sonadək yerinə yetirmədi.

ALBANİYA VII əsrdə



! ***Xəritəyə əsasən "Albaniya VII əsrdə" adlı esse yaz.***

VII əsrin 60-cı illərinin əvvəlində Albaniya şimaldan xəzərlərin hücumuna məruz qaldı. Cavanşir Kür çayı sahilində döyüşdə xəzərləri məğlub edib qovdu. 3 il sonra xəzərlər daha böyük qüvvə ilə basqın etdilər. Araz çayına qədərki ərazini qarət edərək, çoxlu qənimət, əsir ələ keçirdilər. Cavanşir Xəzər xaqanı ilə sülh bağladı və xaqanın qızı ilə evləndi. Xəzərlər bütün əsirləri və qənimətləri geri qaytardılar. Bununla xəzərlərin hücumlarının arası kəsildi.

VII əsrin 60-cı illərinin sonunda Cavanşir Xilafətlə münasibətləri diplomatik yolla nizama saldı. Bu məqsədlə iki dəfə Xilafətin paytaxtı Şam (Dəməşq) şəhərinə gedib xəlifə Müaviyə ilə görüşdü. Razılaşmaya

görə, xəlifə Albaniyanın daxili müstəqilliyinə toxunmadı, Albaniyadan alınan vergilər üçdə bir qədər azaldıldı. Xəlifənin bu güzəştə getməsinin səbəbi Albaniyanın əlverişli strateji-coğrafi mövqeyi, zəngin sərvətlərə malik olması və Albaniya hökmdarı Cavanşirin şəxsi nüfuzu idi.

*Cavanşirin müasiri olmuş Albaniya tarixçisi **Musa Kalankatlı "Albaniya tarixi"** əsərində onun haqqında yazmışdı: "O bütün gecələri yuxusuz keçirir, Vətənin xeyri barədə fikirləşirdi". Cavanşir paytaxt Bərdəni abadlaşdırdı, saraylar tikdirdi. Alimləri, şairləri, sənətkarları himayə etdi. O, mərkəzi hakimiyyəti möhkəmləndirir, müstəqilliyə can atan iri feodal əyanlarına qarşı mübarizə aparırdı.*

Sən hökmdar olsaydın, belə bir çətin vəziyyətdə hansı addımlar atardın?

Bu dövrdə Cavanşir ağıllı və uzaqgörən siyasəti ilə ölkəsini Sasani, Bizans, Xəzər və Ərəb dövlətlərinin viranedici basqınlarından xilas etdi. Ölkə daxilində iqtisadiyyatın dirçəlişinə nail oldu, sənətkarlığın, ticarətin, mədəniyyətin inkişafına şərait yaratdı.

Alban hökmdarının Xilafətlə normal münasibətlər yaratmasına qısqanclıqla yanaşan bizanspərəst qüvvələr 681-ci ildə ona sui-qəsd təşkil etdilər. Cavanşirin öldürülməsindən sonra Albaniya yenidən Ərəb xilafəti, Xəzər xaqanlığı və Bizans arasında müharibə meydanına çevrildi. Daha güclü olan Xilafət qalib gəldi və **705-ci ildə** isə Mehranilər sülaləsinin hakimiyyətinə son qoydu, Albaniyanın daxili müstəqilliyini ləğv etdi.

VIII əsrdə Azərbaycan uğrunda ərəblərlə xəzərlər arasında müharibələr daha da şiddətləndi. **VIII əsrin 30-cu illərində** xəzərlər ərəbləri sıxışdıraraq Ərdəbilə çatdılar. ***Savalan dağı yaxınlığında*** döyüşdə ərəb ordusuna qalib gəldilər. Daha sonra xəzərlər Diyarbəkir və Mosulu ələ keçirdilər. Xəlifə onlara qarşı böyük bir ordu göndərdi. Ərəb ordusu Van gölü yaxınlığındakı ***Hilat şəhəri ətrafında*** xəzərlərin hücumunu dayandıra bildi. Hərbi üstünlüyü ələ keçirən ərəblər xəzərləri Azərbaycandan çıxardılar.

1. Mehranilər sülaləsi nə zaman hakimiyyətə gəldi?
2. Cavanşirin hakimiyyətə gəldiyi dövrdə ölkədə vəziyyət necə idi?
3. Albaniyanın süqutunu sürətləndirən səbəb nə idi?
4. Cavanşiri Ərəb xilafəti ilə danışıqlara vadar edən səbəbləri müəyyənləşdir.
5. Ərəb işğallarına aid xronoloji cədvəl qur.

3. XİLAFƏT DÖVRÜNDƏ İDARƏETMƏ, TORPAQ VƏ VERGİ SİYASƏTİ

Azərbaycanın ərəblər tərəfindən işğalı başa çatdıqdan, Ərəb-Xəzər müharibələri bitdikdən sonra Azərbaycanda sabitlik yarandı. Ərəblər Sasanilərin idarəçilik sistemini, vergi siyasətini, demək olar ki, mənimsəmişdilər. Gəlin tədqiqat aparaq.

Ərəb işğallarından sonra Azərbaycanda tətbiq olunan vergilər əhalinin vəziyyətinə nə cür təsir etdi? Bu dövrdə ölkəmizin iqtisadi və siyasi vəziyyəti necə oldu?

Əmirlik, köçürmə siyasəti, rabatlar, xərac, cizyə, zəkat, divan, iqta, vəqf, mülk

İnzibati idarəçilik. Ərəb ağalığı dövründə bütün hakimiyyət ərəb canişininin – əmirin əlində cəmləşdi. Ərəblər Azərbaycanı işğal etdikdən sonra Azərbaycan və Qafqazın tabe edilmiş digər bölgələri bir əmirliyə daxil edildi. Əmirliyin iqamətgahı ***Dəbil şəhərində*** yerləşirdi. İlk vaxtlar yerli əyanlardan idarəçilikdə geniş istifadə edilirdi. VIII əsrin əvvəlində Xilafət Qafqazın idarə olunmasında dəyişiklik etdi. Bütün Qafqaz, Azərbaycanın cənubu istisna olmaqla, ayrıca bir əmirliyə çevrildi. Əmirliyin mərkəzi Dəbildən ***Bərdəyə*** köçürüldü. Bərdədə və digər mühüm strateji əhəmiyyətə malik şəhərlərdə, həmçinin mahal mərkəzlərində ərəb qarnizonları yerləşdirildi. Xəlifənin təyin etdiyi ***əmir*** *mülki idarəçiliyi* həyata keçirməklə bərabər, buradakı ərəb hərbi qüvvələrinə də komandanlıq edirdi. Tədricən bütün önəmli vəzifələrə ərəblər təyin edildi.

Xilafət ordusunun yürüşü (Orta əsr miniatürü)

AZƏRBAYCAN ƏRƏB XİLAFƏTİNİN TƏRKİBİNDƏ



? ***Ərəblərin bütün önəmli vəzifələrə təyin edilməsi nədən xəbər verirdi? Səncə, yerli əyanlar hakimiyyətdən niyə uzaqlaşdırıldı?***

Ərəblər Azərbaycanda, əsasən də Xəzərsahili vilayətlərdə möhkəmlənməyə xüsusi diqqət yetirirdilər. Ərəb–Xəzər müharibələrinin taleyi, Xilafətin bütün Qafqazda mövqeyinin güclənməsi həmin bölgələrdə ərəb təsirinin artmasından birbaşa asılı idi. Ona görə də Xilafət Xəzəryanı bölgələrdə yaşayan əhali içərisində cidd-cəhdlə islamı yayır, müqavimət göstərənləri Xilafət hüdudlarından kənarlaşdırırdı.

? ***Ərəb xilafətinin Azərbaycanın Xəzərsahili vilayətlərində möhkəmlənməyə xüsusi diqqət yetirməsinin səbəbi nə idi?***

Köçürmə siyasəti. Xilafət Azərbaycanda mövqeyini möhkəmləndirmək üçün köçürmə siyasətindən fəal istifadə edirdi. Xilafət qoşunları Azərbaycanı tutduqdan sonra Kufə, Bəsrə və Suriyadan ərəb tayfalarını ölkəmizə köçürdü. Dərbənd, Bərdə, Beyləqan, Dəbil, Tiflis, Ərdəbil, Təbriz və digər strateji əhəmiyyətli şəhərlərdə ərəb hərbi dəstələri yerləşdirildi. Bu şəhərlərdə xüsusi hərbi məskənlər – ***rabatlar*** yaradıldı. Ərəb hərbi hissələri yerli əhalinin hesabına saxlanılırdı.

Ərəblər Dərbəndi ələ keçirdikdən sonrakı ilk illərdə Suriya və İraqdan köçürülmüş 7 min müsəlman ailəsini qalada və onun yaxınlığında yerləşdirdilər. VIII əsrin 20-ci illərində xilafət Dərbəndi yenidən tutduqdan sonra şəhərə Suriyadan çoxlu sayda ərəb döyüşçüsü köçürdü. Bu zaman qala divarları təmir edildi, qalada isə ərzaq və silah anbarları yaradıldı.

Köçürmə siyasətinin əsas məqsədi hərbi-strateji əhəmiyyəti olan bölgələrdə və qalalarda Xilafətin hakimiyyətini möhkəmləndirmək, etnik dayaq yaratmaq, Xəzər xaqanlığının hücumlarının qarşısını almaq üçün sərhədlərin mühafizəsini yaxşılaşdırmaq idi. Təsadüfi deyil ki, Qafqazda ən çox ərəb ailəsi yerləşdirilən bölgə Azərbaycanın Xəzəryanı bölgələri, xüsusən də Dərbənd və onun ətrafı idi.

*Ərəb müəllifi **əl-İstəxri** ərəblərin Dərbəndə köçürülməsi səbəbləri haqqında yazmışdır: "Orada (Dərbənddə) yaşayan adamlara tapşırılmışdı ki, xəzərlərin islam torpaqlarına keçə biləcəyi yolları qorusunlar". Ona görə də yalnız VIII əsrin sonunda, Ərəb–Xəzər müharibələri tam başa çatdıqdan sonra ərəblərin Azərbaycana köçürülməsi dayandırıldı.*

Ərəblərin Azərbaycana kütləvi köçürülməsinin mühüm nəticəsi ölkəmizdə islamın qəti möhkəmlənməsi oldu. Ölkəmizə köçürülən ərəb ailələri isə sonrakı dövrdə yerli türk əhali ilə qaynayıb-qarışdılar.

"Türk-islam mədəniyyətinin formalaşmasına köçürülmələrin təsiri" mövzusunu yoldaşlarınla müzakirə et.

Torpaq sahibliyi. Ərəb ağalığı dövründə Azərbaycanda *torpaq sahibliyinin* 5 əsas forması var idi. ***Divan*** – dövlət (xəlifə) torpaqları əsas yer tuturdu və gəliri birbaşa dövlət xəzinəsinə daxil olurdu. Dövlətə xidmətə, əsasən də hərbi qulluğa görə verilən torpaq ***iqta*** adlanırdı. İqtanın iki forması var idi: bağışlanan iqta nəsildən-nəslə keçirdi, ***icarə edilən iqta*** isə şərti idi. Yerli feodalların irsi torpaqları ***mülk***, sahibi ***malik*** adlanırdı. ***Vəqf*** – dini idarələrin, məscid və pirlərin ixtiyarında olan torpaqlar idi. Vəqf icarəyə verilirdi, lakin onu satmaq, bağışlamaq olmazdı. ***İcma*** – camaat torpaqları idi. Vergilərin əsas ağırlığı kəndlilərin becərdiyi bu torpaqların üzərinə düşürdü.

Vergi və mükəlləfiyyətlər. Ərəb xilafəti Sasani dövlətinin *vergi sistemini* qismən dəyişiklik etməklə qüvvədə saxladı. İlk xəlifələr dövründə vergilər xeyli yüngül idi. Əsas vergi ***xərac*** – torpaq (məhsul) vergisi idi. Xristianlardan və yəhudilərdən ***cizyə*** – can vergisi alınırdı. Xəlifə Əli vergi sahəsində ədalətli islahat keçirdi: əkilməyən torpaqdan xərac alınmasını dayandırdı.

Xəlifə Əlinin becərilməyən torpaqlardan xərac toplamağı qadağan etməsini necə qiymətləndirirsən? Fikrini əsaslandır.

Əməvilər sülaləsinin dövründə vergilər artırıldı. 725-ci ildə əhali və əmlakı siyahıya alındı, meyvə bağları, sənətkar emalatxanaları üzərinə əlavə vergilər qoyuldu. Ərəb ağalığı dövründə müsəlman əhali, həmçinin yeni əldə edilmiş daşınan əmlaka və hərbi qənimətə görə ***xüms***, ehtiyac içində olan müsəlmanların xeyrinə ***zəkat*** adlı vergi və rüsumlar ödəməli idi.

Ərəb xilafətinin tətbiq etdiyi vergi siyasətini Sasanilərin vergi siyasəti ilə müqayisə et.

VIII əsrin ortalarında Abbasilər sülaləsi hakimiyyətə gəldikdən sonra vergilərin miqdarı yenidən artırıldı, həm də Sasani dövründə olduğu kimi, xərac məhsula görə deyil, torpaq sahəsinə görə toplanmağa başlandı. Vergiləri ödəyə bilməyənlərin övladları qula çevrilirdi.

Ərəb xilafəti dövründə Azərbaycanda zərb edilmiş gümüş dirhəm

1. Xilafətin Azərbaycanda tətbiq etdiyi köçürmə siyasətinin məqsədi nə idi?
2. Ərəblərin ağalığı dövründə Azərbaycanın sosial-iqtisadi inkişafına dair sxem qur.
3. Ərəb müəllifi əl-İstəxrinin məlumatına əsasən ərəblərin Dərbəndə köçürülməsinin səbəblərini sadala.
4. Xəzəryanı bölgələrin ərəblər üçün strateji əhəmiyyətini təhlil et.
5. Ərəblərin vergi siyasətini özündə əks etdirən sxem tərtib et.

4. XÜRRƏMİLƏR HƏRƏKATI. BABƏK

Cavanşir və Babək kimi sərkərdələrin qəhrəmanlıqları böyük vətənpərvərlik məktəbinə çevrilmiş, Vətənin bütövlüyünün, xalqın birliyinin təcəssümü olmuşdur.

HEYDƏR ƏLİYEV

İslam dininin Azərbaycanda yayılması mütərəqqi nəticələrə gətirib çıxarsa da, ərəblərin hökmranlığı ölkədə ciddi narazılığa səbəb oldu. Bu narazılıqlar yüksək həddə çatanda üsyanlar baş verdi. VIII əsrdə baş verən üsyanlar amansızlıqla yatırılsa da, əhali bundan çəkinmir, azadlıq mübarizəsini davam etdirirdi. Ən güclü üsyan IX əsrdə Babəkin başçılığı ilə baş verdi.

Xürrəmilər hərəkatının səbəbləri nə idi? Babəkin başçılığı ilə üsyan niyə məğlub oldu?

Xürrəmilər hərəkatı, Babək, Bəzz qalası, Həşdadsər döyüşləri, Afşin

Böyük sərkərdənin mübarizəsi. Ərəb tayfalarının Azərbaycana köçürülməsi, Xilafətin ağır vergi siyasəti və məmurların özbaşınalığı yerli əhali arasında narazılığı artırdı. Yerli feodalların mülk və imtiyazlarının məhdudlaşdırılması onların da ərəblərdən üz döndərməsinə səbəb oldu.

Xalq qəhrəmanı Babək

Ərəblərə qarşı azadlıq mübarizəsinin ən parlaq səhifələrindən biri ***Xürrəmilər**** hərəkatı idi. Təqribən 60 ildən artıq mübarizə aparan xürrəmilər ədalətli cəmiyyət qurmağa, insanlar arasında əmlak bərabərliyinə nail olmağa çalışırdılar. Xürrəmilər V əsrin sonu – VI əsrin əvvəllərində İranda geniş yayılmış xalq hərəkatının – Məzdəkilər hərəkatının ideya davamçıları idilər. Lakin məqsədləri daha ali olan xürrəmilər həm də Azərbaycanı yadellilərin əsarətindən azad etməyə çalışırdılar.

816-cı ildən etibarən xürrəmilərin başçısı ***Babək*** olmuşdur. O, ətrafına güclü sərkərdələr top-

***Xürrəm** – türk dilində "şad, firavan", fars dilində isə "od, günəş" mənasında işlənirdi.

lamışdı. Müaviyə, Abdulla (hər ikisi Babəkin qardaşı idi), Tarxan, Adin (Aydın) və başqaları xürrəmi dəstələrinə başçılıq edirdilər.

Xürrəmilər hərəkatının əsas iştirakçıları kəndlilər idilər. Şəhər yoxsulları və yerli feodalların bir qismi də xürrəmilərə qoşulmuşdu. Qaradağ bölgəsindəki ***Bəzz qalasında*** Babəkin iqamətgahı yerləşirdi.

Babək döyüşdə

Babəkin gördüyü tədbirlər öz bəhrəsini verdi. Xalqımızın azadlıq mübarizəsi geniş vüsət aldı. Xilafət üçün qorxulu qüvvəyə çevrildi. Xürrəmilər qısa müddət ərzində Sünik, Bərdə, Beyləqan, Arsak və Arranın digər vilayət və şəhərlərini azad etdilər.

Xürrəmilərin qələbələri xəlifəni qorxuya saldı. **819-cu ildə** o, Xilafətin mərkəzindən xürrəmilərin üzərinə böyük ordu göndərdi. Üsyançılar ərəblərin ordusunu məğlubiyyətə uğratdılar. Bu qələbədən sonra xürrəmilər Xilafətin daha bir neçə nizami ordusunu darmadağın etdilər.

Azadlıq mübarizəsinin geniş vüsət aldığını görən xəlifə iki il davam edən ciddi hazırlıqdan sonra Azərbaycana yeni ordu göndərdi. **829-cu ildə** ***Həşdadsər dağı yaxınlığında*** ərəblərlə xürrəmilər arasında şiddətli döyüş baş verdi. Düşmənin məqsədi xürrəmiləri məhv edib Bəzz qalasını ələ keçirmək idi. Lakin Babəkin hərbi bacarığı nəticəsində ərəb ordusu məğlub edildi.

Xürrəmilərin üstünlüyü nədə idi? Fikrini əsaslandır.

830-cu ildə növbəti döyüşdə xürrəmilər parlaq qələbə qazandılar. *Həmədan şəhərini* azad etdilər. Bu şəhər ərəblər üçün strateji əhəmiyyət kəsb etdiyindən Xilafətin vəziyyəti daha da ağırlaşdı. Xəlifə Bizansla müharibəni dayandırdı və bütün qüvvələri xürrəmilərə qarşı yönəltdi. Nəticədə Həmədan şəhəri uğrunda 833-cü ilin sonunda baş verən döyüşdə Babəkin qoşunları ilk dəfə ağır məğlubiyyətə uğradı.



Həşdadsər döyüşünün sxemi.
836-cı il

Xilafəti sarsıdan məğlubiyyət. Ərəb xilafəti külli miqdarda pul vəsaitini və hərbi qüvvələrini xalqımızın üzərinə yönəltdi. Bacarıqlı türk sərkərdəsi Afşin xürrəmilərə qarşı vuruşan ərəb ordusuna komandan təyin edildi. Afşin dərhal ciddi hazırlıq tədbirləri görməyə başladı. Öz iqamətgahını xürrəmilər hərəkatının mərkəzinə yaxın olan Bərzəndə köçürdü. Bərzəndlə Ərdəbil arasında yolları və qalaları bərpa etdirdi. Xürrəmi dəstələri arasına kəşfiyyatçılar göndərdi.

Mübarizənin uzanması və Afşinin gördüyü tədbirlər tədricən qüvvələr nisbətini ərəblərin xeyrinə dəyişdi. Xürrəmilər hərəkatı uzun sürən döyüşlər nəticəsində zəiflədi. Xilafətin mövqeyinin güclənməsi ilə əlaqədar Babəkin müttəfiqi olan feodallar ondan uzaqlaşdılar. Bununla belə, xürrəmilər mübarizə əzmini itirmirdilər. **836-cı ildə *Həşdadsər dağı yaxınlığındakı*** növbəti döyüşdə xürrəmilər Babəkin sərkərdəlik məharəti nəticəsində ərəblər üzərində yenidən qələbə qazandılar. Düşmənin çoxlu canlı qüvvəsi məhv edildi, üsyançılar xeyli silah, ərzaq və digər qənimətlər ələ keçirdilər.

Sxem əsasında döyüşü təsvir et.

Sərkərdə olsaydın, qələbə qazanmaq üçün hansı addımları atardın?

Xəlifə Afşinə kömək üçün yenidən iki böyük ordu və xeyli pul göndərdi. Düşmən qüvvələri **837-ci ilin yayında** Bəzz qalasını mühasirəyə aldılar. Belə bir vaxtda Afşin Babəkə sülh təklif etdi. Məqsədi Babək və onun qüvvələrindən Bizansa qarşı müharibədə istifadə etmək idi. Lakin Babək sülh təklifini rədd etdi və Vətən uğrunda sona qədər vuruşmağı üstün tutdu. Yaxşı silahlanmış çoxsaylı düşmən ordusu ilə döyüşə başladı. Ərəblər mancanaqlardan* istifadə edərək Bəzz qalasını çətinliklə də olsa tuta bildilər. Ələ keçirilən əsirlərin arasında Babəkin ailə üzvləri və yaxın qohumları da var idi.

* ***Mancanaq*** – qala divarlarını dağıtmaq üçün daş, yanar maye atan qurğu

Babək Araz çayını keçib Azərbaycanın şimalına – Arrana gəldi. Onun məqsədi Bizansa getmək, imperatorun köməyi ilə yeni qüvvə toplayıb müharibəni davam etdirmək idi. Xəlifə Babəki ələ keçirmək üçün yeni üsula əl atdı. Hər yerə xəbər yaydı ki, kim Babəkin yerini bildirsə və ya onu tutub ərəblərə təhvil versə, əvəzində 2 milyon dirhəm* pul mükafatı alacaq.

Afşini sərkərdə kimi necə qiymətləndirirsən? Fikrini əsaslandır.

Hiyləgər və acgöz alban feodallarından biri Babəki öz mülkünə dəvət etdi, sonra isə xəyanət yolu ilə onu Afşinə təhvil verdi.

Babəki Afşinin Bərzənddəki düşərgəsinə gətirdilər. Sonra onu Samirə şəhərinə apardılar. 838-ci ildə xəlifənin əmri ilə Babək edam edildi.

Orta əsrlərin digər üsyanları kimi, Xürrəmilər hərəkatı da məğlub oldu. Azadlıq müharibəsinin uzanması nəticəsində qüvvələr nisbətinin ərəblərin xeyrinə dəyişməsi məğlubiyyətin əsas səbəbi idi. Vətəni deyil, öz var-dövlətlərini qoruyan feodalların xəyanəti də xürrəmilərin qüvvəsini zəiflətdi.

Xürrəmilər hərəkatı Xilafətin əsarəti altında olan digər xalqların da azadlıq mübarizəsinə təkan verdi. Babəkin başçılıq etdiyi xalq azadlıq hərəkatı nəticəsində Xilafət sarsıldı və əvvəlki mövqeyini bir daha bərpa edə bilmədi. IX əsrin ikinci yarısında Xilafətdən asılı olan ölkələrdə, o cümlədən Azərbaycanda bir sıra müstəqil yerli dövlətlər meydana gəldi.

Xəlifə Babəkin əl-ayağının kəsilməsini əmr etdi. Babəkin bir əlini kəsdikdə o biri əlini qana batırıb üzünə sürtdü və üz-gözünü qanla qızartdı. Xəlifə bunun mənasını soruşduqda Babək dedi: İnsanların yanağı bədənindəki qana görə qırmızı olur. Qan bədəndən axıb getsə üz saralar. Mən üzümü ona görə qana boyadım ki, bədənimdən qan axıb gedən zaman camaat deməsin üzünün rəngi qorxudan qaçıbdır.

Səid Nəfisi. *Azərbaycan qəhrəmanı Babək Xürrəmdin. Bakı, 1960.*

1. Nə üçün xalq ərəblərdən üz döndərdi?
2. Xəlifə nəyə görə Babəkə qarşı türk sərkərdəsini göndərdi?
3. Babəklə Cavanşiri Venn diaqramında müqayisə et.
4. Mətnə əsasən Xürrəmilər hərəkatının məğlubolma səbəblərini izah et.
5. Mətnə əsasən Xürrəmilər hərəkatının xronoloji cədvəlini hazırla.

***Dirhəm** – gümüş pul

5. İSLAMIN MİLLİ VƏ MƏDƏNİ İNKİŞAFA TƏSİRİ

Ərəb ağalığı dövründə islam dininin Azərbaycanda yayılması dövlət işləri ilə yanaşı təhsil, elm və ədəbiyyatda da ərəb əlifbasının və ərəb dilinin işlənməsinə səbəb oldu. Ölkəmizdə müsəlman memarlığı üslubunda məscidlərin, türbələrin inşasına başlandı. Gəlin tədqiqat aparaq.

Ərəb dilindən elmdə və ədəbiyyatda geniş istifadə edilməsinin nəticəsi nə oldu?

Ərəb dili, mənəvi birlik, Şamaxı Cümə məscidi, Musa Kalankatlı, Dəvdək

İslamın yayılması. Ərəblər ilk dövrdə peyğəmbərin göstərişlərinə uyğun olaraq, tabe etdikləri əhalini islama dəvət edir, ədalətli davranırdılar. İslam dininin insanların şəxsiyyətini və mülkiyyətini qoruması, Xilafətin Azərbaycan əhalisindən Sasani dövlətinə nisbətən dəfələrlə az vergi alması yerli əhalinin yeni dinə rəğbətini artırırdı.

İslam dini insanlara nə verdi? Bu din Azərbaycanın milli-mənəvi və mədəni tarixində hansı rolu oynadı?

Azərbaycanın müdrik adamları islam dininin yayılmasını ölkədə siyasi sabitlik və milli birlik üçün təminat hesab edirdilər. Yeni din Azərbaycanın cənubunda, Muğanda, Mildə, Xəzər sahilində, şəhərlərdə daha sürətlə yayılırdı. Yalnız xristianların məskunlaşdığı dağlıq və dağətəyi yerlərdə islama müqavimət güclü idi. Ərəblər bütpərəst və atəşpərəstlərin islamı qəbul etməsində israrlı idi. Lakin xristianların vahid Allaha inanan "əhli-kitab" olmasını nəzərə alıb onları təqib etmir, cizyə almaqla kifayətlənirdilər. Xilafət xristianları itaətdə saxlamaqda kömək etdiyinə görə kilsəni vergidən azad etmiş və dövlət himayəsinə götürmüşdü.

Kəbə

Ərəb işğalları dövründə Albaniyanın xristian əhalisi

islam dininin təsirindən kənarda qaldı. Şimali Azərbaycanın qərb bölgələrində yaşayan xristian alban əhalini öz dini-siyasi və etnik-mədəni təsiri altına salmaq uğrunda erməni və gürcü kilsələrinin mübarizəsi gücləndi. Zaman keçdikcə xristian albanların bir hissəsi islamı qəbul etdi. Bəzi bölgələrdə, o cümlədən Qarabağın dağlıq hissəsində xristian alban əhali qriqorianlaşdırılmağa və ermənileşdirilməyə məruz qaldı.

İslamın ilk yayıldığı dövrdə Xilafətin apardığı siyasəti dəyərləndir. Bu cür siyasi addımın nə kimi əhəmiyyəti var idi?

Xalqımızın təşəkkülü. Azərbaycanda yaşayan bütün tayfalar islam dinini qəbul etdi. İslamın yayılması ilə ümumi ərazi, dil və soykök birliyinə ***mənəvi birliyin*** yaranmasında başlıca amil olan **dini birlik** də əlavə olundu. İslam dini vahid xalqın təşəkkülünə təkan verdi, bu prosesin başa çatmasına güclü təsir göstərdi. Çoxsaylı və hərbi cəhətdən üstün olan türk tayfaları xalqımızın təşəkkülündə həlledici rol oynadılar.

Türk və qeyri-türk etnosları arasında dini birlik nəticəsində Azərbaycan ərazisində vahid adət-ənənələrin təşəkkülünə imkan yarandı. Bütün türk və qeyri-türk etnosları qaynayıb qarışdılar və Cənubi Qafqazı özünə tabe etməyə çalışan Bizans imperiyasına, erməni və gürcü feodallarına qarşı vahid türk-islam bayrağı altında birləşdilər.

Beləliklə, ərəb ağalığı dövründə keçən yüzilliklərdən başlanmış vahid Azərbaycan xalqının formalaşması prosesi başa çatdı.

İqtisadi və mədəni həyatda əsas yeniliklər. Xilafətin Azərbaycana ciddi diqqət yetirməsi təkcə Xəzər xaqanlığı ilə uzun müddət davam etmiş müharibəni udmaq məqsədi daşımırdı. Bu həm də bəhs olunan dövrdə Xəzərsahili boyunca Şimali Qafqaza doğru uzanan ticarət yolunun əhəmiyyətinin kəskin surətdə yüksəlməsi ilə bağlı idi. Xilafət ərazisində ticarəti canlandırmaq üçün müsəlman və qeyri-müsəlman təbəələrindən olan tacirlərdən cəmi 5 faiz, xaricilərdən isə 10 faiz gömrük rüsumu alınmasına başlandı. Pul islahatı keçirilməsi, dövriyyədən Bizans, Sasani sikkələrinin çıxarılması, qəlp pul kəsilməsinə qarşı ciddi mübarizə aparılması maliyyə sahəsində qayda yaratdı.

Ticarət sahəsində atılan addımlar nə dərəcədə təsirli idi? Bu cür islahatlar Azərbaycana nə verdi?

Ərəblər Azərbaycanda möhkəmlənməklə bərabər, Bizansla rəqabəti öz xeyirlərinə dəyişmək üçün Şərq əyalətlərindən Kiçik Asiyaya doğru gedən karvan yollarını bağladılar. Beynəlxalq əhəmiyyətə malik Böyük İpək yolunun əsas istiqaməti Azərbaycana yönəldildi. Xəzərin qərb sahili və Kür çayı boyunca ticarət yolları daha böyük əhəmiyyət daşımağa başladı. Ərdəbil, Bərdə, Dəbil, Tiflis və Dərbəndin ticarət və sənətkarlıq mərkəzləri kimi əhəmiyyəti daha da artdı. VIII əsrin əvvəlində bu şəhərlərdə sikkə kəsilməsinə başlanması Azərbaycanın Xilafət üçün böyük əhəmiyyət daşımasının daha bir göstəricisi idi.

Kufi xətti ilə yazılmış daş kitabə

VII–IX əsrlərdə Xilafətə daxil olan ölkələrdə mədəniyyət sahəsində də ciddi dəyişikliklər baş verdi. Müsəlman şərqində ərəb dili rəsmi dövlət dilinə çevrildi. İdarə və məhkəmələrdə, məktəb və mədrəsələrdə, elmi və bədii əsərlər yazılarkən yalnız ərəb dili işlədilirdi. Azərbaycanlı mütəfəkkirlər yaratdıqları əsərlərlə islam mədəniyyətinin zənginləşməsində fəal iştirak edirdilər. Azərbaycanlı gənclər isə təhsillərini davam etdirmək üçün Bağdad, Nəcəf, Kufə, Mədinə şəhərlərinə gedirdilər. Bu dövrün görkəmli mədəniyyət xadimlərindən tarixçi ***Musa Kalankatlı*** və şair ***Dəvdək*** daha çox tanınırdılar.

Tərtər çayı üzərində daş körpü. Bərdə

Şamaxıda Cümə məscidi. VIII əsr. 1918-ci ildə ermənilər tərəfindən yandırılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə bərpa edilmişdir.

İslamın təsiri ilə memarlıq və xəttatlıq daha güclü inkişaf edirdi. Günbəzli məscidlər tikilir, kufi xətti ilə kitabələr yaradılırdı. Bu dövrdə Bərdədə Tərtər çayı üzərində daş körpü, Şamaxıda böyük Cümə məscidi inşa edilmişdi.

1. Orta əsrlərdə din birliyi olmadıqda hansı hadisələr baş verə bilərdi?
2. Nəyə görə islam dini atəşpərəstlik dinini sıxışdıra bildi?
3. Azərbaycan mədəniyyətinin inkişafında islam dininin rolu nədən ibarət idi?
4. Ərəblərin yerli əhaliyə münasibətini mətnə əsasən təhlil et.
5. "İslam dini və mədəniyyətimiz" adlı esse yaz.

AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN DİRÇƏLİŞİ

6. MÜSTƏQİL DÖVLƏTÇİLİYİN BƏRPASI

Sən artıq tədqiq etdin ki, Xürrəmilər hərəkatı məğlub olsa da, Xilafətin digər ərazilərində yeni üsyanların baş qaldırmasına səbəb oldu. Bu üsyanlar Xilafəti kökündən sarsıtdı. IX əsrin ikinci yarısında Xilafətin ucqar bölgələrində, o cümlədən Azərbaycanda müstəqil dövlətlər yarandı.

Gəlin tədqiqat aparaq. Xilafət daha hansı səbəblərdən süqut etdi? Azərbaycanda hansı dövlətlər yarandı?

Şirvanşahlar, Heysam ibn Xalid, Məzyədi sülaləsi, Şəki hakimliyi, Tiflis əmirliyi, Dərbənd əmirliyi

Dövlətçilik ənənəsinin davamı. IX əsrin ortalarında Ərəb xilafəti tabe etdiyi ölkələrdə azadlıq mübarizəsinin genişlənməsi, xüsusən də Babəkin başçılığı ilə xalq azadlıq müharibəsi nəticəsində zəiflədi. Əyalət hakimlərinin mövqeyi qüvvətləndi. Xüsusən imperiyanın ucqarlarındakı əmirlər tədricən mərkəzi hakimiyyətdən uzaqlaşdılar, müstəqil siyasət yeritməyə başladılar.

Xilafətin hakimiyyətinin zəifləməsi səbəblərini sinif yoldaşlarınla müzakirə et.

Belə bir şəraitdə Azərbaycanda siyasi oyanış başlandı. **Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər, Şəki hakimliyi, Tiflis əmirliyi, Dərbənd əmirliyi** və digər müstəqil və yarımmüstəqil dövlətlər yarandı.

Şirvanşahlar dövləti. Xilafətin mərkəzində yaranmış hərc-mərclikdən Şirvan hakimi ***Heysam ibn Xalid*** yararlandı. O, **861-ci ildə** şah titulunu qəbul edərək müstəqil siyasət yeritməyə başladı. Şirvanın Xilafətlə bütün əlaqələrini kəsdi. O, ərəb mənşəli Məzyədi sülaləsindən olduğu üçün bu şahlıq **Məzyədilər dövləti** də adlanırdı. Heysam ibn Xalidin varislərinin dövründə dövlətin sərhədləri möhkəmləndirildi, həmçinin paytaxt ***Şirvan şəhərində*** məhsul saxlanması üçün anbarlar tikildi. Şirvanşah **Əbu Tahir** dövlətin ərazisini cənubda Kür çayına, şimalda Dərbəndə kimi genişləndirdi. O, 918-ci ildə qədim **Şamaxını** bərpa etdirərək paytaxtı bu şəhərə köçürdü. Əbu Tahirdən sonra hakimiyyətə gələn oğlu və nəvəsi dövləti daha da möhkəmləndirdilər. ***Qəbələ və Bərdə*** bölgələri Şirvanşahlar dövlətinə birləşdirildi.

ŞİMALİ AZƏRBAYCAN IX əsrin ikinci yarısında

Şamaxı, Qəbələ və Bərdənin Şirvanşahlar dövlətinə birləşdirilməsinin nə kimi əhəmiyyəti var idi?

X əsrin 80-ci illərində Şirvanşahlar dövləti bir sıra yeni əraziləri, o cümlədən ***Şəki hakimliyi, Dərbənd əmirliyi və Tabasaranı*** tutaraq güclü dövlətlərdən birinə çevrildi. Şirvanşahlar qədim türk yurdu olan Dərbənddə böyük quruculuq işlərinə başladılar. Dərbənd səddi və şəhərin qala divarları təmir edilərək möhkəmləndirildi.

Azərbaycanın şimal-şərq torpaqlarında Şirvanşahlar dövlətinin yaranması ilə qədim dövlətçilik ənənələrimiz bərpa olundu. Şirvanşahların ölkəmizin şimal sərhədlərinin qorunması üçün atdığı addımlar slavyan və alanların basqınlarının dəf olunmasını xeyli asanlaşdırdı. Dərbənd, Şamaxı, Bakı və Şabran şəhərləri mühüm ticarət və sənətkarlıq mərkəzinə çevrildi.

Şirvanşahlar dövlətinin gümüş pulu dirhəm. X–XI əsrlər

Şirvanşah II Mənuçöhr dövrünə aid mis pul

Bu dövrdə müstəqillik qazanmış feodallıqlardan biri də ***Dərbənd əmirliyi*** *idi.* ***869-cu ildə Dərbənd hakimi Haşim əs-Sulami**** *özünü müstəqil elan etdi. Ərəb əsilli Haşimilər sülaləsinin hökmranlıq etdiyi Dərbənd əmirliyi öz müstəqilliyini X əsrin sonuna qədər qoruyub saxlaya bilmiş, Şirvanşahlar dövlətindən asılı vəziyyətə düşdükdən sonra da dəfələrlə öz müstəqilliyini bərpa etməyə cəhd göstərmişdi.*

IX əsrin 60-cı illərində ***Tiflis əmirliyi*** *də Ərəb xilafətinin təsirindən azad oldu. Burada öz hakimiyyətini bərqərar edən* ***Cəfərilər sülaləsi*** *müstəqil siyasət yeridirdi. Cəfəri əmirləri, hətta öz adlarından sikkə də zərb etməyə başlamışdılar.*

Şəki hakimliyi. IX əsrin 60-cı illərində Azərbaycanın şimal-qərbində ***Şəki hakimliyi*** yarandı. Digər Azərbaycan dövlətlərindən fərqli olaraq Şəki hakimliyi islamla xristianlıq arasında kəskin qarşıdurma bölgəsinə çevrilmişdi. Gürcü kilsəsi burada yaşayan xristian alban əhalisini öz təsiri altına salmağa çalışırdı. Gürcü hökmdarları da xristian albanları gürcüləşdirməyə, onların yaşadıqları əzəli Azərbaycan torpaqlarına yiyələnməyə çalışırdılar.

Şəki hakimləri çox mürəkkəb şəraitdə gürcü kilsəsinin və hökmdarlarının bu məkrli siyasətinə qarşı qətiyyətlə mübarizə aparır, Azərbaycanın şimal-qərb sərhədlərini uğurla qoruyub saxlayırdılar.

ŞAMAXI ADININ İZAHI HAQQINDA XALQ RƏVAYƏTLƏRİ

Belə deyirlər ki, lap uzaq keçmişdə Şam şəhərinin hökmdarı Şamaxıya qonaq gəlir. Şəhərin böyüklüyü, gözəlliyi, möhtəşəmliyi hökmdara Şam şəhərini xatırladır. Odur ki Şam hökmdarı Şamaxı hökmdarına deyir:

– Neçə vaxtdır ki, sənlə dostluq edirəm. Birinci dəfədir ki, sizə qonaq gəlirəm. Şəhəriniz bizim Şama çox oxşayır. Dostluğumuz, qardaşlığımız xatirinə sizin şəhəri bu gündən "Şam əxi" adlandıraq. Yəni "Şamın qardaşı".

... Başqa bir rəvayətdə deyilir ki, bu diyarda vaxtilə çox adamlar hökmdarlıq etmişlər. Yaradılan şəhəri də hökmdarlar, şahlar şərəfinə ilk dəfə "Şahmah" adlandırmışlar. "Şah" sözü böyük, "mah" isə şəhər mənasını ifadə edir. Yəni "Şah şəhəri". "Şahmah" sözü tələffüzdə getdikcə dəyişilmiş və Şamaxı formasına düşmüşdür...

Şamaxı. Bakı, 1994

1. Şirvanşahlar dövlətinin yaranmasının əhəmiyyəti nə idi?
2. Dərbəndin strateji əhəmiyyətini izah et.
3. Verilmiş mənbələri müzakirə et.
4. "Dövlətçilik ənənəsi" ifadəsini söz assosiasiyasında təhlil et.
5. Şəki hakimliyinin dini qarşıdurma meydanına çevrilməsi səbəblərini təhlil et.

---

* bəzi mənbələrdə Haşim ibn Suraka da yazılır.

7. AZƏRBAYCAN VAHİD DÖVLƏT TƏRKİBİNDƏ

IX əsrdə Azərbaycanın şimalında Şirvanşahlar dövlətinin yaranması dövlətçilik ənənələrimizin bərpasının başlanğıcı idi. Cənubda da müstəqil dövlətlər yarandı. Bir-birini əvəz edən bu dövlətlər ortaq xüsusiyyətlərə malik idi.

Gəlin tədqiqat aparaq. Azərbaycanda daha hansı dövlətlər yarandı? Bu dövlətlər hansı ərazi və sərhədlərə, həmçinin ortaq cəhətlərə malik idi?

Sacilər sülaləsi, Marağa, Ərdəbil, Salarilər sülaləsi, Zəncan, ticarət gəmisi

Sacilər sülaləsi Azərbaycanı vahid dövlətdə birləşdirir. Sacilər sülaləsinin mənsub olduğu türk tayfaları Ərəb ağalığı dövründə Mərkəzi Asiyadan Bizansla sərhəd bölgələrinə köçürülmüşdü. Bizansla sərhədi qoruyan bu tayfaların nümayəndələri Xilafət ordusunda çox mühüm rol oynayırdı. **IX əsrin 70-ci illərinin sonunda** Sacilər sülaləsinin banisi ***Əbu Sac Divdada*** ərəb ordusunda misilsiz xidmətinə görə Cənubi Azərbaycan iqta kimi verildi.



Əbu Sac Divdad

Əbu Sac Divdada iqta kimi verilmiş Cənubi Azərbaycan torpaqlarının Xilafət üçün nə kimi əhəmiyyəti vardı?

IX əsrin sonunda Əbu Sacın varisləri Cənubi Azərbaycanı müstəqil idarə etməyə başladılar. Əbu Sacın oğlu Məhəmməd öz adından pul kəsdirdi, qardaşı Yusif isə Xilafət xəzinəsinə xərac göndərməyi dayandırdı. Yusifin bu mövqeyi Xilafətlə Sacilər dövləti arasında müharibəyə səbəb oldu. İlk döyüşdə Yusif 7 minlik qoşunla Xilafətin 20 minlik ordusunu məğlubiyyətə uğratdı. Azərbaycanda Xilafətin nüfuzunu hər vasitə ilə bərpa etmək istəyən Xilafət bura ən bacarıqlı sərkərdələrindən birinin başçılığı altında ordu göndərdi. Xəlifənin böyük ümid bəslədiyi bu ordunu da



Yusif ibn Sac

Yusif məğlubiyyətə uğratdı. Ərəb sərkərdəsi başa düşdü ki, Yusif ilə döyüşə çox ciddi hazırlaşmaq lazımdır. O, bütün qüvvələrini səfərbər etdi və sonrakı döyüşdə Yusifin ordusuna qalib gəldi. Yusif əsir götürülərək xəlifə sarayına göndərildi və zindana salındı. O, 3 il Xilafətin zindanında əsir kimi saxlanıldı. Bu müddət ərzində Azərbaycanda ərəblərə qarşı mübarizə dayanmadı. Azərbaycanda əhalinin belə müqaviməti xəlifəni məcbur etdi ki, Yusifi zindandan azad etsin. O, Yusifi nəinki sərbəst buraxdı, hətta Azərbaycana qayıdıb Sacilər dövlətinə başçılıq etməsinə icazə verdi.

? ***Hansı faktlar Xilafətin Azərbaycan məsələsinə xüsusi diqqət yetirdiyini göstərirdi?***

Yenidən hakimiyyətə qayıdan Yusif dövlətçilik işləri ilə ciddi məşğul oldu və müstəqilliyini möhkəmləndirdi. O, Azərbaycanın şimalındakı feodal hakimliklərini, o cümlədən Şirvanşahlar dövlətini, Tiflis və Dərbənd əmirliklərini öz hakimiyyəti altında birləşdirməyə müvəffəq oldu. Elə bu dövrdə Ani və Dəbil şəhərləri kimi iri sənətkarlıq və ticarət mərkəzləri Sacilərin əlinə keçdi. Dərbənd səddi, şəhərin uçub-dağılmış hissələri təmir edildi.

Sacilər sülaləsinin hakimiyyəti dövründə paytaxt öncə ***Marağa***, sonra ***Ərdəbil*** idi.

Saci hökmdarları tarixdə ilk dəfə Dərbənddən Zəncana qədər bütün Azərbaycan ərazisini türk sülaləsinin hakimiyyəti altında vahid müstəqil dövlətdə birləşdirdilər. Bu da bütün ölkə miqyasında iqtisadi və mədəni əlaqələrin daha da dərinləşməsinə səbəb oldu. Cənubi Qafqazda Azərbaycan türk xalqının mövqeyi daha da möhkəmləndi.

Dövlət qarşısındakı xidmətlərinə görə Xilafətin ən böyük və ən zəngin əyalətlərindən biri olan Azərbaycan iqta olaraq Sacilərə verilmişdi... Sacilərin hakimiyyəti dövründə ... Azərbaycanın cənub bölgələri müstəqil dövlətə çevrilmişdi. Bu dövlət Abbasilər Xilafətinin dağıldığı dövrdə yaranmış siyasi hərc-mərclikdən istifadə edərək Azərbaycanın qərb torpaqlarını ələ keçirməyə çalışan erməni və gürcü hakimlərini dəfələrlə məğlubiyyətə uğratmış, özündən asılı vəziyyətə salmışdı.

Yaqub Mahmudov. *Azərbaycan tarixi. İntibah dövrü. Bakı, 1996.*

Sacilər sülaləsinin hakimiyyəti dövrünün Azərbaycan tarixi üçün əhəmiyyətini dəyərləndir.

Salarilər sülaləsinin hakimiyyəti. Deyləm hakimi ***Mərzban ibn Məhəmməd*** Sacilər dövləti daxilində feodal qrupları arasında baş verən çəkişmələrdən istifadə etdi, **941-ci ildə** Ərdəbili tutub, sonuncu Saci hökmdarını taxtdan saldı. O, Kəngərli türk soyundan olan **Salarilər sülaləsindən** (Salar türkcə "yurd tutan" deməkdir – *red.*) idi. Azərbaycanın cənubunda Salarilər sülaləsi hakimiyyətə gəldi. Mərzban ibn Məhəmməd qısa müddət ərzində Azərbaycanın şimal-qərb torpaqlarını, Şərqi Gürcüstanı və Şirvanşahlar dövlətini özündən asılı hala saldı. Əvvəllər Sacilərə tabe olan feodal hakimlər bundan sonra Salarilər dövlətinə bac verməyə başladılar.

?

Salarilər dövlətinin feodal hakimlərdən bac alma siyasəti nəyin nəticəsi idi? Bu dövrdə Salarilərin qüdrətinin artmasına şərait yaradan səbəb nə oldu?

AZƏRBAYCAN X əsrdə

Tarixi qaynaqlarda Mərzban ibn Məhəmməd ağıllı, bacarıqlı və adil bir hökmdar kimi qiymətləndirilir. O, ölkə daxilində çəkişmələrə son qoyaraq asayişi təmin etmişdi. Salari sülaləsinin hakimiyyəti dövründə paytaxt Ərdəbil idi.

Salarilər dövlətinin ərazisi Dərbənd keçidindən Dəclə və Fərat çaylarının yuxarı axarlarına qədər uzanırdı. Bu zaman bütün Azərbaycan torpaqları yenidən vahid dövlətdə birləşdirildi. Salarilərin hakimiyyəti dövründə Xəzər dənizində Azərbaycanın ticarət gəmiləri üzməyə başladı. X əsrin 60–70-ci illərində feodal ara müharibələri və hərc-mərclik gücləndi. Bu da Salarilər dövlətinin süqutunu sürətləndirdi.

Mərzban ibn Məhəmməd

Xəzər dənizində Azərbaycanın ticarət gəmilərinin üzməyə başlamasının nə kimi əhəmiyyəti var idi?

Dirhəm. Sacilər dövlətinin gümüş pulları

Dirhəm. Salari dövlətinin gümüş pulu

1. *Dövlətin sərhədlərini möhkəmləndirmək üçün Yusif ibn Sacın həyata keçirdiyi tədbirləri izah et.*
2. *Sacilərlə Salarilərin ortaq cəhətlərini müəyyən et.*
3. *Salari sülaləsinin hakimiyyətinin zəifləməsinə səbəb nə oldu? Fikrini əsaslandır.*
4. *Salarilərin Azərbaycan torpaqlarının bütövlüyünü qorumaq üçün həyata keçirdiyi tədbirlər hansılardır?*
5. *Azərbaycanın türk sülaləsinin hakimiyyəti dövründə vahid şəkildə idarə olunmasının əhəmiyyətini izah et.*

8. XUDAFƏRİN KÖRPÜSÜNÜN BİRLƏŞDİRDİYİ İKİ AZƏRBAYCAN DÖVLƏTİ

X əsrdə Azərbaycanda müstəqil dövlətçilik ənənələri davam etdirilirdi. Şimalda və cənubda yeni sülalələr hakimiyyətə gəldi. Lakin ölkəmizdə hakim sülalələrin tez-tez bir-birini əvəz etməsi xarici müdaxilələrə imkan yaratdı. Erməni və gürcü feodallarının, Bizansın hücumları artdı.

Gəlin tədqiqat aparaq. X əsrdə Azərbaycanda daha hansı dövlətlər yarandı? Yeni yaranmış dövlətlər, onların hökmdarları xarici müdaxilələrin qarşısını necə alırdı?

Məhəmməd ibn Şəddad, Gəncə, Rəvvadi sülaləsi, Təbriz, Xüdafərin körpüsü, oğuz tayfaları

Şəddadi sülaləsinin hakimiyyəti. Azərbaycanda yeni yaranmış feodal dövlətləri öz müstəqilliklərini qoruyub saxlamaq uğrunda daim mübarizə aparmalı olurdular. Lakin hakim sülalələrin bəziləri gərgin rəqabətə davam gətirə bilmir, bəziləri öz ərazilərini itirir, bəzilərinin də hakimiyyətlərinə son qoyulurdu. Bu mübarizədə yeni feodal dövlətləri yaranır və inkişaf edirdi.

Yaranan yeni feodal dövlətlərin tarixdəki rolu nədən ibarət olub?

Salarilər dövlətində orduda xidmət etmiş ***Məhəmməd ibn Şəddad*** bu sülaləyə qarşı çıxdı və 951-ci ildə Dəbili ələ keçirib müstəqil əmirlik yaratdı. O, **971-ci ildə** varisi I Ləşkəri Arazdan şimaldakı feodal mülklərini də özünə tabe etdi. Paytaxtı ***Gəncə*** olan müstəqil ***Şəddadilər dövlətinin*** əsasını qoydu. Az sonra Bərdə, Şəmkir torpaqlarını da ələ keçirdi.

Şəddadi Məhəmmədin Salarilərə qarşı çıxmasını qiymətləndir.

Şəddadi hökmdarı ***Fəzl ibn Məhəmməd*** (985–1030) dövləti daha da möhkəmləndirdi. O, Gəncə ətrafında xırda mülkləri ləğv edib mərkəzi hakimiyyəti gücləndirdi, ata-baba mülkü olan Dəbili yenidən öz dövlətinə birləşdirdi.

Fəzl ibn Məhəmməd **1027-ci ildə** hərbi məqsədlə Araz çayı üzərindən ***Xudafərin körpüsünü*** saldırdı. Bu körpü Azərbaycanın şimalı ilə cənubu arasında iqtisadi və mədəni əlaqələrin inkişafında mühüm rol oynadı. Fəzl ibn Məhəmmədin dövründə Şirvanşahlarla qohumluq, Tiflis əmiri və Rəvvadi hökmdarı ilə dostluq münasibəti yaradıldı.

XI əsrin 30-cu illərində Arazdan şimaldakı Azərbaycan torpaqlarında ***oğuz tayfalarının yeni nəsilləri*** məskunlaşdı. Bu tayfaların hesabına Şəddadilərin hərbi gücü artdı. Şəddadi-oğuz qüvvələri **1037-ci ildə** Dəbilə hücum edən Bizans-erməni qoşunlarını, bir il sonra isə Tiflis əmir-

Gəncə darvazası və qala divarı. Müasir görünüşü

Dirhəm. Şəddadilər dövlətinin gümüş pulu

liyinə soxulan Bizans-gürcü qoşunlarını məğlub edib qovdular. **1054-cü ildə** Şəddadi hökmdarı Əbüləsvar Şavur **Səlcuq dövləti ilə müqavilə bağladı və ona tabe oldu**. O, Gəncənin müdafiəsini möhkəmləndirmək üçün şəhərin ətrafına xəndək və hasar çəkdirdi. *1063-cü ildə möhkəm qala qapıları düzəltdirdi*. Qapıları ***usta İbrahim Osman oğlu*** hazırlamışdı.

*1034-cü ildə hakimiyyətə gələn Şəddadi hökmdarı **II Ləşkəri** on beş illik hakimiyyəti dövründə Azərbaycanın qərb torpaqlarını qorumaq üçün dəfələrlə savaşmalı olmuşdu. Qətran Təbrizi öz qəsidəsində "Aranşah" adlandırdığı bu Şəddadi hökmdarının Bizans-erməni-gürcü hərbi qüvvələrinin hücumlarını uğurla dəf etməsini iftixarla vəsf etmişdir.*

Rəvvadi sülaləsinin Təbrizdə möhkəmlənməsi. Təbriz, Marağa və Əhər hakimi ***Əbülhica* 981-ci ildə** sonuncu Salari hökmdarını devirib yeni – ***Rəvvadilər dövlətinin*** əsasını qoydu. Rəvvadi sülaləsi *ərəb mənşəli* olsa da, sonrakı dövrdə yerli türk əhali ilə qaynayıb-qarışmışdı. Rəvvadilər

Təbriz şəhərinin xəritəsi (orta əsrlərə aid təsvir).
İstanbul Universitetinin kitabxanası

dövlətinə Azərbaycanın cənub torpaqları daxil idi, şimalda isə Muğan hakimliyi asılı hala salınmışdı. **1028-ci ildə** Rəvvadi hökmdarının icazəsi ilə ***2 min oğuz türkünə mənsub ailə*** Cənubi Azərbaycanda məskən saldı. Ardınca yeni-yeni oğuz tayfaları bu yerlərdə məskunlaşdılar. Oğuz axını Bizansın və erməni-gürcü feodallarının basqınlarının qarşısının alınmasında böyük rol oynadı və Rəvvadilərin hərbi gücünü artırdı. Cənubi Azərbaycanda türklərin mövqeyi daha da möhkəmləndi.

Rəvvadilər paytaxtı Ərdəbildən ***Təbrizə*** köçürdülər. Təbriz bütün Azərbaycan torpaqlarının iqtisadi, siyasi və mədəni baxımdan birləşdirilməsi üçün çox əlverişli coğrafi mövqedə yerləşirdi. **1054-cü ildə** Səlcuq yürüşləri nəticəsində Rəvvadilər dövləti asılı hala düşdü.

1. Rəvvadilər və Şəddadilər dövlətlərini müqayisə et.
2. Şəddadi dövlətinin Səlcuqlardan asılı hala düşməsinin səbəbi nə idi?
3. Rəvvadilər dövləti haqqında araşdırma apar.
4. Xudafərin körpüsünün tarixi əhəmiyyətini izah et.
5. Xəritəyə əsasən feodal dövlətlərinin yerini müəyyənləşdir.

9. SLAVYANLARIN HÜCUMLARI

IX–X əsrlərdə Azərbaycan torpaqları tez-tez yadellilərin hücumuna məruz qalırdı. Slavyan-rus tayfalarının yürüşləri xüsusilə ağır nəticələr verdi. Yaşayış məntəqələrimiz qarət edildi, dağıdıldı. Minlərlə insan məhv edildi və ya köləliyə aparıldı.

Slavyan-rus basqınları necə baş verdi? Onların torpaqlarımıza yol açmasına səbəb nə idi?

Slavyanlar, qarətçi yürüşlər, Xəzər dənizinin adaları, Bərdə faciəsi, hərbi donanma

Talançı yürüşlərin başlanması. IX əsrin sonundan başlayaraq Azərbaycan slavyanların – rusların basqınlarına məruz qaldı. Ərəb mənbələrində Kiyev knyazının hərbi dəstəsinin – drujinasının üzvləri ruslar adlanırdı. Əvvəlki dövrdə slavyanlar Don-İdil (Volqa)-Xəzər su yolu ilə Azərbaycana gəlir və ölkəmizdən keçərək Xilafətin mərkəzi ilə ticarət edirdilər. Bəhs olunan dövrdə isə slavyanlar həmin yolla Xəzəryanı bölgələrə qarətçi yürüşlər təşkil etməyə başladılar.

Slavyanların IX əsrin sonundan etibarən ölkəmizə qarətçi yürüşlərə başlaması səbəblərini yoldaşlarınla müzakirə et.

X əsrin əvvəlindən bu yürüşlər geniş miqyas aldı. **909-cu ildə** slavyanlar Xəzər dənizinin cənub sahillərini və Abaskun adasını qarətə başladılar. Lakin doğma torpağın müdafiəsinə qalxan yerli əhali onları ağır məğlubiyyətə uğratdı. Bir il sonra slavyanlar Sarı adasına və Xəzərin cənub-qərb sahili boyundakı məntəqələrə basqın edib qətl və qarətlər törətdilər. Oradan Gilana hücum etdilər, lakin məğlub olub şimala çəkildilər. Bu dəfə Şirvanşahın qoşunları ilə üzləşdilər və tam darmadağın edildilər.

914-cü ildə slavyanlar daha böyük qüvvə ilə yürüşə başladılar. Bu yürüşdə hər birində 100 döyüşçü olan 500 gəmi iştirak edirdi. Slavyanlar Xəzər dənizinə keçmək üçün Xəzər xaqanından icazə aldılar və ələ keçirdikləri qənimətin yarısını ona verməyi vəd etdilər. Bu yürüş zamanı Abşeron yarımadasındakı yaşayış məntəqələri qarət edildi, qadın və uşaqlar əsir alındı. Qənimətlərin və əsirlərin bir hissəsi Xəzər xaqanına



Bərdə şəhərinin maketi. IX–X əsrlər

verildi. Xəzərlər əsirlərin müsəlman türkləri olduğunu bildikdə slavyanlara qarşı döyüşə başladılar. Bu döyüşdə xəzərlərə bulqar, burtas (mordva), Xarəzm türkləri fəal yardım etdilər. Slavyanların çoxu məhv edildi və əsirlər azad olundu.

Bərdə faciəsi. **944-cü ildə** slavyanlar yeni qarətçi yürüşə başladılar. Bu yürüşün bir məqsədi Bərdəni ələ keçirib qarət etmək, digər məqsədi isə burada həmişəlik möhkəmlənmək idi. Slavyanlar Xəzərdən Kür çayına keçdilər və Bərdə yaxınlığına qədər qayıqlarla üzdülər. Oradan Bərdəyə hücum etdilər. Bu zaman Bərdə Salari dövləti tərkibində idi. Slavyanlar şəhərdəki Salari qoşununu məğlub edib qarətlərə başladılar.

O zaman Bərdə Yaxın və Orta Şərqdə ən böyük ticarət və sənətkarlıq mərkəzlərindən biri idi. Slavyanlar Qafqazın baş şəhəri, "Arranın anası" kimi tanınan Bərdəni zəngin qənimət mənbəyi hesab edirdilər.

Böyük Nizami Bərdəni belə vəsf etmişdir:

Bərdə nə gözəldir, necə qəşəngdir,
Yazı da, qışı da güldür, çiçəkdir.
Yazında dağlara lalələr səpər,
Qışını baharın nəsimi öpər.
O yaşıl meşəsi cənnətə bənzər,
Şən ətəklərinə bağlamış kövsər.
Söyüdlük çöllərə vermişdir zinət,

Ağ bağı elə bil həqiqi cənnət.
Qırqovul yuvası hər sərv ağacı,
Oxuyur kəkliyi, ötür turacı.
Səssizlik içində dincəlir gülşən,
Torpağı silinmiş qayğı, kədərdən.
Reyhanı yaşıldır illər uzunu,
Hər çeşid naz-nemət bürümüş onu.
Yem üçün gələr quş bu gözəl yurda,
İstəsən "quş südü" taparsan burda.

Müasir Bərdə haqqında məlumat toplayıb Nizami Gəncəvinin əsərindəki Bərdə ilə müqayisə et.

Slavyanlar Bərdə əhalisini qılıncdan keçirdilər, əmlaklarını da qarət etdilər. Sağ qalan bərdəlilər müqavimət göstərməkdə davam etdikləri üçün slavyanlar tələb etdilər ki, əhali şəhəri tərk etsin. Əmrə tabe olmayanlar məscidə toplandı və hər bir şəxsdən 20 dirhəm pul tələb edildi. Pul ödəyə bilməyən 20 min adam öldürüldü.



Slavyanların Bərdəyə hücumu. Rəssam Nikolay Koçergin

Salari hökmdarı Azərbaycanın cənubuna hücum edən Mosul hakimi ilə vuruşduğu üçün Bərdəyə kömək edə bilmədi. Bu zaman Bərdə əhalisinin müqaviməti davam etdirməsi və slavyanların yoluxucu xəstəliyə tutulması düşmənin böyük itkilər verməsinə səbəb oldu. Ona görə də slavyanlar gecə vaxtı şəhəri yandırıb çoxlu qənimətlə Kür sahilindəki gəmilərinə minib getdilər. Slavyanların bu basqınından sonra Bərdə bir daha özünə gələ bilmədi. Məşhur Bərdə bazarı öz əvvəlki əhəmiyyətini itirdi.

Kür sahilində də... düşərgə saldılar. Slavyanlar... Bərdəyə hücum etdilər... Bərdə hakimi... hərbi qüvvəsi sayca onlardan qat-qat artıq olan yadellilərə müqavimət göstərə bilmədi. Bərdə slavyanların əlinə keçdi. Əhali qılıncdan keçirildi və şəhər amansızcasına qarət olundu... Bərdəliləri itaətdə saxlamağın mümkün olmayacağını yəqin edən slavyanlar... tələb etdilər ki, üç gün ərzində şəhərdən çıxıb getsinlər... Doğma şəhəri tərk edib gedə bilməyən Bərdə əhalisini yenidən qılıncdan keçirdilər.

Yaqub Mahmudov. *Azərbaycan tarixi. İntibah dövrü. Bakı, 1996*

SLAVYANLARIN AZƏRBAYCAN TORPAQLARINA HÜCUMU

Düşməndən kömək istəyən feodal hakimlər. 987-ci ildə Dərbənd hakimi yerli əyanlara qarşı mübarizə aparmaq üçün slavyanları köməyə çağırdı, sonra da öz yanında slavyanlardan ibarət mühafizə dəstəsi saxladı. 1030-cu ildə slavyanlar yürüş edib Bakıda və Kürlə Arazın qovuşduğu yerdə Şirvanşah ordusunu məğlub etdilər. Bu zaman Şəddadi hökmdarı Musa ibn Fəzl Beyləqanda qiyam qaldırmış qardaşına qarşı slavyanları köməyə çağırdı. Slavyanlar Beyləqan əhalisinə divan tutdular və çoxlu hədiyyələr aldılar. Sonra da Bizans yolu ilə ölkələrinə döndülər.

1032-ci ildə slavyanlar yenidən Şirvana basqın etdilər. Bu zaman alanlar və sərirlər də onlarla ittifaqda idilər. Düşmən qüvvələri Şamaxını ələ keçirib qarət etdilər, 10 min adamı öldürdülər. Vətənin müdafiəsinə qalxan xalq yadelliləri Azərbaycandan qovdu. Şirvandan qovulan düşmən qüvvələrini Dərbənd hakimi ağır məğlubiyyətə uğratdı. Bu hadisədən bir il sonra Dərbənd hakimindən qisas almaq üçün alanlar və slavyanlar yenidən hücum etdilər. Lakin yenə məğlub oldular.

Dərbənd hakiminin geri çəkilən slavyanlarla döyüşə girməsinin səbəbi nə idi?

IX əsrin sonundan başlayan slavyan basqınları ilə Azərbaycan xalqı tarixdə ilk dəfə Xəzər dənizindən hücuma məruz qaldı. Azərbaycanda vahid dövlətin olmaması, daxili çəkişmələr, həmçinin Xəzərdə hərbi donanmanın yoxluğu bu hücumların qarşısını almağa imkan verməmişdi.

Müasir Azərbaycan donanması haqqında məlumat topla.

1. Slavyanları Azərbaycana cəlb edən nə idi?
2. Slavyanların Xəzəryanı ərazilərə yürüşünün xarakterini müəyyən et.
3. Slavyanların Bərdəyə yürüşü niyə "Bərdə faciəsi" adını aldı?
4. Bərdənin faciədən sonrakı vəziyyətini təhlil et.
5. Hakimiyyətini qorumaq üçün yadellilərə müraciət edən hakimlərin siyasətini qiymətləndir.

10. ƏHALİNİN MƏŞĞULİYYƏTİ VƏ HƏYAT TƏRZİ

Artıq bilirsən ki, IX əsrdə Azərbaycanda dövlətçilik ənənələri bərpa edilmişdi. Müstəqil feodal dövlətlərin yaranması ölkənin iqtisadi həyatına və əhalinin yaşayış şəraitinə təsirsiz qalmadı. Bu təsirləri öyrənməklə bir çox suallara cavab tapacaqsan.

Gəlin tədqiqat aparaq. Ərəb xilafətinin hakimiyyətinə son qoyulduqdan sonra Azərbaycanın iqtisadi həyatında hansı yeniliklər baş verdi? Müstəqil dövlətlər yarandıqdan sonra xalqın rifahı yaxşılaşdımı?

Süni suvarma, İçərişəhər, Bayırşəhər, xalisə, uluclar, ilcə, Mərzban ibn Məhəmmədin "Qanunnamə"si, üşr, qəbalə

IX-XI əsrlərdə təsərrüfat həyatı. Ərəb səyyahları IX-XI əsrlərdə Azərbaycanın zəngin sərvətləri, yüksək iqtisadi inkişafı haqqında geniş məlumat vermişlər. Bu dövrdə Urmiya gölü ətrafında, Mil, Muğan düzlərində, Kür, Araz və Səfidrud çayları boyunca süni suvarmadan geniş istifadə edilirdi. Bol taxıl, pambıq, bostan və tərəvəz becərilirdi. Şirvan və Dərbənddə kətan, Lənkəran və Şəkidə çəltik, Şəki, Şirvan və Bərdədə ipəkçilik mühüm yer tuturdu. Dağətəyi və dağlıq bölgələrdə əhali daha çox maldarlıqla məşğul olurdu.

Orta əsr səyyahları hansı elm və biliklərə malik idilər? Fikrini əsaslandır.

IX-XI əsrlərdə Azərbaycanın zəngin yeraltı sərvətlərindən geniş istifadə edilirdi. Ölkəmizin cənubunda Şiz şəhəri yaxınlığında qızıl, gümüş, qurğuşun, civə, Bəzz qalası ətrafındakı dağlarda qırmızı kvars çıxarılırdı. Gəncə və Savalan ətrafında dəmir, mis, Təbriz və Naxçıvanda daş duz, Bakıda neft istehsal edilirdi.

Orta əsr şəhərlərimiz. Bu dövr şəhərləri möhkəm qala divarları ilə əhatə olunurdu. Şəhərlər iki hissədən ibarət idi: İçərişəhər və Bayırşəhər. İçərişəhərin mərkəzində bazar meydanı, onun yanında cümə məscidi, şəhər hakiminin və ya hökmdarın sarayı, əyanların imarətləri yerləşirdi. Burada mədrəsə, karvansara və hamamlar da inşa edilirdi. Şəhər əhalisinin

çox hissəsini təşkil edən sənətkarlar isə mərkəzdən uzaqda – qala divarlarının yanındakı məhəllələrdə yaşayırdılar.

Bu dövrdə **Bərdə** çox böyük şəhər idi və ərəb səyyahları onu Bağdadla müqayisə edirdilər. Bərdənin uzun müddət ərəb əmirliyinin mərkəzi olması onun sənətkarlıq və ticarət mərkəzi kimi sürətli inkişafına səbəb olmuşdu.

Dərbənd o dövrdə Azərbaycanın ən böyük liman şəhəri, kətan parça istehsalı mərkəzi idi. X əsrdə bu şəhərdə kanalizasiya sistemi yaradılmışdı.

*Bakı şəhəri haqqında da ərəb müəllifləri maraqlı məlumatlar vermişlər. Məsələn, Yaqut əl-Həməvi yazmışdır: "**Bakuyə** Şirvan vilayətinin Dərbənd dairəsində şəhərdir. Burada neft quyusu var. Onun icarə haqqı bir min dirhəmə çatır, o quyunun yanında isə arası kəsilmədən, gecə-gündüz civə kimi qatı ağ neft püskürən başqa bir quyu da var. Bu quyunun da icarə haqqı birincininki kimidir. İnandığım tacirlərdən biri mənə danışırdı ki, orada öz-özünə həmişə yanan bir yer görmüşdür".*

Tiflis Arranın sərhəd şəhəri hesab edilirdi. Bu şəhər suyu odsuz qızdırılan hamamları ilə məhşur idi.

X əsrin sonundan **Təbriz şəhəri** daha sürətlə inkişaf etməyə başlamışdı. Əl-Müqəddəsi bu dövrdə Təbrizin Bağdaddan üstün olduğunu yazmış və şəhəri saf qızıla bənzətmişdi. Ərdəbil, Marağa, Şamaxı da böyük və zəngin şəhərlər idi.



Orta əsr şəhərində bazar

Təbriz *Azərbaycanda ən çox tanınmış şəhərdir. Bu, çoxlu adam yaşayan, kərpic və əhəngdən yaxşı hörülmüş divarları olan gözəl şəhərdir. Şəhərdən çoxlu kiçik çaylar axır. O, bağlar içindədir, şəhərdə meyvə ucuzdur.*

Yaqut əl-Həməvi

Xilafət ağalığına son qoyulması və müstəqil dövlətlərin yaranması iqtisadi tərəqqiyə səbəb oldu. Lakin sonrakı dövrdə ara müharibələri, sülalələrin bir-birini zorla devirməsi, xarici basqınlar iqtisadiyyata ağır zərbə vurdu.

Kəndlilərin vəziyyəti. IX-XI əsrlərdə Azərbaycanda əhalinin əksəriyyətini kəndlilər təşkil edirdi. Bu dövrdə kəndlilər iki qismə – *uluclara* və *azad kəndlilərə* bölünürdü.

Ağır vergilər və məmurların özbaşınalığı nəticəsində öz torpaqlarını itirən kəndlilər ərəb feodallarının himayəsinə sığınmağa məcbur olurdular. Həmin kəndlilərin torpaqları ərəb feodallarının əlinə keçir və *ilcə (hami)* adlanırdı. İlcə torpaqlarında yaşayanlar isə asılı hala düşür, uluca çevrilirdilər. Uluclar əsasən əkinçiliyin güclü inkişaf etdiyi düzənlik bölgələrdə yaşayırdılar. Azad kəndlilər isə daha çox dağlıq bölgələrdə qalmışdılar.



Orta əsr şəhərində sənətkarların həyat şəraiti (miniatür rəsm)

Rəsmdə hansı sənət sahələri öz əksini tapmışdır? Miniatürə baxıb fikrini bildir.

Torpaq sahibliyi və vergilər. IX-XI əsrlərdə ən geniş yayılmış torpaq sahibliyi forması ***mülk*** idi. Mülk – yerli feodalların irsi torpaqları idi.

Sahibi malik və ya mülkədar adlanırdı. Bu dövrdə ayrı-ayrı hökmdarların ixtiyarına böyük torpaq sahələri keçdi. Hökmdara məxsus torpaqlar ***xassə (əmlaki-xassə, xanədan)*** adlanırdı. Bu dövrdə *divan, vəqf, iqta, icma* adlı torpaq sahibliyi formaları da qalmaqda idi.

IX-XI əsrlərdə başlıca vergi torpaqdan istifadəyə görə alınan ***üşr*** vergisi idi. Üşr vergisi məhsulun onda bir hissəsinə bərabər idi. Bu dövrdə müsəlman əhali ***xüms*** və ***zəkat*** (sədəqə), müsəlman olmayanlar isə ***cizyə*** vergisi də ödəməli idilər. Torpaq vergisi sonralar yenidən xərac adlandı. Xərac toplamaq üçün ayrı-ayrı nüfuzlu şəxslərə icazə kağızı – *qəbalə* verilirdi.

Sənin ailəndə hansı vergilər ödənilir? Sadala.

Azərbaycanda müstəqil dövlətlər yarandıqdan sonra vergilərin miqdarı xeyli azaldıldı. Salari hökmdarı Mərzban ibn Məhəmməd vergi sistemində qayda yaratmaq və mərkəzi hakimiyyətə tabe olmayan feodalların əl-qolunu yığmaq üçün xüsusi "Qanunnamə" hazırlatdı. Lakin sonrakı dövrdə vahid dövlətin olmaması, daxili çəkişmələr, bir-birini əvəz edən hökmdar sülalələri arasında mübarizə daxili sabitliyin pozulmasına, əhalinin vəziyyətinin ağırlaşmasına gətirib çıxardı.

1. Azərbaycanın təbii şəraiti, sərvətləri hansı təsərrüfat sahələrinin inkişafına şərait yaradırdı?
2. Orta əsr şəhərləri haqqında məlumat topla.
3. Ərəb səyyahlarının şəhərlərimiz haqqında yazdıqları fikirləri şərh et.
4. Salari hökmdarı Mərzban ibn Məhəmmədin "Qanunnamə"si nəyə xidmət edirdi?
5. Feodal hərc-mərcliyi nəyə gətirib çıxardı?

11. IX–XI ƏSRLƏRDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

Müstəqil dövlətçiliyin dirçəlişi Azərbaycanın iqtisadi və mədəni inkişafına səbəb oldu. Həyat canlanır, sənətkarlıq və ticarət inkişaf edir, xaraba qalmış ərazilər abadlaşdırılırdı. Şəhərlərin bərpası və inkişafı, yeni məscid və mədrəsələrin tikilib istifadəyə verilməsi mədəni oyanışa – intibaha təkan verdi.*

Həmin dövrdə elm və təhsilin inkişafı üçün hansı şərait yarandı? İslam dininin Azərbaycan mədəniyyətinə təsiri nədən ibarət oldu?

İntibah, Əlincə qalası, günbəzli məscid, "Kitabi-Dədə Qorqud" dastanı, "qara donlu kafirlər"

IX-XI əsrlərdə siyasi dirçəliş, iqtisadi tərəqqi mədəniyyətin inkişafına müsbət təsir etdi. Azərbaycan şəhərləri həm də böyük mədəniyyət mərkəzlərinə çevrildi. Bu dövrdə ərəb dili elm və təhsil dili kimi geniş işlədilirdi. Azərbaycan alimləri islam dünyasında elm və təhsilin inkişafında, **Müsəlman İntibahının** yaranmasında çox fəal iştirak edirdilər. Bu dövrün əsas memarlıq abidələri Naxçıvanda **Əlincə** qalası, *Şamaxının Sündi kəndində tikilmiş günbəzli məscid* və Araz çayı üzərindən salınmış Xudafərin körpüsü idi.

Müsəlman İntibahının verdiyi töhfələri təhlil et.
Bu dövr memarlığının özünəməxsus cəhətlərini müəyyənləşdir.

"Kitabi-Dədə Qorqud" dastanı Vətən tarixinin qiymətli mənbəsidir. Dastanı söyləyən el ağsaqqalı Dədə Qorqud Bayat adlı türk tayfasından idi. XVII əsrdə Azərbaycanda olmuş alman səyyahı Adam Oleari və Osmanlı səyyahı Övliya Çələbi Dərbənddə Dədə Qorqudun qəbrini gördüklərini yazmışlar. Dastanın **"Bəkil oğlu İmran boyu"**nda oğuzlarda Vətən sevgisinin yüksək olması, dar gündə incikliyi unudub ümumi düşmənə qarşı birgə vuruşmaları qabarıq əks olunubdur. Bu boyda Azərbaycanın qərb torpaqlarını işğal etməyə çalışan gürcü feodallarına qarşı mübarizə aydın verilmişdir.

* ***İntibah*** – canlanma, yenidən yüksəliş

"Kitabi-Dədə Qorqud" dastanına çəkilmiş illüstrasiyalar

Dastanın **"Qanlı Qoca oğlu Qanturalı boyu"**nda isə Bizansın məkrli siyasəti – verdiyi sözə dönük çıxaraq oğuz igidlərini arxadan vurmaq cəhdləri aydın göstərilmişdir.

*VII-IX əsrlərdə **"Kitabi-Dədə Qorqud"** dastanını el sənətkarları – **ozanlar** oba-oba gəzib Dərbənddən Qara dəniz sahillərinə qədər geniş əraziyə yaydılar. Bu dastan oğuz türklərinin və digər türk tayfalarının çox qədim zamanlardan Azərbaycanda davamlı yaşadıqlarından bəhs edir. Dastanın **"Qanlı Qoca oğlu Qanturalı boyu"**nda Oğuz-Trabzon münasibətləri, müstəqil Oğuz dövləti haqqında məlumat verilir. Dədə Qorqud boylarında **Oğuz eli** "Dərbənd qapıları"ndan "Doqquz tümən Gürcüstan"a və cənub-qərbdə Trabzona qədər böyük bir ərazidə yerləşən ölkədir. Dastanda oğuzların Göyçə gölü ətrafında, Alagöz yaylaqlarında, Qarabağ qışlaqlarında yaşamaları, möhkəm Əlincə qalasını inşa etmələri öz əksini tapmışdır.*

Dastanın **"Duxa Qoca oğlu Dəli Domrul boyu"**nda oğuzların oturaq həyat sürməsi, taxıl əkmələri, bağçılıq və üzümçülüklə məşğul olmaları, su dəyirmanlarından istifadə etmələri haqqında məlumat verilmişdir. Bu boyda və dastanın digər boylarında oğuzların maldarlıqla məşğul olmaları, at, dəvə, qoyun saxlamaları, sənət sahələrinin inkişaf etməsi, ticarətdə qızıl pul – **axça** işlətmələri, Şam, Rum (Bizans) ölkələri ilə ticarət etmələri haqqında da çoxlu faktlar vardır.

O dövrdə ticarətdə axçadan istifadənin əhəmiyyəti nə idi? Müasir Azərbaycanın dünya ölkələri ilə geniş ticarət əlaqələrinin olması ölkəmizə nə verir?

"Kitabi-Dədə Qorqud" Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsidir. Elm aləminə XIX əsrdən məlum olan "Kitabi-Dədə Qorqud"un iki əlyazma nüsxəsi (Drezden və Vatikan) tapılmışdır. Bu dastan islamdan öncə Azərbaycanda baş vermiş hadisələrlə səsləşir. Dastandakı hadisələrin əksəriyyəti "Dəmirqapı" – Dərbənd, Bərdə, Gəncə, Əlincə, Göyçə və s. yerlərdə cərəyan edir. "Kitabi-Dədə Qorqud"u yazıya köçürən şəxs Dədə Qorqudu bu dastanın yaradıcısı, həm də iştirakçısı kimi təqdim edir. "Kitabi-Dədə Qorqud" yarandığı dövrün adət-ənənələri, köçəri həyat tərzi və s. haqqında tarixi-etnoqrafik məlumatlarla zəngindir. Soykökümüzü, tariximizi, dövlətçiliyimizi və Azərbaycan türkcəsini öyrənmək baxımından zəngin mənbə olan "Kitabi-Dədə Qorqud" yalnız Azərbaycanın deyil, bütün türk dünyasının ölməz kitabıdır.

HEYDƏR ƏLİYEV

"Kitabi-Dədə Qorqud" dastanında oğuzlarda ciddi hərbi intizam olması, yurdun müdafiəsi ilə bağlı bütün məsələlərə "xanlar xanı Bayandır xan"ın çağırdığı hərbi məclislərdə baxılması, oğuz bəylərinin hər dəfə düşmən üzərinə yürüş etmək üçün Bayandır xandan icazə istəmələri əks olunubdur. **"Salur Qazanın evinin yağmalandığı boy"**da



Xudafərin körpüsü. Cəbrayıl rayonu



“Salur Qazanın evinin yağmalandığı boy”dan



“Qanlı Qoca oğlu Qanturalı boyu”ndan

oğuzların ana haqqını Tanrı haqqı kimi uca tutmaları çox təsirli verilmişdir.

Dastanda, həmçinin oğuzların islamı qəbul etməsi, kafirləri tabe edib, onların içərisində islamı yaydıqları bildirilir. Oğuzların qonaqpərvərliyi, düşmən üzərində qələbədən sonra böyük el şənlikləri təşkil etmələri haqqında da maraqlı məlumatlar verilmişdir.

Bütün bu faktlar Azərbaycan tarixini öyrənmək üçün “Kitabi-Dədə Qorqud” dastanının çox mühüm mənbə olduğunu sübut edir.

Azərbaycan Respublikasının Prezidenti
İlham Əliyev "Kitabi-Dədə Qorqud"
abidəsinin açılışında

1. IX-XI əsrlər mədəniyyətinin inkişafını dövrün tarixi şəraiti və sosial-iqtisadi vəziyyəti baxımından dəyərləndir.
2. Azərbaycanın IX-XI əsr şəhərləri haqqında araşdırma apar.
3. Azərbaycan mədəniyyətini türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndir.
4. Azərbaycanın təbii sərvətlərlə zənginliyinin xalqımız üçün verdiyi nəticələri sadala.
5. "Kitabi-Dədə Qorqud" dastanının Azərbaycan tarixini öyrənmək üçün çox mühüm mənbə olmasını nə sübut edir?

OĞUZ-SƏLCUQ AXINLARI VƏ AZƏRBAYCAN

12. OĞUZ-SƏLCUQ AXINLARI

Azərbaycan çox qədim zamanlardan türk tayfalarının məskənidir. Yerli türk tayfaları zaman-zaman yurdumuza köç edən türk etnosları ilə qaynayıb-qarışır, ümumi düşmənə qarşı birgə mübarizə aparırdılar. Bu mübarizə XI əsrdə daha da gücləndi. Buna səbəb oğuz-səlcuq türklərinin Azərbaycana axınları idi.

Gəlin tədqiqat aparaq. Səlcuqlar nə üçün Azərbaycana axın etdi? Bu axının nəticələri nə oldu? Xalqımızın tarixində hansı yeniliklər baş verdi?

Oğuzlar, səlcuqlar, türk axını, sultan I Toğrul , I Fəribürz, uc torpaqları

Səlcuq bəy

Səlcuq türk axınları. XI əsrin ortalarında Səlcuq türklərinin böyük axınları Azərbaycanda ciddi etno-siyasi dəyişikliklərə səbəb oldu. Səlcuqlar Bizansın, gürcü və erməni feodallarının Qafqazın müsəlman türk əhalisini əsarət altına almasına imkan vermədilər.

Oğuz tayfaları Mərkəzi Asiyanın köklü sakinləridir. Səlcuq bəyin başçılığı ilə oğuz türklərinin bir qolu X əsrin 70-ci illərində Buxara ətrafında məskunlaşmışdı. Səlcuq türkləri XI əsrin başlanğıcında Qəznəvi sultanı tərəfindən Xorasanda yerləşdirildilər. XI əsrin 30-cu illərində buradakı türk tayfaları **Toğrul bəyin** başçılığı ilə siyasi hakimiyyəti ələ keçirib ***Səlcuq dövlətini* (1038-1157)** yaratdılar. **1040-cı il mayın 25-də** Mərv yaxınlığındakı ***Dəndənəkan*** adlı yerdə Səlcuq türkləri Qəznəviləri məğlub edərək Mərkəzi Asiyada aparıcı siyasi qüvvəyə çevrildilər. Bu qələbədən sonra Səlcuq dövlətinin başçısı ***sultan*** titulunu qəbul etdi.

Sultan titulunun Dəndənəkan döyüşündən sonra qəbul edilməsinin səbəbi nə idi? Qəznəvilərin məğlub edilməsi səlcuqlar üçün nə kimi əhəmiyyətə malik idi?

Səlcuqların Azərbaycana ilk yürüşü XI əsrin ilk onilliyinə aiddir. Bu zaman onlar Azərbaycanın cənubuna, Arrana, oradan da Naxçıvana və Dəbilə yürüş etmişdilər. 1028-ci ildə Xorasanda Səlcuq türklərinin Mahmud Qəznəvinin hakimiyyətinə qarşı qaldırdıqları üsyan yatırıldıqdan dərhal sonra oğuzların bir hissəsi təqiblərdən yaxa qurtarmaq üçün Azərbaycanın cənubuna köçdü. Rəvvadi hökmdarı Vəhsudan onları xoşluqla qarşıladı və məskunlaşmaları üçün geniş torpaq sahələri bağışladı.

Sultan I Toğrul

! ***Rəvvadi hökmdarı Vəhsudanın səlcuqlara qarşı atdığı addımı dəyərləndir.***

XI əsrin 40-cı illərində Səlcuq türklərinin Azərbaycana və Qafqaza güclü yürüşləri başlandı. **1048-ci ildə** Səlcuq qoşunu Arrandan keçərək Şəddadilərlə birlikdə Bizans-gürcü-erməni hərbi qüvvələrini məğlub etdilər.

Azərbaycanın Səlcuq imperatorluğuna qatılması. Səlcuqlar **1054-cü ildə** Azərbaycana böyük yürüşə başladılar. Azərbaycanın cənub torpaqlarında ağalıq edən ***Rəvvadi hökmdarı*** müqavimətsiz tabe olub xərac ödəməyi öhdəsinə götürdü. ***Şəddadi hökmdarı*** da sultan Toğrula bahalı hədiyyələr və girovlar göndərməklə öz ehtiramını bildirdi. Bu zaman Səlcuq sultanı ilə Şəddadi hökmdarı arasında bir anlaşma da bağlandı. Onlar Bizans imperatoruna və onun təhriki ilə Azərbaycana soxulan erməni-gürcü feodallarına qarşı əlbir hərəkət etməli idilər. Bu yürüş zamanı ***Tiflis müsəlman əmirliyi də Səlcuq dövlətinə tabe edildi***.

Səlcuq əmirlərinin Azərbaycanda kəsdirdikləri mis pullar

Sultan Alp Arslanın (1063-1072) hakimiyyəti dövründə Azərbaycanın fəthinin yeni mərhələsi başlandı. **1066-cı ildə** səlcuq qoşunları Şirvana hücum etdi. ***Şirvanşah*** **I Fəribürz (1063-1096)** Səlcuq sultanının ali hakimiyyətini qəbul etdi və hər il xərac ödəməyi öhdəsinə götürdü.

Şirvan şahının Səlcuq sultanına tabe olmasının nəticəsini necə qiymətləndirirsən? Fikrini izah et.

Səlcuq türkləri Cənubi Qafqazda möhkəmləndikdən sonra Bizans mülklərinin içərilərinə doğru yürüşlərə başladılar. ***1071-ci il avqustun 26-da Malazgird yaxınlığında baş verən həlledici döyüşdə*** *Bizans qüvvələri sarsıdıcı məğlubiyyətə uğradı. İmperator IV Roman Diogen əsir alındı. Alp Arslanın əmri ilə onun qulaqlarını deşib qızıl həlqə taxdılar. Bu o demək idi ki, "rumluların hökmdarı" Səlcuq sultanının quludur. Bir qədər sonra imperator səlcuqlardan asılı olduğunu qəbul edərək xərac və cizyə ödəməyi öhdəsinə götürdüyü üçün azad edildi və ölkəsinə döndü.*

Malazgird döyüşü

Səlcuq yürüşlərinin Azərbaycan üçün nəticələri. Malazgird döyüşündən sonra Səlcuq imperatorluğu Ön Asiyada başlıca hərbi-siyasi qüvvəyə çevrildi. **Sultan Məlikşahın** hakimiyyəti illərində **(1072-1092)** Səlcuq dövləti ən güclü çağlarını yaşayırdı. Bu dövrdə Azərbaycanda Səlcuq sultanının hakimiyyəti daha da möhkəmləndi.

Səlcuq yürüşləri ilə Azərbaycana türk tayfalarının ***üçüncü böyük axını*** baş verdi. Oğuz türklərinin yeni tayfaları ölkəmizdə məskunlaşdılar və Azərbaycanda qədimdən yaşayan türk əhali ilə tez bir zamanda qay nayıb-qarışdılar.

Səlcuq yürüşləri nəticəsində oğuz türkləri Cənubi Qafqazda və Ön Asiyada başlıca etnik və siyasi qüvvəyə çevrildi, Şərqi işğal etməyə gələn səlibçi dəstələrinə sarsıdıcı zərbə endirildi. Həmçinin Bizansın Cənubi Qafqazda möhkəmlənmək siyasəti, Azərbaycanın qərb torpaqlarını işğal etməyə çalışan erməni və gürcü feodallarının qəsbkarlıq planları puça çıxarıldı. Azərbaycan xalqı öz torpağında əmin-amanlıqda yaşamaq, Mərkəzi və Ön Asiya xalqları ilə çoxşaxəli iqtisadi və mədəni əlaqələr yaratmaq və inkişaf etdirmək imkanı qazandı.

Səlcuq ağalığı dövründə Azərbaycanın **torpaq mülkiyyəti və vergi sistemində** dəyişikliklər baş verdi. Səlcuq sultanları mərkəzi hakimiyyətə hərbi-siyasi dayaq yaratmaq məqsədilə tutulan bütün torpaqları iqta şəklində Səlcuq əmirlərinə payladılar. İqta başlıca torpaq sahibliyi for-



masına çevrildi. İlk vaxtlar ***iqta sahibləri*** – iqtadarlar onlara verilmiş torpaqlardan vergi almaqla kifayətlənirdilər. Zaman keçdikcə iqta irsən keçməyə başladı. Bu dövrdə ***uc torpaqları*** adlı yeni torpaq sahibliyi də yarandı. Uc torpaqları imperatorluğun ucqarlarını – sərhədlərini qoruyan sərkərdələrə verilən torpaqlara deyilirdi.

Səlcuq sultanları tabe etdikləri əhalidən ənənəvi vergilərdən əlavə ***silah bahası, nal bahası, şərab bahası*** *adlı vergilər də almağa başladılar.*

Nizamülmülk

Səlcuq ağalığı dövründə vahid çəki, ölçü və pul sisteminin tətbiqi, ticarət yollarında təhlükəsizliyin təmin edilməsi, bəzi bölgələrin tacirlərinin rüsumlardan azad olunması imperatorluq daxilində iqtisadi əlaqələrin inkişafına əlverişli şərait yaratdı. Lakin sultan Məlikşahın və onun tədbirli vəziri **Nizamülmülkün** ölümündən sonra – XI əsrin sonunda başlanan daxili çəkişmələr dövləti zəiflətdi.

Zəmanə yaxşılığının, dövran sağlamlığının əlaməti adil şahın meydana gəlməsi, ... yaxşı və işgüzar vəzirlərin olmasıdır; onlar hər işi başı çıxan adama tapşırarlar... Şah rəiyyətin halına qalar, ... ağıllı qocalar və dünyagörmüş adamlarla məsləhətləşər. İşi qaydasında aparar. Din və dünya nizama düşər. Hər kəsin vəzifəsi öz qabiliyyətinə görə olar. Bu adəti pozmaq istəyənlərə qulaqburması verər, bütün əməlləri düz işləyən ədalət və siyasət tərəzisində çəkər.

Nizamülmülk. *Siyasətnamə*
Bakı, 1989

Böyük Səlcuq imperatorluğunun sonuncu sultanı **Səncərin** dövründə **(1118-1157)** imperatorluq müstəqil dövlətlərə – atabəyliklərə parçalandı. Bu zaman yaranan ən güclü dövlətlərdən biri Azərbaycan **Atabəylər (Eldənizlər)** dövləti idi.

Vəzir Nizamülmülkün ölümündən sonra Səlcuq imperatorluğunun zəifləməsinə səbəb nə idi?

1. Rəvvadi və Şəddadi dövlətlərinin Səlcuq imperatorluğuna qatılmasının səbəbi nə idi? Baş vermiş prosesi dövr baxımından dəyərləndir.
2. Şirvanşahlar dövlətinin Səlcuq dövlətinə tabe edilməsinin nəticələrini təhlil et.
3. Səlcuq axınının xalqımızın Qafqazda mövqeyinin möhkəmlənməsində mühüm rol oynamasını əsaslandır.
4. Səlcuq imperatorluğunun zəifləyib parçalanmasının səbəbi nə idi?
5. Səlcuq sultanlarının torpaq və vergi siyasətini Ərəb Xilafətinin siyasəti ilə müqayisə et.

13. AZƏRBAYCAN XII–XIII ƏSRİN ƏVVƏLLƏRİNDƏ

Böyük Səlcuq sultanı Səncərin hakimiyyəti dövründə üsyanlar, hakimiyyət uğrunda mübarizə dövləti zəiflətdi, imperatorluğun parçalanmasına gətirib çıxardı. XII əsrdə Azərbaycanda yeni bir dövlət – Atabəylər dövləti yarandı.

Gəlin tədqiq edək. Atabəylər dövləti necə yarandı? Hökmdarların dövləti qorumaq tədbirləri yetərli oldumu? Atabəylər dövləti niyə süqut etdi?

Bakı, Axsitan, Atabəy, Şəmsəddin Eldəniz, Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Naxçıvan, Həmədan

Şirvanşahlar dövlətinin güclənməsi. Böyük Səlcuq imperatorluğu zəiflədiyi zaman Şirvan şahları yenidən müstəqil siyasət yeritməyə başladılar. ***III Mənüçöhr*** (1120-1160) xarici siyasətdə dəyişiklik etdi: Səlcuq sultanına xərac ödəməyi dayandırdı, gürcü hökmdarı ilə ittifaqı möhkəmləndirdi. Gürcü çarı IV David 1122-ci ildə Tiflis müsəlman əmirliyini işğal etdi, Tiflis şəhərini gürcü dövlətinin paytaxtına çevirdi. İraq Səlcuq sultanı Mahmud 1123-cü ildə Şirvana yürüş etdi. Lakin şirvanşahın, gürcü çarının və qıpçaqların birləşmiş qüvvələrinə qalib gələ bilmədi və çəkilib getməyə məcbur oldu.

Gürcü hökmdarı dərhal bu fürsətdən yararlandı. **1124-cü ildə** IV David böyük qoşunla Şirvana hücum etdi. Şamaxı, Şabran şəhərlərini, Buğurd qalasını ələ keçirdi. III Mənüçöhr yalnız 1125-ci ildə – IV Davidin ölümündən sonra Şirvanın tam müstəqilliyini bərpa edə bildi. Yeni gürcü hökmdarı I Demetre Şirvana olan iddialarından əl çəkdi və hər iki dövlət arasında normal qonşuluq münasibətləri bərqərar oldu.

Bu vəziyyət III Mənüçöhrün ölümünə qədər davam etdi. Şahın ölümündən dərhal sonra şahın dul qadını Tamar və kiçik oğlu qıpçaqların qüvvəsi ilə hakimiyyəti ələ almağa və Şirvanı Gürcüstana tabe etməyə cəhd etdilər. Lakin şahın böyük oğlu ***I Axsitan*** (1160-1196) Atabəylər dövlətinin hərbi yardımı ilə bunun qarşısını aldı və hakimiyyəti özü ələ keçirdi.

Şirvanşah I Axsitan və varisləri çoxlu qalalar tikdilər, müdafiə sədlərini bərpa etdilər. Onların dövründə Azərbaycanın şimal torpaqlarında siyasi sabitlik bərqərar oldu. Atabəylər, Səlcuq və Gürcüstan dövlətləri ilə dostluq münasibətləri davam etdirildi. Dərbənd keçidi möhkəmləndirildi,

Şirvanın iqtisadi və mədəni inkişafına şərait yarandı. 1192-ci ildə Şamaxı zəlzələ nəticəsində dağıldı, paytaxt **Bakıya** köçürüldü.

Eldənizlər sülaləsinin hakimiyyətə gəlməsi. Atabəylər dövlətinin əsasını XII əsrin 30-cu illərində İraq Səlcuq sultanlığında daxili çəkişmələrdən bacarıqla istifadə edən ***Şəmsəddin Eldəniz*** (1136-1175) qoymuşdu. Ona görə də dövlət Atabəylər, yaxud Eldənizlər adlanırdı.

Sultan II Toğrulun hakimiyyəti dövründə ... Eldəniz vəzifə pillələri ilə sürətlə irəli getdi. Eldəniz ... heç bir vaxt saray münaqişələrinə qarışmır, ədavət aparan əmirlərin hər hansı bir dəstəsinin tərəfini saxlamırdı. Sultan Eldənizin sadiqliyini qiymətləndirdi və onu əmir rütbəsinədək qaldırdı, ... azyaşlı oğlu Arslanşaha atabəy təyin etdi.

Ziya Bünyadov. *Azərbaycan Atabəyləri dövləti. Bakı, 1985*

Şəmsəddin Eldəniz

1136-cı ildə sultan Məsud bütün Arranı iqta olaraq Şəmsəddin Eldənizə verdi. Tarixi qaynaqlarda yazıldığı kimi, "Atabəy Şəmsəddin gücləndi, bütün böyük hökmdarları yenərək bir çoxunu özünə tabe etdi, üsyan başçılarını aradan qaldırdı və Arran ölkəsindəki qarmaqarışıqlığa son qoydu".

Tədbirli sərkərdə və uzaqgörən siyasətçi olan **Şəmsəddin Eldəniz** az vaxt ərzində, demək olar ki, bütün Azərbaycanı öz hakimiyyəti altında birləşdirdi. O, **Arrandan** başqa, **Azərbaycanın cənub hissəsini** və **Naxçıvanı** müstəqil idarə etməyə başladı, öz adından pul kəsdirdi. Eldənizlərin ilk paytaxtı **Naxçıvan şəhəri** oldu.

Naxçıvanın çoxlu əhalisi və inkişaf etmiş sənətkarlıq sahələri vardı. Yerli sənətkarlar daxili və xarici bazar üçün parça, xalça, keçə, çuxa, saxsı və taxta qablar, həmçinin misdən, qiymətli metallardan hazırlanmış məmulatlar istehsal edirdilər.

Şəhər atabəy Şəmsəddin Eldənizin hakimiyyəti dövründə, Azərbaycan Atabəyləri dövlətinin paytaxtlarından biri olarkən, özünün ən böyük çiçəklənmə dövrünə çatmışdı.

Ziya Bünyadov. *Azərbaycan Atabəyləri dövləti. Bakı, 1985*

Şəmsəddin Eldəniz 1160-cı ildə "Böyük atabəy" titulu aldı və oğluğu Arslan şahın sultan elan edilməsinə nail oldu. Bundan sonra İraq Səlcuq sultanlığını özü idarə etməyə başladı. Bu zaman Şirvanşahlar dövləti də asılı hala salındığı üçün Eldənizlərin hakimiyyəti Dərbənddən İran körfəzinə qədər uzanırdı. İran feodal hakimləri də bu dövlətin tabeliyində idilər. Şəmsəddin Eldəniz mərkəzi hakimiyyətə tabe olmayan əmirlərin, iri feodalların hakimiyyətini məhdudlaşdırdı, 50 minlik daimi atlı qoşun yaratdı.

Şəmsəddin Eldənizin dövlətçilik naminə gördüyü ilk tədbirləri dəyərləndir.

Atabəylərin gürcü çarlarının hücumlarına qarşı mübarizəsi. Atabəylər dövləti yarandığı zamandan Qafqazın cənubunda işğalçılıq siyasəti yeridən Gürcüstana qarşı daim mübarizə aparırdı. Gürcü hökmdarları fürsət düşən kimi Azərbaycan torpaqlarına soxulur, qətl və qarətlər törədir, sərvətləri yağmalayıb aparırdılar. Məsələn, 1139-cu ildə Gəncədə və Arranın xeyli hissəsində zəlzələ olmuş və ciddi dağıntılar baş vermişdi. Bundan istifadə edən I Demetre Gəncəyə hücum etmişdi. Şəhəri tamamilə qarət etmiş, əhalinin salamat qalan hissəsini isə əsir aparmışdı. Gürcüstana aparılan qənimətlər arasında məşhur Gəncə qapıları da var idi. Gəncə qapısının bir tayı hazırda Kutaisi şəhəri yaxınlığındakı Gelat monastırında saxlanılır.

XII əsrin 60-cı illərində Gürcüstan yenidən fəallaşdı. Gürcü qoşunu Ani və Dəbilə hücum etdi. Buna cavab olaraq Şəmsəddin Eldəniz böyük bir qoşunla Naxçıvan yaxınlığında gürcü qüvvələrini ağır məğlubiyyətə uğratdı. Sonrakı il isə Gürcüstana hücum edərək, gürcü çarının bütün xəzinəsini ələ keçirdi və Dəbili geri aldı.

Dəbilin Eldənizlər dövləti üçün əhəmiyyəti nə idi? Bu ərazi uğrunda nə üçün mübarizə gedirdi?

Şəmsəddin Eldəniz və varisləri gürcü çarlarının qarətçi yürüşlərinə qarşı qətiyyətli mübarizə aparmaqla yanaşı, dinc xristian əhalisinin əmin-amanlıqda yaşamaları üçün də tədbirlər görürdülər. Atabəy hökmdarları xristian əhalisinə, onların din xadimlərinə xeyirxah münasibət göstərir, abadlıq işlərinə xüsusi diqqət yetirirdilər.

Şəmsəddin Eldənizin varislərinin siyasəti. **1175-ci ildə** Şəmsəddin Eldənizin və xanımı Möminə xatunun ölüm xəbərini alan böyük oğlu

AZƏRBAYCAN ELDƏNİZLƏR DÖVLƏTİ (1136–1225-ci illər)

Məhəmməd Cahan Pəhləvan Naxçıvana gələrək orduya, xəzinəyə və taxt-taca sahib çıxdı. Məhəmməd Cahan Pəhləvan paytaxtı ***Həmədana*** köçürdü. Daha sonra Təbrizi Ağsunqurilərin əlindən aldı və Azərbaycan və Arranın idarəçiliyini qardaşı Qızıl Arslana tapşırdı. Qızıl Arslanın iqamətgahı Təbrizdə idi. Bu dövrdə Mosul, Hilat, Fars, Xuzistan və digər bölgələrdə Eldənizlərin hakimiyyəti möhkəmləndi.

?

Məhəmməd Cahan Pəhləvanın ilk tədbirləri nədən ibarət oldu? Onun dövrünü Atabəylər dövlətinin tarixində yeni mərhələ adlandırmaq olarmı? Fikrini əsaslandır.

Eldənizlərin hökmdarı müstəqilliyə can atan iri Səlcuq əmirlərinin müqavimətini qırdı, bacarıqsız sərkərdələri və məmurları vəzifədən götürdü. Mühüm dövlət vəzifələrinə ən yaxın adamlarını təyin etdi. 50 minlik daimi nizami atlı ordu saxladı, gürcü feodallarının hücumlarını dəf edib Azərbaycanın qərb sərhədlərini möhkəmləndirdi.

Məhəmməd Cahan Pəhləvan İraq Səlcuq sultanlığını və Azərbaycanı öz hökmü altında saxlamaqla yanaşı, Bağdadda oturan Abbasi xəlifəsinin dövlət işlərinə qarışmasının qarşısını aldı. O, xəlifəyə məktubunda bildirirdi: "Əgər xəlifə imamdırsa, onun daimi məşğuliyyəti namaz qılmaqdan ibarət olmalıdır, çünki namaz dinin dirəyi və işlərin ən gözəlidir. Bu sahədə xalqa örnək olmaq və öndə getmək xəlifə üçün yetərlidir ... Xəlifənin padşahın işlərinə qarışmasına ehtiyac yoxdur".

Ziya Bünyadov. *Azərbaycan Atabəyləri dövləti. Bakı, 1985*

Şəmsəddin Eldəniz və Cahan Pəhləvan hakimiyyətə gəldikləri vaxtda gördükləri işlər arasında oxşarlıq nədən ibarətdi?

Məhəmməd Cahan Pəhləvandan sonra hakimiyyətə qardaşı ***Qızıl Arslan*** (1186-1191) keçdi. O, xeyli müddət saray müxalifətinə və iri feodal qruplarına qarşı mübarizə aparmalı oldu. 1190-cı ildə Həmədan döyüşündə İraq Səlcuq sultanı III Toğrulu məğlub etdi və oğlu ilə birlikdə əsir aldı. Qızıl Arslan xəlifənin razılığı ilə özünü **1191-ci ildə** sultan elan etdi. Ona tabe olmaqdan imtina edən feodal hakimlərini isə yenidən itaət altına aldı.

Qızıl Arslan

Qızıl Arslanın "sultan" titulu qəbul etməsinin üstünlüyü nə idi?

1191-ci ildə Qızıl Arslan sui-qəsd nəticəsində öldürüldü. Məhəmməd Cahan Pəhləvanın böyük oğlu **Əbu Bəkr** (1191-1210) taxta çıxdı.

Lakin qardaşları ona tabe olmaqdan imtina etdilər, mərkəzi hakimiyyəti ələ keçirmək üçün ara müharibələrinə başladılar. Bu da Atabəylər dövlətini tam zəiflətdi. Əbu Bəkr isə mərkəzi hakimiyyəti və ordunu möhkəmləndirməyin qayğısına qalmır, sərhəd bölgələrinin gürcü-erməni basqınlarına qarşı yardım müraciətlərini cavabsız qoyurdu. Yalnız yerli əhalinin silaha sarılıb möhkəm müqavimət göstərməsi düşməni geri çəkilməyə məcbur edirdi.

Gürcü-erməni qüvvələrinin əl-qol açmasına səbəb nə idi?

1210-cu ildə gürcü-erməni feodallarının hərbi qüvvələri Azərbaycana yenidən soxuldular. Bu hücum fəlakətli nəticələrinə görə bütün əvvəlki basqınlardan daha ağır idi. Həmin il Əbu Bəkr vəfat etdi və taxta bacarıqsız qardaşı **Özbək** (1210-1225) çıxdı. Onun dövründə Eldənizlər sülaləsinin hakimiyyəti daha da zəiflədi.

1. Şirvanşahlar dövlətinin qonşu dövlətlərlə münasibətlərini izah et.
2. Şəmsəddin Eldənizin siyasətdə böyük uğurlar qazanmasının səbəbi nə idi?
3. Eldənizlər dövlətinin zəifləməsinin səbəblərini nədə görürsən?
4. Məhəmməd Cahan Pəhləvanın hakimiyyət illərini Eldənizlər dövlətinin yüksəliş dövrü kimi təhlil et.
5. Eldənizlərin son hökmdarlarının mövqeyini dövr baxımından dəyərləndir.

14. XI ƏSRİN ORTALARI – XII ƏSRDƏ MƏDƏNİYYƏT

Şərqdə, o cümlədən Azərbaycanda təşəkkül tapmış İntibah mədəniyyəti dünya mədəniyyəti tarixinin ən parlaq səhifələrindən biridir. Bu intibah Azərbaycan xalqının həyatın müxtəlif sahələrində qazandığı böyük uğurlarının məntiqi nəticəsidir.

HEYDƏR ƏLİYEV

Xatırlayırsansa, 2012-ci ilin may ayında Bakıda "Avroviziya" musiqi yarışması keçirildi. Bu hadisə mədəniyyətimizin, musiqimizin yüksək inkişafının nəticəsidir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın xüsusi qayğısı ilə mədəniyyətimiz çiçəklənir, incəsənətimizin, musiqimizin səsi-sorağı dünyanın müxtəlif ölkələrindən fəxrlə eşidilir. Dünya musiqi xəzinəsinin incisi sayılan muğam sənəti bu gün intibah dövrünü yaşayır.

İntibah mədəniyyəti hansı dövrə təsadüf edir? Vahid dövlətin mövcud olması mədəniyyətin tərəqqisinə necə təsir göstərdi? Azərbaycan xalqı Müsəlman İntibahına hansı töhfələri verdi?

Bəhmənyar, Xətib Təbrizi, Qətran Təbrizi, Xaqani Şirvani, Nizami Gəncəvi, Əcəmi Əbubəkr oğlu, Məsud Davud oğlu, Qız qalası

Ərəb Xilafətinin tərkibinə daxil olan xalqların mədəniyyətinin qarşılıqlı təsiri nəticəsində yaranmış **Müsəlman İntibahı** Azərbaycanla sıx bağlı olmuşdur. Qədim və erkən orta yüzilliklərdə mədəniyyətin müxtəlif sahələrində böyük uğurlar qazanmış Azərbaycan xalqı bu mədəni oyanışa da çox dəyərli töhfələr bəxş etmişdir. Azərbaycan mədəniyyətində, xüsusən XI-XII əsrlərdə əhəmiyyətli yüksəliş baş vermişdir.

Mədəni dirçəlişə səbəb nə idi? Müstəqil dövlətlərin yaranmasının, eləcə də Səlcuq yürüşlərinin mədəniyyətə təsiri necə oldu?

Torpaqdan istifadənin təkmil formalarının meydana gəlməsi, sənətkarlıq və ticarətin inkişafı Azərbaycanda iqtisadi dirçəlişi daha da sürətləndirdi. Şəhərlərimizin ölkə həyatında rolu artdı. Gəncə, Şamaxı, Təbriz, Ərdəbil, Naxçıvan, Dərbənd bütövlükdə Şərqin önəmli sənətkarlıq və ticarət

Xətib Təbrizi

mərkəzləri olmaqla bərabər, həm də çox mühüm mədəniyyət mərkəzlərinə çevrildi. Şəhərlərimizdə bədii sənətkarlıq yüksək inkişaf səviyyəsinə çatdı, gözəl arxitektura abidələri inşa edildi.

Təhsil və elmin inkişafı. Müsəlman İntibahı dövründə çoxlu məktəblər açıldı, yüksək təhsil verən mədrəsələr yaradıldı. Məscidlərdə yerləşən məktəblərdə ***Qurani-Kərim*** öyrədilir və müxtəlif elm sahələrinə aid ilkin məlumatlar verilirdi. Mədrəsələrdə dini biliklər və şəriətlə yanaşı, məntiq, ərəb və fars dillərinin, müxtəlif təbiət elmlərinin öyrənilməsinə xüsusi diqqət yetirilirdi. Bu təhsil ocaqlarında təbabət, astronomiya, fəlsəfə, tarix və digər elm sahələri üzrə böyük alimlər çalışırdılar.

Bu dövrdə elm və mədəniyyətin inkişafını islam dini və onun müqəddəs kitabı Qurani-Kərimin buyurduğu kəlamlarla necə əlaqələndirərsən? Fikirlərini bildir.



Bəhmənyar

İntibah dövrünün parlaq şəxsiyyətlərindən olan **Xətib Təbrizi** (1030-1109) Şərqin ilk ali məktəbində – Bağdaddakı Nizamiyyə mədrəsəsində 40 ildən çox dərs demişdi. O, fəlsəfə, məntiq, dil və ədəbiyyat sahəsində çox qiymətli araşdırmalar aparmışdı. Xətib Təbrizi bütün islam dünyasında dilçilik və ədəbiyyatşünaslıq sahəsində ensiklopedik biliyə malik görkəmli alimlərdən biri idi.

Azərbaycan filosofu ***Bəhmənyar İbn Mərzban*** böyük alim Əbu Əli İbn Sinanın tələbəsi olmuşdu. Bəhmənyar Şərq və qədim yunan filosoflarının əsərlərini dərindən öyrənmiş, fəlsəfə elminin inkişafına böyük töhfə vermişdi.

Azərbaycanın Müsəlman İntibahı dövrü elm xadimlərinin dünya elminə verdiyi töhfələr hansılardır?

Əfzələddin Xaqani Şirvani. Şabran.
Heykəltəraş Camal Rüstəmov

Məhsəti Gəncəvi.
Rəssam Güllü Mustafayeva

Ömrünün 30 ilini astronomiya elminə həsr etmiş ***Fazil Fəriddin Şirvani*** XII yüzillikdə bir neçə qiymətli ulduz cədvəli tərtib etmişdi.

Ədəbiyyat xadimləri. İntibah dövrü ədəbiyyatının ilk görkəmli nümayəndələrindən biri Qətran Təbrizi idi. Onun əsərləri tariximizi öyrənmək üçün dəyərli mənbə hesab olunur.

Böyük şairimiz **Əfzələddin Xaqani** (1121-1199) ədəbiyyata yeni üslub və bədii təsvir vasitələri gətirmişdi. O, Azərbaycan ədəbiyyatında ilk dəfə *poema* yazmışdı.

Nizami Gəncəvinin abidəsi. Bakı.
Heykəltəraş Fuad Əbdürrəhmanov

Bu dövrdə Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biri də gözəl rübailərin müəllifi **Məhsəti Gəncəvi** (1089-1183) idi.

Azərbaycan ədəbiyyatı **Nizami Gəncəvinin** (1141-1209) yaradıcılığı ilə özünün ən yüksək zirvəsinə ucaldı. Şairin "Xəmsə"si Şərq və dünya poeziyasının inkişafına güclü təkan verdi. Nizami humanist baxışlarına və insana verdiyi yüksək dəyərə görə müasirlərini, hətta ondan sonrakı dövrlərdə yaşayıb-yaratmış bir çox görkəmli humanistləri də ötüb keçmişdi.

Nizami yaradıcılığında humanist ideyaların olmasını dövrün prosesləri ilə əlaqələndir.

İntibah dövrünün memarlıq inciləri. Müsəlman İntibahı dövründə Azərbaycanda **şəhərsalma və memarlıq** özünün yüksəliş dövrünü yaşayırdı. Azərbaycanlı memarlar əzəmətli saraylar, qalalar, məscid və minarələr, körpülər və türbələr inşa edirdilər. Bu dövrdə Azərbaycanın bütün böyük şəhərləri yeraltı saxsı borularla içməli su ilə təchiz olunurdu. Çirkab suları isə xüsusi borularla yaşayış məntəqələrindən kənara axıdılırdı.

Müsəlman İntibahı dövründə şəhərsalma və memarlıq nə üçün yüksəliş dövrünü yaşadı?

*Ərəb mənbələrinə görə, Azərbaycanın bütün böyük şəhərlərində əzəmətli və gözəl **məscidlər** tikilmişdi. Bunlardan dövrümüzədək gəlib çatmış, **Bakıda** indi **"Sınıqqala"** adı ilə məşhur olan, 1078–1079-cu illərdə şəhər rəisi Məhəmmədin əmri ilə tikilmiş məscidi və klassik memarlıq nümunəsi kimi tarixdə iz qoyan **Ərdəbildəki Cümə məscidini** göstərmək olar.*

Sınıqqala məscidi. Bakı

Bu dövrdə inşa edilən Azərbaycanın memarlıq incilərinin günümüzədək gəlib çata bilməsinə səbəb nədir?



Qız qalası. Bakı

Möminə xatun türbəsi. Naxçıvan

İntibah dövrü memarlıq abidələri içərisində memar **Məsud Davudoğlu** tərəfindən Bakıda ucaldılmış möhtəşəm ***Qız qalası*** orijinal quruluşa malik olması ilə seçilirdi. Bu abidə dünyada tayı-bərabəri olmayan memarlıq incisidir.

Şamaxıda **Gülüstan qalası**, Ağsu çayı sahilində **Buğurd,** Bakıda **Mərdəkan qalaları** bu dövrdə inşa edilmiş gözəl memarlıq abidələri idi.

İntibah dövrünün görkəmli nümayəndələri sırasında memar ***Əcəmi Əbubəkr oğlu*** xüsusi yer tutur. O, mükəmməl memarlıq abidələri yaratmış, ***Naxçıvan memarlıq məktəbinin*** əsasını qoymuş və sağlığında *"mühəndislər şeyxi"* titulu almışdı. Onun



Yusif ibn Küseyr türbəsi. Naxçıvan



Əcəmi Naxçıvaninin abidəsi. Naxçıvan. Heykəltəraş Kamal Ələkbərov

inşa etdiyi ***Yusif ibn Küseyr və Möminə xatun türbələri*** bu gün də öz gözəlliyi və əzəməti ilə insanları valeh edir.

Əcəmi Əbubəkr oğlu Naxçıvanda *Qoşaminarə, Cümə məscidi, Darülmülk (Eldənizlər sarayı)* və başqa nadir memarlıq abidələrini də ucaltmışdı. Onun yaratdığı memarlıq inciləri bütün Şərq memarlığına güclü təkan vermişdi.

XII əsrin sonlarında Naxçıvan məktəbi üçün səciyyəvi olan memarlıq üslubunda Marağada *Göygünbəz*, Urmiyada *Üçgünbəz* məscidləri inşa edildi.

Azərbaycan xalqının mədəniyyət sahəsindəki bu nailiyyətləri Müsəlman İntibahına çox böyük töhfə idi.

1. *"İntibah mədəniyyətinin görkəmli xadimləri" adlı təqdimat hazırla.*
2. *Dövrün görkəmli mütəfəkkirlərinin fəaliyyətini özündə əks etdirən cədvəl tərtib et.*
3. *İntibah mədəniyyəti nə üçün türk-islam mədəniyyətinin tərkib hissəsi hesab edilir?*
4. *XII-XIII əsrin əvvəllərində ədəbiyyatın inkişafının insanların həyat tərzindəki dəyişikliklərlə əlaqəsini müəyyən et.*
5. *Müsəlman İntibahı dövrünə aid memarlıq abidələrimiz haqqında esse yaz.*

YADELLİ İŞĞALÇILARA QARŞI MÜBARİZƏ

15. MONQOL YÜRÜŞLƏRİNƏ QARŞI MÜBARİZƏ

XIII əsrin başlanğıcında Monqol dövlətinin yaranması və işğalları bütün Şərqin, o cümlədən Azərbaycanın ictimai-siyasi inkişafına ciddi təsir göstərdi. 30 minlik monqol ordusu 1220-ci ilin sonunda Subutay və Cəbənin başçılığı ilə Azərbaycana yürüşə başladı. Siyasi cəhətdən qeyri-sabit vəziyyətdə olan Azərbaycanı ağır sınaqlar gözləyirdi.

Gəlin tədqiqat aparaq. Monqolların Azərbaycanı işğal etməsinin hansı nəticələri oldu? Atabəylər dövləti yadellilərə qarşı mübarizədə niyə davam gətirmədi? Monqol yürüşlərinin tariximizdə yeri nədən ibarətdir?

Monqollar, kəşfiyyat, Şəmsəddin Tuğrayi, Təbrizin müdafiəsi, Xarəzmşah Cəlaləddin, Usta Bəndər

Kəşfiyyat xarakterli ilk yürüş. Monqollar Mərkəzi Asiyanı ələ keçirdikdən sonra Azərbaycan üzərinə yürüş etdilər. Çingiz xanın əmri ilə kəşfiyyat xarakteri daşıyan bu yürüş 1220-1222-ci illərdə gerçəkləşdi. Monqollar xalqımızın ciddi müqaviməti ilə qarşılaşdı. Atabəy hökmdarı Özbək qaçıb gizlənsə də, ayrı-ayrı şəhərlərin və vilayətlərin əhalisi silahlanaraq işğalçılarla savaşa girdilər. Monqollar ***Təbrizə*** üç dəfə basqın etsələr də, əhalinin ciddi müqaviməti ilə üzləşdilər. Şəhərin hakimi ***Şəmsəddin Tuğrayi*** qala divarlarını möhkəmləndirdi, müdafiəçilərin sayını artırdı. Ona görə də monqollar Təbrizdən yalnız xərac almaqla kifayətləndilər.

1221-ci ilin yazında monqollar ***Marağanı*** ağır mühasirədən sonra ələ keçirdilər və şəhər əhalisinə divan tutdular. Daha sonra ***Ərdəbilə*** hücum etdilər. Şəhər əhalisi monqolların iki həmləsini igidliklə dəf etdi. Lakin heç bir yerdən kömək almadıqlarına görə şəhər müdafiəçilərinin qüvvəsi zəiflədi, üçüncü hücumdan sonra Ərdəbil tutuldu. Həmin dövrdə Ərdəbildə olmuş Yaqut əl-Həməvi yazmışdı ki, monqollar şəhərdəki bütün kişi əhalini qılıncdan keçirdilər. Düşmən daha sonra Səraba və Naxçıvana hücum etdi. Hər iki şəhər dağıdıldı.

Monqolların Azərbaycana ilk yürüşü nə ilə nəticələndi?
Bu yürüşlər nə üçün ictimai-siyasi inkişafa ağır təsir göstərdi?

1221-ci ilin payızında ***Beyləqan*** mühasirəyə alındı. Monqollar şəhəri çətinliklə ələ keçirdilər. Bütün əhalini, o cümlədən qadın və uşaqları məhv etdilər. Monqollar oradan ***Gəncəyə*** hücum etdilər. Gəncə əhalisi o zamana qədər tez-tez gürcü feodallarının basqınına məruz qaldığı üçün qala divarlarını və şəhər darvazalarını möhkəmlətmişdi. Ona görə də monqollar Gəncəni tutmaq fikrindən əl çəkdilər və təzminat* almaqla kifayətləndilər.

Monqollar daha sonra Şirvana yürüş etdilər, **Şamaxı** şəhərini mühasirəyə aldılar. Əhali hamılıqla doğma şəhərinin müdafiəsinə qalxdı. Qaynaqlara görə, Şamaxı əhalisi demişdi: "Qılınca sarılmaq lazımdır. Bizə qılıncdan başqa qurtuluş yoxdur, səbr etmək və şərəflə ölmək hər şeydən yaxşıdır". Şamaxılılar düşmənə ciddi müqavimət göstərsələr də, monqolların üstün qüvvələri şəhəri ələ keçirib, bütün əhalini məhv etdilər.

Monqollar Dərbəndə yaxınlaşdıqda qalanın çox möhkəm olduğunu görüb, Dərbəndin hakimi ilə danışıqlar apardılar. Dərbənd hakimi monqol sərkərdəsinin hüzuruna elçilər göndərdi. Lakin monqol sərkərdəsi danışıqları davam etdirmədi. Elçiləri məcbur etdi ki, dağ cığırları ilə şimala keçidi onlara göstərsinlər.

Monqolların bu ilk yürüşü kəşfiyyat xarakteri daşısa da, Azərbaycan iqtisadiyyatına, şəhər həyatına, mədəniyyətimizə ağır ziyan vurdu və ölkəmizin müdafiə gücünü zəiflətdi.

Monqolların birinci yürüşünün nəticələrini təhlil et.

Azərbaycan Cəlaləddinin hakimiyyəti dövründə. **1225-ci ildə** Xarəzmşah Cəlaləddin böyük ordu ilə Azərbaycana hücum etdi. Təbrizi tutub Atabəylər dövlətinin varlığına son qoydu. Daha sonra Cəlaləddin Şirvanı özündən asılı hala saldı. Şirvan şahı hər il xərac ödəməyi öhdəsinə götürdü. Əhali üzərinə qoyulan vergilər də artırıldı. Cəlaləddinin təyin etdiyi canişinlər ölkəni çapıb talayırdı. Bu zülmə qarşı **1231-ci ildə** Gəncədə usta ***Bəndərin*** başçılığı ilə böyük üsyan oldu. Təbriz, Xoy, Mərənd və Naxçıvanda da üsyanlar baş verdi. Cəlaləddin bu üsyanları çətinliklə yatırdı.

Azərbaycanın Böyük Monqol imperiyasına tabe edilməsi. Monqol qoşunları **1231-ci ildə** ***Çormağun noyonun*** başçılığı ilə yenidən Azərbaycana hücum etdilər. Bu zaman Cəlaləddin öz qoşununu bütün Azərbaycana səpələmişdi, qətl və qarətlə məşğul idi. Monqolların yeni hücuma başlaması xəbərini aldıqda isə tələsik Kiçik Asiyaya qaçdı.

**Təzminat* – məğlub dövlətin qalib dövlətə verməli olduğu pul, ərzaq və s.

AZƏRBAYCAN XIII əsrdə

Monqolların hücum xəbərini alan kimi Cəlaləddin indiyə qədər müharibə etdiyi qonşularından yardım istədi. Lakin heç kəsdən kömək gəlmədi. Həmin dövrdə yaşamış ərəb tarixçisi ibn əl-Əsir "Əl-kamil fit-tarix" adlı əsərində bunun səbəbini belə izah etmişdi: "Cəlaləddin çirkin rəftarlı adam idi, ölkəsini pis idarə edirdi. Onun düşmənçilik etmədiyi, torpağına qoşun göndərmədiyi bir qonşu hakim də qalmamışdı, hamı üçün arzuedilməz qonşu idi. Buna görə də qonşuların hamısı onu tərk etdilər və kömək əli uzatmadılar".

Monqolların ikinci yürüşünün xalqımız üçün fəlakətli nəticələri nə ilə əlaqədar idi?

Monqollara aid silahlar.
Milli Azərbaycan Tarixi Muzeyi

Monqol ordusu **1231-ci ildə** ***Marağanı*** tutub əhalisini qılıncdan keçirdi. Daha sonra düşmən qüvvələri Təbrizi mühasirəyə aldı. Lakin Şəmsəddin Tuğrayi vəfat etdiyi üçün şəhərin müdafiəsini təşkil etmək mümkün olmadı. ***Təbriz*** şəhəri monqolların əlinə keçdi. Monqollar Azərbaycanın cənubunu tutduqdan sonra Arrana və Şirvana soxuldular.

1235-ci ildə ***Gəncə*** mühasirəyə alındı. Gəncə əhalisi düşmənin əlinə keçməmək üçün öz əmlaklarını və evlərini yandırdı. Monqollar bundan qəzəblənib bütün şəhər əhalisini qılıncdan keçirməyə başladılar. Yalnız kiçik bir dəstə mühasirəni yarıb canını qurtara bildi. Bərdə, Beyləqan, Şabran, Şamaxı şəhərləri də monqollar tərəfindən tutulub qarət edildi. **1239-cu ildə** ***Dərbənd*** qalasının tutulması ilə Azərbaycanın işğalı tamamilə başa çatdı.

Azərbaycan, bütövlükdə Cənubi Qafqaz birbaşa ***ali monqol xaqanına*** tabe edildi və onun tərəfindən təyin olunmuş canişin tərəfindən idarə olunmağa başlandı.

1. Monqolların Azərbaycana birinci və ikinci yürüşünü Venn diaqramında müqayisə et.
2. Xarəzmşah Cəlaləddinin Azərbaycana yürüşünün nə kimi nəticəsi oldu?
3. Monqolların Azərbaycana yürüşündən sonra insanların həyat tərzindəki dəyişiklikləri təsvir et.
4. "Azərbaycan monqol ağalığı dövründə" adlı esse yaz.
5. Mənbələr əsasında o dövrdə baş verən ictimai-siyasi prosesləri dəyərləndir.

16. AZƏRBAYCAN ELXANİLƏR DÖVLƏTİNİN MƏRKƏZİ KİMİ

1256-cı ildə Çingiz xanın nəvəsi Hülakü xanın başçılığı ilə monqol ordusu Ön Asiyada yeni ərazilər işğal etmək üçün yürüşə başladı. Azərbaycan yenidən, bu dəfə Hülakü xan tərəfindən işğal edildi. Yeni yaranmış Hülakülər dövləti monqolların beşinci ulusu idi.

Gəlin tədqiqat aparaq. Azərbaycanın Hülakülər tərəfindən idarə edilməsi ölkənin ictimai-siyasi həyatına necə təsir etdi?

Elxanilər, Qızıl Ordu, Qazan xan, Çobanilər, xütbə oxunması, Sultaniyyə şəhəri

Elxanilər dövlətinin yaranması. Hülakü xan **1258-ci ildə** Bağdadı tutdu. Sonuncu Abbasi xəlifəsi öldürüldü, xəzinəsi monqolların əlinə keçdi. Amudəryadan Aralıq dənizi sahillərinə və Böyük Qafqaz dağlarından İran körfəzinə kimi Yaxın və Orta Şərq Hülakü xanın hakimiyyəti altına keçdi. Yeni, beşinci monqol ulusu – ***Hülakülər dövləti*** yarandı. Hülakü xana *elxan* rütbəsi verildiyi üçün bu dövlət həm də ***Elxanilər dövləti*** adını almışdı. Hülakü xanın məsləhətçisi və oğlu Abaqa xanın vəziri görkəmli Azərbaycan alimi **Nəsirəddin Tusi** idi.

Elxanilər dövlətinin əsas mərkəzi Azərbaycan ərazisi idi. Qarabağ Elxanilərin yaylağı, Muğan isə qışlağı idi. XIII-XIV əsrlərdə Azərbaycan adı altında müasir Şimali və Cənubi Azərbaycan əraziləri nəzərdə tutulurdu. Həmin dövrdə Azərbaycan ərazisi 250 min km^2 idi. Dövlətin paytaxtı Marağa, Təbriz, Sultaniyyə və sonra yenidən Təbriz olmuşdu.

Azərbaycanın Elxanilər dövlətinin mərkəzi vilayəti olmasının əhəmiyyəti nə idi?

Azərbaycan uğrunda Elxani-Qızıl Ordu mübarizəsi. Azərbaycanın qəti şəkildə Elxanilərin hakimiyyəti altına keçməsi digər monqol dövlətinin – Qızıl Ordunun narahatlığına səbəb oldu. Şimali Qafqazda möhkəmlənən Qızıl Ordu xanları cənubdakı məhsuldar torpaqları, xüsusən əlverişli qışlaqlar olan Muğan, Mil, Şirvan düzənliklərini, bölgədəki mühüm sənətkarlıq və ticarət mərkəzləri olan şəhərləri ələ keçirməyə, buradan keçən

Monqol hücumlarından müdafiə

əsas karvan yollarını öz nəzarətləri altına almağa çalışırdılar. Bu səbəbdən Qızıl Ordu ilə Elxanilər dövləti arasında gərgin mübarizə başladı və qısa fasilələrlə 100 ilə qədər davam etdi.

Elxanilər dövləti üçün Azərbaycanın Xəzərboyu bölgələrinin əhəmiyyəti nə idi?

Azərbaycan uğrunda Elxanilərlə Qızıl Ordu arasında uzun sürən qanlı müharibələr, əsasən, Azərbaycan ərazisində, Xəzərboyu vilayətlərdə baş verdiyindən, onun nəticələri ölkəmiz üçün xüsusilə ağır idi. Yürüşlər zamanı şəhər və kəndlər dağıdılır, əkin yerləri məhv edilir, yerli əhali hədsiz məhrumiyyətlərə məruz qalırdı.

Qızıl Ordu ilə Elxanilər dövləti arasında baş verən müharibələrdə hansı tərəf haqlı idi? Fikrini əsaslandır.

Qazan xanın islahatları. Monqol yürüşləri və ağalığı Azərbaycanın iqtisadi və mədəni həyatına ağır zərbə vurdu. Əkin sahələri, bağlar otlağa çevrildi, süni suvarma sistemləri – irriqasiya qurğuları məhv edildi. Şəhər və qalalar dağıdıldı, sənətkarların çoxu Qaraqoruma aparıldı, qalanları isə qula çevrildi, inşaat işlərinə, silah hazırlanmasına cəlb edildi. XIII əsrin

80-90-cı illərində feodal çəkişmələrinin artması təsərrüfata yeni zərbələr vurdu, Elxani dövlətində iqtisadi və siyasi böhran baş verdi.

? ***İri feodalların mərkəzi hakimiyyətə qarşı çıxmasına, müstəqilliyə can atmasına səbəb nə idi?***



Qazan xan (1295-1304) hakimiyyətə gəldikdən sonra dərhal ciddi addımlar atdı. İlk növbədə Azərbaycanın şimalında monqol əyanlarının qaldırdıqları qiyamları yatırdı. Qazan xan mərkəzi hakimiyyəti möhkəmləndirmək, əhalidən vergi toplanmasını nizama salmaq, dövlət xəzinəsinə gəlirlərin daimi axınını təmin etmək, bu sahədə monqol əyanlarının özbaşınalığına son qoymaq məqsədi ilə islahatlar keçirdi. İslahatların keçirilməsində baş vəzir, tarixçi və həkim ***Fəzlullah Rəşidəddinin*** böyük rolu oldu. Qazan xan yerli feodallara arxalandı və bu məqsədlə ***islam dinini*** rəsmən qəbul etdi. Daha sonra ***torpaq, vergi, məhkəmə, rabitə və ticarət*** sahəsində islahatlar keçirdi.

Torpaq islahatının əsasını monqol qoşununda xidmət edənlərə torpaq sahəsi verilməsi təşkil edirdi. ***İqta*** adlanan bu torpaqlar ***incu*** (Elxani hökmdarlarına məxsus torpaqlar), ***divan və bayrat*** (istifadəsiz qalmış torpaqlar) hesabına verilirdi. İqta alınıb-satıla, bağışlana bilməzdi. İqta sahibi öldükdə onun iqtası hərbi işi davam etdirən xələfinə və ya başqa hərbçiyə verilirdi. Qazan xanın 1303-cü ildə verdiyi fərmana görə kəndlinin bir yerdən başqa yerə köçməsi qadağan edildi. Bu təhkimedilmə idi, lakin uzun zaman davam etmədi.

Vergi islahatına görə vergilərin növü, həcmi, toplanması vaxtı və s. məsələlərdə dəqiq qayda yaradıldı. Qeyri-qanuni vergi toplanması qadağan edildi. Vergi toplanması mərkəzi divana həvalə edildi. Vilayət hakimlərinin bu işə müdaxiləsinə yol verilmədi.

Məhkəmə islahatına görə qazı vəzifəsinə ədalətli din xadimləri təyin olundu. Alqı-satqı işlərində qayda-qanun yaradıldı. 30 ili keçmiş iddia sənədləri öz qanuni qüvvəsini itirmiş elan olundu. Lakin bu islahat tam həyata keçirilə bilmədi.

Rabitə islahatı ölkədə vahid rabitə sistemi yaradılmasına səbəb oldu. İki il ərzində həyata keçirilən bu islahat gedişində əsas yollarda hər 3 fər-

Monqollar xərac toplayarkən

səxdən (20 km) bir rabitə dayanacağı – ***yam*** yaradıldı. Yam işçilərinin əhalidən vəsait alması qəti qadağan edildi.

Ticarət islahatına görə vahid pul sistemi yaradıldı, çəki və ölçü vahidləri sabitləşdi. Ticarət yollarının, bazarların qorunması və gömrük toplanması üçün tədbirlər görüldü.

Qazan xanın bu islahatları nəticəsində əhalinin vəziyyəti qismən yüngülləşdi, iqtisadiyyatda canlanma baş verdi, mərkəzi hakimiyyət gücləndi.

Qazan xanın ölümündən sonra qardaşı ***Məhəmməd Olcaytu*** (1304-1316) islahatları davam etdirdi, mərkəzi hakimiyyəti daha da qüvvətləndirdi. Lakin onun 12 yaşlı oğlu Əbu Səid (1316-1335) taxta çıxdıqdan sonra daxili çəkişmələr gücləndi. Dövlət işləri bu zaman baş əmir Çobanın əlində cəmləşdi. Ona qarşı 1318-ci ildə Xorasanda qiyam qalxdı, şimaldan Qızıl Ordu qoşunu hücum etdi. Əmir Çoban qiyamı yatırdı, Qızıl Ordu qoşununu geri çəkilməyə məcbur etdi. Sonrakı il Gürcüstanda, Naxçıvanda və Sultaniyədə qiyamlar baş verdi. Bu qiyamların yatırılmasında Əbu Səid igidlik göstərdi və Bahadır ləqəbi aldı. Lakin hələ də bütün dövlət işləri Əmir Çobanın və oğlanlarının əlində idi. Əmir Çoban qızını Əbu Səidə ərə verməklə mövqeyini daha da möhkəmlətdi. Əbu Səid narazı qüvvələri öz tərəfinə çəkib 1328-ci ildə Əmir Çobanı və iki oğlunu edam etdirdi.

1335-ci ildə Əbu Səidlə döyüşdə məğlub olduqdan sonra onlar (Qızıl Ordu hökmdarı Özbək xanın qoşunu) geri çəkildilər, burada (Şirvanda) bütün silahlarını və əmlaklarını atıb, təcili qaçmağa başladılar... Dərbəndə kimi qaçdılar, oradan isə öz ölkələrinə getdilər.

Həmdullah Qəzvini

Çobani əmirlərinin özbaşınalığı. **1335-ci ildə** Qızıl Ordu hökmdarı ordusu ilə Kür çayına qədər irəlilədi. Əbu Səid düşməni məğlub edib qovdu, lakin həmin vaxt özü də öldürüldü.

Əbu Səidin ölümü ilə Hülakü dövlətinin tənəzzülü gücləndi. Əmir Çobanın nəvəsi ***Şeyx Həsən*** **1338-ci ildə** hakimiyyət uğrunda mübarizə aparan feodal qruplarını məğlub etdi. Əbu Səidin bacısını Elxani taxtına çıxardı, özü də baş əmir oldu. Dövləti onun adından idarə etməyə başladı. Bu dövrdə hakimiyyət simvolları: fərman imzalanması, pul kəsilməsi, məsciddə xütbə oxunması Elxani hökmdarının ixtiyarında olsa da, faktiki hakimiyyət Çobanilərin əlində idi. Ona görə Azərbaycan tarixinin **1338-1357-ci illəri** ***Çobanilər dövrü*** adlanır. 1344-cü ildə Şeyx Həsən öldürüldü, onun yerini qardaşı Məlik Əşrəf tutdu. O, həmin il Təbrizdə baş verən üsyanı çətinliklə yatırdı və açıq-aşkar qarətçilik siyasəti yeritməyə başladı.

Çobani əmirlərinin yeritdikləri qarətçi siyasətin məqsədi nə idi?

Çobanilərin zülmündən təngə gələn Azərbaycan əhalisi Qızıl Ordu hökmdarı Canı bəydən yardım istədi. Canı bəy **1357-ci ildə** Təbrizə gəldi, Məlik Əşrəfi edam etdirdi. ***Elxani dövlətinin varlığı sona çatdı***. Oğlu Bərdi bəyi Təbrizə hakim qoyub Qızıl Orduya qayıtdı və iki ay sonra öldü. Bərdi bəy tələsik Azərbaycanı tərk etdi. Bununla Qızıl Ordu ağalığı da sona çatdı.

1. Hülakü xan və onun məsləhətçisi Nəsirəddin Tusi haqqında təqdimat hazırla.
2. Monqol ağalığı dövrünün işğalçı planlarını digər dövrlərdəki belə planlarla müqayisə et.
3. Elxanilərin Azərbaycanda hakimiyyəti dövrünə aid sxem hazırla.
4. Elxani dövləti nə üçün süquta uğradı?
5. Çobanilərin müstəsna səlahiyyətlər əldə etməsinin səbəbi nə idi?

17. AZƏRBAYCAN UĞRUNDA MÜBARİZƏ

XIV əsrin ortalarında Azərbaycanda Cəlairilər sülaləsinin hakimiyyətə gəlməsindən sonra siyasi sabitlik yarandı, təsərrüfat həyatı canlandı. Lakin XIV əsrin 80-ci illərində yadelli hücumları xalqımızın həyatına ağır zərbə vurdu. Azərbaycan yenidən hərbi-siyasi qarşıdurma meydanına çevrildi. Vətənimizin igid övladları Teymuri zülmünə qarşı mübarizəyə başladılar.

XIV əsrin 80-ci illərində Azərbaycan uğrunda hansı qüvvələr mübarizə aparırdı? Mübarizənin kəskinləşməsinin səbəbi nə idi?

Cəlairilər, Toxtamış xan, Əmir Teymur, Əlincə qalası, Sərdrud döyüşü, müttəfiqlik

Cəlairi sülaləsinin hakimiyyətə gəlməsi. Qızıl Ordu qüvvələri Azərbaycandan çəkildikdən dərhal sonra feodal çəkişmələri başlandı. Ölkədəki ara müharibələrindən yararlanan Ərəb İraqının (Cəlairi sülaləsinin banisi Şeyx Həsən (Böyük) 1340-cı ildə Bağdadda hakimiyyəti ələ keçirmişdi – *red.*) hökmdarı ***şeyx Üveys Cəlairi*** **1359-cü ildə** Azərbaycanın Kürdən cənubdakı torpaqlarını öz hakimiyyətinə tabe etdi. Dövlətin paytaxtı Təbriz oldu. Daha sonra şeyx Üveys Şirvanı da özünə tabe edib hakimiyyətini bütün Azərbaycana yaydı. Cəlairi sülaləsinin hakimiyyəti dövründə mərkəzi idarə sis-



temi möhkəmləndi, təsərrüfatda canlanma baş verdi. Abadlıq işləri aparıldı, Təbrizdə Dövlətxana adlı nəhəng saray inşa edildi. Suvarma sistemləri bərpa olundu.

Cəlairilərin həyata keçirdiyi tədbirləri dəyərləndir.

Cəlairi sülaləsinin ağalığı fasilələrlə 1410-cu ilə kimi davam etdi. Yerli feodal hakimləri bu dövrdə öz hakimiyyətini, əsasən, qoruyub saxlaya bildilər.

Toxtamış xanın və Əmir Teymurun yürüşləri. Qızıl Ordu hökmdarı ***Toxtamış xan*** **1385-ci ildə** 100 minlik ordu ilə Azərbaycana böyük yürüşə başladı. Cəlairi hökmdarı sultan Əhməd Bağdada çəkildi. Toxtamış xanın hücumu zamanı şəhərlərimiz amansızlıqla qarət edildi. **1386-cı ilin əvvəlində** Əmir Teymurun yürüşə başlaması ilə əlaqədar Toxtamış xan əsir və qənimətlərlə Volqaboyuna döndü.

Teymurun ordusu Cəlairilərin hakimiyyəti altında olan bütün ərazilərin işğalına başladı. Tezliklə Təbriz və digər ərazilər Əmir Teymurun nəzarətinə keçdi. Şirvanşah I İbrahim də Teymura itaət etdiyini bildirdi.

Teymurun ordusu daha sonra Naxçıvanda **Əlincə qalasını** mühasirəyə aldı. Cəlairi xəzinəsinin saxlandığı bu qalanın müdafiəçiləri Teymurilərə ciddi müqavimət göstərdilər.

Əmir Teymur Azərbaycanı tabe etdikdən sonra bütün regionun idarəçiliyini, Əlincə qalasının tutulmasını oğlu Miranşaha tapşırdı. Oğlunun yerli əhaliyə qarşı qəddar siyasəti isə həmin dövrdə Teymurilərin ağalığına qarşı ümumxalq nifrətini artırdı.

Əlincə qalası

Əmir Teymur

Əlincə qalasının müdafiəçilərinin inadla mübarizə aparmalarına qonşu bölgələrin əhalisi, o cümlədən Şəki hakimi Seyid Əli, Şirvan şahı I İbrahim, gürcü hökmdarı VII Georginin göndərdiyi dəstələr də kömək edirdilər. ***Hürufilik* hərəkatının*** nümayəndələri Teymurilərə qarşı mübarizənin önündə gedirdilər. Onlar Əlincənin müdafiəçiləri ilə çiyin-çiyinə vuruşurdular. Əmir Teymurun Azərbaycanda saxladığı qoşun Əlincə qalasının müdafiəçilərini diz çökdürə bilmədi. Qalanın müdafiəsinə **Sultan Tahir, Xacə Cövhər** və **Əmir Altun** başçılıq edirdilər. **1399-cu** ildə Teymur yenidən Azərbaycana yürüş etdi. Bu zaman Əlincə qalasının müdafiəçiləri arasında münaqişə baş verdi, Sultan Tahir xəzinəni götürüb Bağdada qaçdı. Teymur 1400-cü ildə başsız qalmış Əlincə qalasını tutdu. Beləcə 14 il müdafiə olunmuş Əlincə qalası daxili çəkişmə nəticəsində Teymura tabe oldu.

Əlincə qalasının Əmir Teymurun hücumlarına duruş gətirməsi faktını qiymətləndir.

Əmir Teymur Şimali Qafqazı fəth etmək üçün **1395-ci ildə** Dərbənd və Dəryal keçidlərindən böyük yürüşə başladı. ***Terek çayı sahilində baş verən döyüşdə*** Toxtamış xanın əsas qüvvələrini məğlubiyyətə uğratdı. Daha sonra Şimali Qafqazın dağlıq bölgələrinə qədər irəlilədi, Azov qalasınadək bütün ərazini özlərinə tabe etdi.

Əmir Teymur **1399-cu ildə** Şəki hakimliyinə qoşun yeritdi. Lakin I İbrahimin xahişini nəzərə aldı və Şəki hakimliyinə toxunmadı. Əlincə qalasının müdafiəsi zamanı həlak olmuş Seyid Əlinin oğlu **Seyid Əhmədi** Şəkiyə hakim qoydu.

Teymuri ağalığına son qoyulması. Şirvanşah I İbrahim 1405-ci ildə – Teymurun ölümündən dərhal sonra Qarabağı və Gəncəni özünə tabe etmək üçün mübarizəyə başladı. Onun ətrafına yığışan Kaxeti hökmdarının, Ərdəbil, Şəki və Gəncə hakimlərinin birləşmiş qüvvələri **1405-ci ildə** bir

****Hürufilik*** – "hərf" sözündən olub ərəb hərflərinin ilahiliyini bəyan edən cərəyan. Hürufilər Teymuri zülmünə qarşı mübarizəyə çağırır və özləri də bu mübarizədə fəal iştirak edirdilər.

həftə davam edən döyüşdə Teymuri qoşununu məğlub etdilər. Gürcüstanda, Şirvanda və Şəkidə Teymurilərin ağalığına son qoyuldu.

Bu zaman Miranşahın oğlu Əbubəkr Cənubi Azərbaycanda şəhərləri qarət edir, əhalini soyub talayırdı. Onun Təbriz əhalisindən əlavə vergi tələb etməsi böyük narazılığa səbəb oldu. Təbriz əhalisi üsyan qaldırıb Teymuriləri şəhərdən qovdu və I İbrahimdən yardım istədi. Şirvan hökmdarı 1406-cı ilin yazında Təbrizə gələrək hakimiyyəti ələ aldı və bütün regionda qayda-qanun yaratdı. Bu zaman bütün Azərbaycan qısa müddətə də olsa, I İbrahimin hakimiyyəti altına keçdi.

I İbrahimin Təbrizə gəlib, qayda-qanun yaratmasını necə qiymətləndirirsən?

İki ay sonra sultan Əhməd Cəlairinin Təbrizə yaxınlaşması ilə əlaqədar I İbrahim Şirvana döndü. Təbriz və bütövlükdə Azərbaycan uğrunda sultan Əhməd və onun müttəfiqi Baharlı (Qaraqoyunlu) Qara Yusif ilə teymuri Miranşah və oğlanları arasında mübarizə başladı. Teymurilər qüvvələrini toplayıb Təbriz üzərinə hücum etdilər. **1406-cı ildə** Qara Yusifin hərbi qüvvələri Teymuri qoşununu məğlub etdi. **1408-ci ildə *Sərdrud adlı yerdə baş verən növbəti döyüş*** zamanı isə Qara Yusifin qoşunu Teymuriləri tam məğlubiyyətə uğratdı. Miranşah öldürüldü, Teymuri qüvvələri Azərbaycandan qovuldu.

Əmir Teymurun ölümündən sonra Azərbaycanda hərbi-siyasi vəziyyətdə baş vermiş dəyişiklikləri sadala.

1. Əmir Teymuru hər hansı bir sərkərdə, yaxud hökmdarla müqayisə edib, fəaliyyətini dəyərləndir.
2. Hürufilik hərəkatı haqqında məlumat toplayıb təqdim et.
3. Sən I İbrahimin yerində olsaydın, Qızıl Ordu və Teymuri təhlükələri qarşısında hansı addımları atardın?
4. Teymuri ağalığına son qoyulmasında baharlıların rolunu dəyərləndir.
5. Nəyə görə Azərbaycanın müxtəlif bölgələrindən silahlı dəstələr Əlincə qalasının müdafiəçilərinə yardıma gəlirdilər?

18. ŞİRVANŞAHLAR DÖVLƏTİ VƏ ŞƏKİ HAKİMLİYİ XIII – XIV ƏSRİN BAŞLANĞICINDA

XIII əsrdə monqolların, XIV əsrin son onilliklərində Qızıl Ordu hökmdarı Toxtamış xanın və Əmir Teymurun viranedici yürüşlərinin Azərbaycanın ictimai-siyasi həyatına ağır zərbə vurduğunu artıq bilirsən. Bu zaman varlığını qorumağa çalışan Şirvanşahlar dövlətinin daxili vəziyyəti də sabit deyildi. Qonşu Şəki hakimliyi isə kiçik feodal dövləti olmasına baxmayaraq, yadellilərə qarşı müqavimət göstərdi.

Bu yürüşlər zamanı Şirvan və Şəki bölgələrində vəziyyət necə oldu? Şirvan şahları və Şəki hakimləri xarici basqınların qarşısını almaq üçün hansı addımları atdılar?

Dərbəndilər sülaləsi, I İbrahim, Oyrat sülaləsi, Seyid Əli

Şirvanşah I İbrahim

Siyasi səriştəyə malik hökmdar. XIII əsrin 20-ci illərində monqolların Azərbaycana birinci yürüşündən sonra Şirvanşahlar dövləti çətin vəziyyətə düşdü. Cəlaləddinin yürüşü zamanı Şirvan şahı III Fəribürz xərac ödəyib, dövlətin daxili müstəqilliyini qoruya bildi. Bu dövrdə siyasi hadisələrin dəyişkənliyi Şirvanşahlardan da yan keçmədi. XIII əsrin 30-cu illərində Şirvan və Şəki bölgələri digər Azərbaycan torpaqları ilə birlikdə Monqol imperiyasına qatıldı. Şirvan şahı tam asılı vəziyyətə düşdü.

XIV əsrin 30-cu illərindən Şirvan şahı Elxani dövlətinin tənəzzülündən istifadə edib, müstəqil siyasət yeritməyə başladı. Öz adından pul kəsdirdi. Sonrakı onillikdə isə Çobani əmirlərinin viranedici yürüşlərini dəf etdi.

XIV əsrin 80-ci illərində Şirvanşahlar dövlətinin daxili vəziyyəti ağırlaşdı. Şirvanşah Huşəngin zülmü xalqın güzəranını pisləşdirdi. Nəinki sadə insanlar, hətta imtiyazlı təbəqələrin nümayəndələri də hökmdardan narazı idilər. Narazılıq artaraq üsyana səbəb oldu. Huşəng öldürüldü. Şirvan taxtı boş qaldı. Əyanlar məşvərətə yığışdılar. Qərara gəldilər ki,

ŞİRVANŞAHLAR DÖVLƏTİ VƏ ŞƏKİ HAKİMLİYİ (XIV – XV ƏSRİN BAŞLANĞICI)



?

Müstəqillik və daxili müstəqillik anlayışlarını necə izah edə bilərsən?

Huşəngin əmisi oğlu şeyx İbrahimi hökmdar taxtına gətirsinlər. Şeyx İbrahim Şəkidəki mülkündə sadə həyat tərzi keçirirdi. **1382-ci ildə *Şeyx İ İbrahim*** Şirvan şahı elan olundu. Onun babaları bir zamanlar Dərbənd hakimi olduqları üçün I İbrahim və varisləri tarixdə ***Dərbəndilər sülaləsi*** kimi məşhurlaşdılar.

I İbrahimin hakimiyyəti dövründə Şərq ölkələrində siyasi vəziyyət Əmir Teymurun yürüşləri ilə əlaqədar olaraq kəskinləşdi. Şirvanşahlar dövləti iki təhlükə arasında qaldı: şimaldan Qızıl Ordunun, cənubdan isə Əmir Teymurun yürüşlərini dəf etmək lazım idi. I İbrahim ölkəsini qorumaq üçün iki xarici təhlükədən biri ilə ittifaq bağlamaq qərarına gəldi. O, haqlı olaraq düşünürdü ki, Qızıl Ordu xanı Toxtamış daha yaxın təhlükədir. Əgər o, Şirvanı zəbt etsə, Şirvanşahların hakimiyyətinə son qoya bilər. Əmir Teymur isə uzaqdan gəldiyinə görə Şirvanı idarə etmək üçün ona etibarlı bir adam lazım olacaq.

1386-cı ildə Əmir Teymur Qarabağda olarkən I İbrahim xüsusi hədiyyələrlə onun hüzuruna getdi, ehtiram göstərdi, itaət edəcəyini bildirdi. I İbrahimin bu addımları Şirvanı Əmir Teymurun viranedici yürüşündən xilas etdi. Əmir Teymur I İbrahimi Şirvanın hakimi kimi tanıdı və şimal sərhədlərinin qorunmasını ona tapşırdı. Beləliklə, I İbrahim Şirvanda əmin-amanlığı qoruyub saxladı, dövləti siyasi və hərbi cəhətdən qüvvətləndirə bildi.

I İbrahimin Əmir Teymura münasibətini necə qiymətləndirirsən?

Şirvan şahının qoşunu Əmir Teymurun Qızıl Ordu və Osmanlı dövlətləri üzərinə yürüşlərində onun müttəfiqi kimi yaxından iştirak etdi.

Əmir Teymur öldükdən sonra (1405) Azərbaycanda hakimiyyət uğrunda Teymurilər, Şirvanşahlar, Cəlairilər və Baharlılar arasında mübarizə gücləndi. Bu zaman Şirvanşah I İbrahim Teymurilərin zəifləməsindən istifadə edərək Azərbaycanı birləşdirmək fikrinə düşdü. O, Teymurilərə qarşı xalq hərəkatından yararlanıb Gəncəni və Qarabağın xeyli hissəsini tutdu.

1406-cı ildə Təbrizdə Teymuri zülmünə qarşı üsyan baş verdi. Üsyançılar şəhərdə mühüm obyektləri tutdular və yardım üçün Şirvan şahına müraciət etdilər. I İbrahim may ayında Təbrizə daxil oldu. Əhali onu öz hökmdarı kimi qarşıladı. Beləliklə, I İbrahim Azərbaycanı öz hakimiyyəti altında vahid halda birləşdirə bildi. Lakin qısa müddət sonra onun Azərbaycanı birləşdirmək siyasəti ciddi maneələrlə üzləşdi.

I İbrahimin Azərbaycanı vahid halda birləşdirmək siyasətinə, səncə, hansı amillər mane olurdu?

Şəki hakimliyi. Şəki XIII–XIV əsrlərdə Elxanilər dövlətinin tabeliyində idi. Bu əsrlərin qovşağında Şəkini (Qarabağ və Muğanla birlikdə) Elxanilərin vəziri Fəzlullah Rəşidəddinin oğlu Cəlal idarə edirdi.

Elxanilər dövlətinin tənəzzülü və parçalanması nəticəsində Şəki feodal hakimliyi daxili müstəqillik əldə etdi. Hakimiyyətə Oyrat sülaləsi gəldi. Bu sülalənin nümayəndələri ölkənin siyasi həyatında yaxından iştirak edərək öz müstəqilliklərini qorumağa çalışırdılar.

Əmir Teymur ilk yürüşü zamanı Şəki hakimliyi üzərinə də qoşun göndərdi. Bütün Şəki bölgəsi, o cümlədən, dağlıq əraziləri qarət edildi. Şəki hakimliyi itaət altına alındı. Lakin Əmir Teymur Azərbaycanı tərk etdikdən

sonra Şəki hakimi Seyid Əli müstəqil siyasət yeritməyə başladı. Ona görə də Teymurun ikinci yürüşü zamanı yadelli qoşunları Şəkini və ətraf əraziləri bir daha qarət edib dağıtdılar.

Seyid Əli Teymurilərə qarşı mübarizəni davam etdirdi. O, gürcü feodalları ilə ittifaqa girib Əlincəyə yola düşdü. Əlincənin müdafiəçilərinə kömək edən müttəfiqlər Teymurilərin bir neçə hücumunu dəf etdilər. Lakin Teymurilərlə növbəti döyüş zamanı Seyid Əli həlak oldu və yerinə oğlu Seyid Əhməd keçdi. Əmir Teymur yenidən Azərbaycana gələn zaman o, Şirvanşah I İbrahimin vasitəçiliyi ilə Teymurun hüzuruna getdi və qiymətli hədiyyələr apardı. Teymur Seyid Əhmədi bağışladı və onu Şəki hakimi kimi tanıdı. Sonrakı dövrdə Şəki hakimliyi uzun müddət ərzində daxili müstəqilliyini qoruyub saxlaya bildi.

Seyid Əli ilə Seyid Əhmədin apardığı siyasəti müqayisə et. Səncə, hansı doğru siyasət aparırdı?

1. XIII əsrdə Şirvanşahlar dövlətinin siyasi vəziyyəti necə idi?
2. Toxtamış xanın və Əmir Teymurun yürüşü zamanı I İbrahim yaranmış vəziyyətdən necə çıxdı? Onun yerində olsaydın, nə edərdin?
3. Şəki hakimliyi müstəqilliyini necə qorudu?
4. I İbrahimin yeritdiyi siyasəti Cavanşirin dövründə aparılmış siyasətlə müqayisə et.
5. Təbriz əhalisinin I İbrahimə müraciətinin səbəbini əsaslandır.

19. XIII-XIV ƏSRLƏRDƏ MƏDƏNİYYƏTİN İNKİŞAFI

Monqol yürüşləri Azərbaycanda mədəniyyətin inkişafına ağır zərbə vursa da, onun tərəqqisini dayandıra bilmədi. Elxani hökmdarlarının dövründə ölkənin mədəni həyatı, təhsil, elm canlandı. Yeni elm, təhsil, tibb mərkəzləri yarandı. XIII–XIV əsrin mədəniyyəti, incəsənət nümunələri bu gün dünya muzeylərini bəzəyir.

Yadelli hücumlarının mədəniyyətimizi məhv edə bilməməsinin səbəbi nə idi? XIII–XIV əsrlərdə mədəniyyətin hansı sahələri inkişaf etdi?

Nəsirəddin Tusi, Marağa rəsədxanası, Fəzlullah Rəşidəddin, Şəfa evi, Əbdürrəşid Bakuvi, Ərk qalası

Elm və təhsil. XIII əsrdə Azərbaycanda mədəniyyətin əksər sahələrində İntibah dövrü ilə müqayisədə müəyyən geriləmə baş verdi. Monqol yürüşləri xüsusən şəhər həyatına sarsıdıcı zərbə vurdu ki, bu da mədəniyyətin inkişafına mənfi təsir göstərdi. Şəhərlərin dağıdılması ilə yanaşı, məscidlərin məhv edilməsi, yerində bütxanaların yaradılması islam dininə, məktəb və maarifə öldürücü təsir etdi. Yalnız XIII əsrin sonunda Qazan xanın islamı rəsmən qəbul etməsi məscid və mədrəsələrin bərpasına, yeni maarif ocaqlarının yaradılmasına səbəb oldu.

*XIII–XIV əsrlərdə Azərbaycanın mədəni həyatında önəmli yeniliklər baş verdi. 1259-cu ildə böyük alim **Nəsirəddin Tusi** Marağada rəsədxana yaratdı. Bu rəsədxana tezliklə dərin elmi araşdırmalar aparılan, müxtəlif ölkələrdən gəlmiş 100-dən çox alimin çalışdığı yüksək səviyyəli elm mərkəzinə çevrildi. Mənbələrdə "Marağa akademiyası" adlandırılan bu rəsədxanada çox dəqiq astronomik cihazlar quraşdırılmışdı.*

Müasir dövrdə Azərbaycan Respublikasında hansı rəsədxanaları tanıyırsan?

Nəsirəddin Tusi həm də görkəmli dövlət xadimi idi. O, Hülakü xanın məsləhətçisi, Abaqa xanın vəziri olmuşdu. Onun "Zic-Elxani" ("Elxani cədvəli") əsəri ulduzların orbitlərinin hesablanmasına, "Təhriri-Öqlidis" ("Evklidin şərhi") əsəri həndəsəyə həsr edilmişdi. N.Tusinin əxlaq məsələlərindən bəhs edən ***"Əxlaqi-Nasiri"*** əsərindən yüz illər boyu Yaxın Şərq ölkələrindəki mədrəsələrdə əsas dərslik kimi istifadə olunmuşdu.

Cəmiyyət həyatının, demək olar ki, bütün sahələrinə geniş yer verən "Əxlaqi-Nasiri" əsərində dövlət-hökmdar-cəmiyyət münasibətlərinə xüsusi diqqət yetirilmişdir. Böyük mütəfəkkir xalqı unudub yalnız özünü düşünən hökmdarları kəskin tənqid edirdi. Belə padşahların dövləti məhvə apardığını açıq şəkildə söyləyirdi. Nəsirəddin Tusinin fikrinə görə, dövlət yalnız ədalət əsasında uzun müddət yaşaya bilər. Ədalətin isə əsas şərti əhalinin dörd təbəqəsi: "qələm əhli" (ziyalılar), "qılınc əhli" (hərbçilər), "müamilə əhli" (tacir və sənətkarlar) və "ziraət əhli" (əkinçi, bağban və maldarlar) arasında uyğunluğun mövcud olmasındadır.

Xacə Nəsirəddin Tusi. *Əxlaqi-Nasiri. Bakı, 1980*

Nəsirəddin Tusinin ədalətli cəmiyyət haqqında mövqeyini müəyyənləşdir.

Nəsirəddin Tusi.
Rəssam Nəcəfqulu İsmayılov

XIV əsrin əvvəlində Təbrizin Rəbi-Rəşidi məhəlləsində ***ali mədrəsə*** yaradıldı. Bu, Bağdadda açılmış Nizamiyyə mədrəsəsindən sonra Şərqin ikinci ali məktəbi idi. Onun təsisçisi görkəmli dövlət xadimi və alim **Fəzlullah Rəşidəddin** idi. Bu təhsil ocağında 500-ə qədər alim dərs deyir, 7 min tələbə oxuyurdu. Tələbələrin çoxu müxtəlif ölkələrdən gəlmişdi. Mədrəsədə dini biliklərlə yanaşı, dünyəvi elmlər də tədris olunurdu.

Rəbi-Rəşidi məhəlləsində 60 min nüsxə kitab saxlanılan kitabxana da vardı. Təbrizin Şam-Qazan məhəlləsində fəaliyyət göstərən iki kitabxana da ***qiymətli kitablar xəzinəsi*** sayılırdı.

Təbrizdəki ali mədrəsəni türk-islam mədəniyyətinin tərkib hissəsi kimi qiymətləndir.



Fəzlullah Rəşidəddinin abidəsi. İran

XIV əsrin əvvəlində Fəzlullah Rəşidəddin Təbrizdə Dar üş-şəfa – ***Şəfa evi*** yaratdı. Şəfa evində müxtəlif xəstəliklərin müalicəsi ilə bərabər, Azərbaycandan, eləcə də Yaxın və Orta Şərq ölkələrindən gələn gənclərə tibb üzrə dərin biliklər öyrədilirdi.

Bu dövrdə yaşamış alim **Məhəmməd Naxçıvani** Azərbaycanda çoxlu sayda Şəfa evinin fəaliyyət göstərdiyini qeyd etmişdir. O və atası **Hindişah Naxçıvani** dilçilik üzrə qiymətli əsərlər yazmışdılar.

Bu dövrdə **Azərbaycan dili** ifadəsi işlənməyə başlandı. Əsirəddin Əndəlusi azərbaycanca-ərəbcə lüğət tərtib etmiş, Azərbaycan dilinin qrammatikasına dair əsər yazmışdı.

XIII–XIV əsrlərdə dəyərli tarixi əsərlər də yazılmışdı. Fəzlullah Rəşidəddinin ***"Cəmi-ət-təvarix"*** əsəri monqol dövrünə həsr olunmuş çox qiymətli mənbədir. Nizaməddin Şami də monqol dövrünə, Əmir Teymurun yürüşlərinə dair əsər yazmışdır.

Fəzlullah Rəşidəddinin Azərbaycan mədəniyyətini inkişaf etdirmək sahəsində xidmətlərini qeyd et.

Bu dövrdə **Zəkəriyyə Qəzvini, Həmdullah Qəzvini, Əbdürrəşid Bakuvi** coğrafiya sahəsində görkəmli alim kimi tanınırdılar. Əbdürrəşid Bakuvi Bakı və digər Azərbaycan şəhərləri haqqında qiymətli məlumatlar vermişdi. **Mahmud Şəbüstəri** də fəlsəfəyə aid dəyərli əsərlər yazmışdı.

Memarlığın inkişafı. XIII– XIV əsrlərdə memarlıq güclü inkişaf etmiş, Təbriz memarlıq məktəbi yaranmışdı.



Ramana qalası. Abşeron

XIII–XIV əsrlərdə Abşeronda müdafiə xarakterli memarlıq abidələri: Ramana, Nardaran, dairəvi Mərdəkan qalaları inşa edildi.

XIV əsrin əvvəlində Təbrizdə inşa edilən Əlişah məscidi ölçülərinə görə ozamankı müsəlman aləminin ən möhtəşəm məbədi idi. Divarlarının qalınlığı 3 m olan bu abidə təbrizlilər üçün dar günlərdə etibarlı sığınacaq rolu oynadığından ***"Ərk qalası"*** adını almışdı.

XIV əsrin əvvəlində Xəzər sahilində Qazan xanın əmri ilə **Mahmudabad** şəhəri salındı. Daha

XIII–XIV əsrlərdə Abşeronda yaradılmış memarlıq abidələri haqqında təqdimat hazırla.



Məhəmməd Olcaytunun türbəsi. Sultaniyyə



Fəzlullah Nəiminin məqbərəsi. Naxçıvan

sonra **Sultaniyyə** şəhəri salınmış, ***Olcaytu Xudabəndə türbəsi*** inşa edilmişdi.

Ədəbiyyat və musiqi. XIII əsrdən etibarən Azərbaycan türkcəsində poeziya nümunələri yaradılmağa başlandı və sonrakı yüzilliklərdə geniş miqyas aldı. İzzəddin Həsənoğlu, Qazi Bürhanəddin, İmadəddin Nəsimi Azərbaycan dilində yazdıqları əsərləri ilə böyük şöhrət qazandılar. XIII əsrdə yaşamış şair **İzzəddin Həsənoğlu** Azərbaycan dilində zəmanəmizə qədər çatmış ilk şeirin müəllifi sayılır.

XIV əsrdə ədəbiyyatımızda ***hürufilik*** cərəyanı yarandı. Fəzlullah Nəimi "Cavidanna-mə" əsərində hürufiliyin nəzəri əsasını şərh etdi. Onun layiqli davamçısı **İmadəddin Nəsimi** idi. Nəsimi Azərbaycan dilində divan yaratmışdı.

Şərq və Azərbaycan musiqisinin inkişaf etdirilib yüksək zirvəyə qaldırılması XIII əsrdə yaşamış **Səfiəddin Urməvinin** adı ilə bağlıdır. O, musiqinin səslər sistemi nəzə-



İmadəddin Nəsiminin abidəsi. Bakı. Heykəltəraşlar: Tokay Məmmədov, İbrahim Zeynalov

Orta əsr Azərbaycan xalçası

riyyəsinin əsasını qoydu, özünün yaratdığı not yazısı ilə səs düzümünü müəyyənləşdirdi. Onun başladığı işi XIV əsrin sonu – XV əsrin ilk onilliklərində **Əbdülqadir Marağayi** davam etdirdi, yeni musiqi ritmləri yaratdı.

Dünya muzeylərini bəzəyən sənət nümunələrimiz. XIII–XIV əsrlərdə Azərbaycanda tətbiqi sənət sahələri də inkişaf edirdi. Azərbaycan xalçaları dünya bazarlarında şöhrət qazanmışdı. Xalçaların üzərində həkk edilən rəsmlər onlara xüsusi gözəllik verirdi. Xalçaçılıq sənəti ilə yanaşı, bədii miniatür sənəti də tərəqqi edirdi. Şərqin ən məşhur miniatür mərkəzlərindən biri Təbriz şəhəri idi. Təbriz xəttatlarının ərsəyə gətirdikləri və miniatür rəsmlərlə bəzənmiş əlyazma kitablar bu gün də dünya muzeylərində, o cümlədən London, Paris, Berlin, İstanbul şəhərlərindəki kitabxanalarda saxlanılır.

Metalişləmə sənəti üzrə də gözəl nümunələr yaradılırdı. Əmir Teymurun sifarişi ilə usta Əbdüləziz ibn Şərafəddinin Xoca Əhməd Yəsəvi məscidi üçün 1399-cu ildə düzəltdiyi iri həcmli tiyan Qazaxıstanın Türkistan şəhərində Xoca Əhməd Yəsəvi məscidində saxlanılır. Təbrizli usta Yusif ibn Əhmədin 1319-cu ildə hazırladığı bədii naxışlı kasa isə hazırda Londonun Viktoriya və Albert muzeyində nümayiş etdirilir.

1. Təbriz ali mədrəsəsi haqqında əlavə məlumat toplayıb, bu mədrəsənin həm təhsil, həm də elm mərkəzi olduğunu əsaslandır.

2. Verilmiş mənbəyə əsasən "Əxlaqi-Nasiri" əsərindəki fikirlərin bugünkü cəmiyyətimizə uyğunluğunu əsaslandır .

3. XIII–XIV əsrlərdə tarix və coğrafiya elminin inkişafında xidməti olan alimlərimiz kimlərdir?

4. Dünya muzeylərində saxlanılan mədəniyyət nümunələrimiz haqqında təqdimat hazırla.

VAHİD AZƏRBAYCAN UĞRUNDA

20. QARA YUSİF VƏ VARİSLƏRİ

XIV əsrin 70-80-ci illərində Van gölü ətrafında güclənən Qaraqoyunlu tayfa birliyi müstəqil feodal hakimliyi yaratdı. Sonrakı dövrdə bu feodal hakimliyinin başçısı Qara Yusif Cəlairi hökmdarı ilə ittifaqa girib Teymuri ağalığına son qoydu. Qara Yusif və varisləri Azərbaycan uğrunda uzun müddət Teymuri hökmdarı ilə mübarizə aparmalı oldular.

Yadelliləri ölkədən qovan baharlılar mərkəzləşmiş dövlət yarada bildilərmi? Baharlı hökmdarlarının hansı tarixi xidmətləri olmuşdur?

Baharlılar, Qara Yusif, İsgəndər, Alaşkerd döyüşü, II Xəlilullah, Cahan şah

Qara Yusifin hakimiyyətə gəlməsi. Monqol yürüşləri zamanı qədim oğuz tayfaları olan ***qaraqoyunlular və ağqoyunlular*** Azərbaycandan Şərqi Anadoluya köç etdilər. XIV əsrin 70-ci illərində Van gölü ətrafında və Ərcişdə toplu halda yaşayan qaraqoyunlulara ***Baharlı*** nəslindən olan Bayram Xoca rəhbərlik edirdi. Onun oğlu Qara Məhəmmədin dövründə (1380-1389) mərkəzi Van şəhəri olan feodal hakimliyi yarandı.

Teymuri qüvvələri Azərbaycandan qovulduqdan sonra sultan Əhmədlə müttəfiqi Qara Yusif arasında mübarizə başladı. **1410-cu ildə** Təbriz yaxınlığında döyüşdə Baharlılar qalib gəldilər. Sultan Əhməd öldürüldü, Kürdən cənubdakı Azərbaycan torpaqları, Şərqi Anadolu, Gürcüstanın şərq hissəsi, Qərbi İran və İraq Qara Yusifin nəzarətinə keçdi. Bununla Azərbaycanda yeni sülalənin – Qara Yusifin mənsub olduğu ***Baharlı sülaləsinin*** hakimiyyəti başlandı (1410-1468).

Qara Yusif güclü atlı qoşun yaratdı, feodal ara müharibələrini bir qədər zəiflətdi. Feodal əyanları öz tərəfinə çəkmək üçün onlara çoxlu *soyurqal* – irsən keçən torpaqlar bağışladı.

Şirvanşah I İbrahim 1407-ci ildə gürcü hökmdarını döyüşdə məğlub edib, hakimiyyətini Şərqi Gürcüstana yaya bildi. Onun regionda mövqeyini möhkəmləndirməsi Qara Yusiflə açıq toqquşmaya gətirib çıxardı. **1412-ci**

AZƏRBAYCAN BAHARLI SÜLALƏSİNİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ

ildə *Kür çayı sahilində* onlar arasında qanlı döyüş oldu. Qara Yusifin qoşunu I İbrahimin və onun müttəfiqi gürcü hökmdarının hərbi qüvvələrini məğlubiyyətə uğratdı. I İbrahim, oğlanları, sərkərdələri, həmçinin gürcü çarı və çoxlu sayda gürcü əyanı əsir alındı.

Qara Yusif mənbələrdə böyük hökmdar, cəsur savaşçı və sərkərdə kimi xatırlanır. O, yarımköçmə tayfaların adətlərini və istəklərini çox gözəl bilir, onları itaətdə saxlamağı da çox yaxşı bacarırdı. Heç bir hökmdarın qoşunu onunku kimi mükəmməl silahlanıb təmin edilməmişdi. Qara Yusifin döyüşçüləri ox atmaqda və at çapmaqda hamıdan üstün idilər. O, bacarıqlı dövlət başçısı olmaqla yanaşı, xalqın dini inanclarına da çox hörmət edirdi. Türk olmağı ilə qürur duyan bu Azərbaycan hökmdarının yaratdığı dövlətin saray və idarəetmə işlərində əsas işlək dil türk dili idi. Qara Yusif hətta Quranı türkcəyə tərcümə etdirmişdi, özü də bu müqəddəs kitabı türkcə oxuyurdu. Döyüşdə nə qədər cəsur idisə, dinc əhaliyə münasibətdə bir o qədər rəhmli idi.

Qara Yusifi hansı tarixi şəxsiyyətə bənzədirsən? Cavabını əsaslandır.

Gürcü çarı və 300 əyanı dərhal edam olundu. Qalan əsirlər Təbrizə aparıldı. Təbriz sənətkarları və tacirlərinin xahişi ilə I İbrahim azad edildi. Əvəzində təbrizlilər Qara Yusifin xəzinəsinə 1200 tümən dəyərində qızıl-gümüş ödədilər. I İbrahim Qara Yusifin ali hakimiyyətini qəbul etmək şərti ilə Şirvana qayıtdı.

Səncə, nəyə görə təbrizlilər I İbrahimin azad olunmasını xahiş etdilər? Fikrini əsaslandır.

Baharlı hökmdarlarının Teymurilərlə mübarizəsi. Teymuri hökmdarı Şahrux Qara Yusifin bütün Azərbaycanı nəzarəti altına almasına qarşı çıxdı. Şahrux 1420-ci ildə böyük ordu ilə hücuma başladı. Bu xəbəri alan Qara Yusif öz ordusu ilə ona qarşı hərəkət etdi. Lakin hələ yolda olarkən xəstələnib öldü, qoşun başsız qaldığı üçün dağıldı. Şahruxun ordusu müqavimətə rast gəlmədən Qarabağa daxil oldu. Şirvanşah I Xəlilullah onunla görüşüb hərbi ittifaq bağladı.

Qara Yusif döyüşdə

Qara Yusifin oğlu İsgəndər dağınıq hərbi dəstələrini toplayıb **1421-ci ildə *Alaşkerd vadisində*** Şahruxun üstün qüvvələri ilə döyüşə girdi. Üç gün davam edən vuruşmada İsgəndərin qoşunu məğlub oldu.

XV əsrin 20-30-cu illərində Baharlı sülaləsi Azərbaycanda möhkəmlənmək uğrunda Teymurilərlə dəfələrlə vuruşmalı oldu. 1435-ci ildə Təbriz yaxınlığında baş verən döyüşdə qalib gələn Şahrux Qara Yusifin kiçik oğlu **Cahan şahı** yanına çağırıb Azərbaycanı idarə etməyi ona tapşırdı.

Baharlı–Teymuri münasibətlərinə dair şaxələnmə qur.

Cahan şah

Cahan şahın dövləti möhkəmləndirmək tədbirləri. Cahan şah yaxşı təhsil görmüş, bacarıqlı siyasətçi idi. O, çevik və tədbirli davranaraq tez-tez dəyişən qüvvələr nisbətini nəzərə alır, addımlarını şəraitə uyğun atırdı. Cahan şah 1447-ci ildə Şahruxun ölümündən sonra müstəqil siyasət yeritməyə başladı. O, oturaq əhaliyə və iri tacirlərə arxalanaraq mərkəzi hakimiyyətə tabe olmayan yarımköçmə əmirlərə qarşı mübarizə apardı. Hərbi islahat keçirdi, orduda möhkəm intizam yaratdı. Cahan şah XV əsrin 50-ci illərində Teymuri şahzadələri arasındakı çəkişmələrdən istifadə edib İranın mərkəzi və şərq əyalətlərini tutdu.

BAHARLI SÜLALƏSİNİN NÜMAYƏNDƏLƏRİ



Daha sonra Baharlı qoşunları Herata daxil oldu. Bu zaman Azərbaycanda yarımköçmə feodal əyanları qiyam qaldırdılar. Bundan xəbər tutan Cahan şah 1459-cu ildə Heratda Teymuri hökmdarı Əbu Səidlə barışıq müqaviləsi imzaladı, təzminat aldıqdan sonra Azərbaycana dönüb, qiyamı yatırdı.

Cahan şah Şirvanşahlar dövləti ilə münasibətlərdə gərginliyi aradan qaldırdı, Osmanlı dövləti ilə normal əlaqələr yaratdı. Lakin Baharlı hökmdarının hakimiyyətinin son dövründə daxili çəkişmələr, iri əyanların özbaşınalıqları gücləndi, qiyamlar baş verdi. Nəticədə XV əsrin 60-cı illərində Baharlı sülaləsinin hakimiyyəti zəiflədi, xalqın vəziyyəti isə ağırlaşdı.

1. Baharlıların Azərbaycanda mövqeyini təhlil et.

2. Baharlı–Şirvanşah münasibətlərinin kəskinləşməsi səbəbi nə idi?

3. Cahan şahın fəaliyyətini Qara Yusiflə müqayisə edib esse yaz.

4. Cahan şahın geniş əraziləri öz dövlətinə qatması nə üçün mümkün oldu?

5. Cahan şahın xarici siyasətinə dair şaxələnmə qur.

21. HƏSƏN PADŞAH VƏ VARİSLƏRİ

Həsən padşah Bayandurlu Azərbaycanda hakimiyyətə gəldikdən sonra Avropa ölkələri ilə geniş diplomatik əlaqələr yaratmağa başladı. Bu işdə ona anası, yüksək diplomatik bacarığa malik Sara xatun yaxından yardım göstərdi. Bayandurlu sülaləsinin hakimiyyəti tarixdə mürəkkəb hərbi, siyasi proseslərlə iz qoyub.

Gəlin tədqiqat aparaq. XV əsrin ikinci yarısında Azərbaycanın siyasi vəziyyəti necə idi? Baharlı dövləti niyə süqut etdi? Bayandurlu sülaləsinin Avropa ölkələri ilə geniş əlaqələr yaratmağa çalışması nə ilə əlaqədar idi?
Tarixdə siyasətlə məşğul olan hansı məşhur qadınlarımızı tanıyırsan?

Bayandurlular, Muş döyüşü, Sara xatun, Həsən padşah, Yaqub padşah, "Əbhər" sazişi

Bayandurlu sülaləsinin hakimiyyətə gəlməsi. Ağqoyunlular qədim dövrlərdən Dərbənd, Qarabağ, Naxçıvan, Göyçə gölü ətrafı, Alagöz dağları və Arazdan cənubdakı torpaqlarda yaşayan oğuz tayfalarıdır. Bu tayfalar monqol yürüşləri zamanı cənub-şərqi Anadoluda məskunlaşdılar. ***Bayandurlu*** nəslinin nümayəndəsi ***Qara Yuluq Osman bəy*** (1394–1434) XIV əsrin sonunda burada yaşayan tayfaları özünə tabe etdi, mərkəzi Diyarbəkir olan feodal hakimliyi yaratdı.

1453-cü ildə feodal hakimliyinin başçısı Həsən bəy oldu. O, tarixi mənbələrdə ucaboylu, fiziki cəhətdən güclü bir şəxsiyyət olduğu üçün Uzun Həsən adlanırdı. Bu görkəmli dövlət xadimi vahid və qüdrətli Azərbaycan dövləti yaratmaq siyasəti yeridirdi. O, gələcək planlarını həyata keçirmək üçün ilk addım olaraq Trabzon imperiyası ilə yaxınlaşdı, imperatorun qızı ilə evləndi. Bunun nəticəsində Azərbaycan tacirləri Trabzon vasitəsilə Qara dənizə əlverişli çıxış yolu əldə etdilər.

Həsən padşah

Həsən bəy güclü hərbi qüvvə toplayaraq Cahan şaha qarşı mübarizəyə başladı. O, **1467-ci ildə *Muş döyüşündə*** Baharlı qüvvələrini ağır məğlubiyyətə uğratdı. Cahan şah döyüşdə həlak oldu. Həsən bəy **1468-ci ildə** Təbrizə girdi. Baharlı sülalə-

sinin son nümayəndəsi Həsənəlini hakimiyyətdən kənarlaşdırdı, özü şah taxtına çıxdı. Beləliklə, Azərbaycanda yeni – **Bayandurlu sülaləsi hakimiyyətə** gəldi. *Kür çayından cənubdakı Azərbaycan torpaqları, Şərqi Anadolu, Şərqi Gürcüstan, indiki Ermənistan, İran və İraq* bu sülalənin hakimiyyətinə tabe idi. Təbriz isə paytaxt şəhəri statusunu saxlamışdı.

Həsən padşah hərbi yarımköçmə tayfaları və feodal əyanları mərkəzi hakimiyyətə tabe etmək üçün mübarizəyə başladı, nizami ordu yaratdı. Odlu silah istehsal etməyə təşəbbüs etdi. Lakin onun möhkəm mərkəzləşdirilmiş dövlət yaratmaq səyləri varisləri tərəfindən uğurla davam etdirilmədi.

Padşah titulu qəbul edən, həmçinin sultan adlandırılan Həsən bəy taxta çıxdıqdan az sonra Osmanlı sultanı II Mehmetə məktubunda yazırdı: "İndi bütün Azərbaycan, Əcəm İraqı, İran, Kirman, Şiraz, Ərəb İraqı bizim hökmümüz altındadır".

! ***Mənbədə adı çəkilən əraziləri xəritədə müəyyənləşdir.***

Avropa dövlətləri ilə əlaqələr. Sara xatun. Bizansın süqutundan sonra Qara dəniz boğazlarından və Kiçik Asiyadan keçən yolların Osmanlı dövlətinin nəzarətinə keçməsi Azərbaycanın Avropa ilə ticarət əlaqələrinə ağır zərbə vurdu. Buna səbəb Osmanlı sultanı II Mehmetin Şərq ölkələri ilə Qərb dünyası arasında ticarət edənlərin üzərinə çox yüksək gömrük rüsumu qoyması idi. Avropa ilə tranzit ticarəti bütünlüklə nəzarət altına almağa çalışan II Mehmet 1461-ci ildə Trabzon imperiyası üzərinə yürüşə başladı. Bu hadisə Osmanlı–Bayandurlu münasibətlərinin gərginləşməsinə səbəb oldu.

! ***Avropa–Osmanlı münasibətlərində Bayandurlu dövlətinin mövqeyini şərh et.***

Qara dənizdə hegemonluq* etmək istəyən Osmanlı sultanı ilə müharibə etməkdənsə, sülh yolunu əsas tutan Həsən bəy anasını – müdrik və uzaqgörən qadın olan **Sara xatunu** danışıqlar üçün II Mehmetin düşərgəsinə yola saldı. O zaman Sara xatun bütün Şərqdə və Avropa ölkələrində tanınan yeganə diplomat qadın idi. Diplomatik danışıqlar zamanı II Mehmet Sara xatuna "ana" deyə müraciət edir, hörmətlə davranırdı. Bayandurluların hələ güclü olmadığını düşünən Həsən bəy anasının qarşısına iki vəzifə qoy-

**Hegemonluq* – üstünlük, ağalıq

Sultan II Mehmetlə Sara xatunun tarixi görüşü

du: birincisi, II Mehmeti Bayandurlularla müharibə etmək fikrindən daşındırsın və ikincisi, Osmanlı qoşununun Trabzonu fəth etməsinə imkan verməsin. Sara xatun birinci vəzifəni uğurla yerinə yetirdi. Lakin sultan II Mehmeti Trabzona hücum etmək fikrindən döndərə bilmədi. 1461-ci ildə Trabzon osmanlılar tərəfindən tutuldu. Belə olduqda, Sara xatun gəlininin varislik hüququnu irəli sürdü və Trabzon xəzinəsinin bir hissəsini əldə etdi.

Həsən padşahın XV əsrin 60-cı illərinin sonunda böyük imperatorluq yaratması onun Avropada nüfuzunu artırdı. Osmanlı dövlətinə qarşı onunla hərbi ittifaq bağlamaq üçün Venesiya və digər ölkələrdən Təbrizə elçilər gəlməyə başladılar. Həsən padşah da öz elçilərini Venesiya, Vatikan, Neapol, Macarıstan və Kipr dövlətlərinə göndərərək, Osmanlı dövlətinə qarşı birlikdə çıxış etmək haqqında razılaşma əldə etdi. Venesiya ilə ***hərbi ittifaq*** bağladı. Onun Avropa ölkələri ilə diplomatik danışıqlarında anası Sara xatun fəal iştirak edirdi. Bayandurlu hökmdarı tezliklə Aralıq dənizi sahilinə çıxış əldə edib, Avropa ölkələri ilə birbaşa ticarət əlaqələrinin bərpasına çalışırdı. O, Trabzon torpaqlarını da geri almağı qarşısına məqsəd qoymuşdu.

Osmanlı dövləti ilə müharibələr. **1472-ci ildə** Həsən padşah böyük ordu ilə Aralıq dənizi sahillərinə irəlilədi. Lakin Venesiya vəd etdiyi hərbi donanmanı, odlu silahı və artilleriya mütəxəssislərini göndərmədi. Əksinə, Osmanlı dövləti ilə gizli danışıqlara başladı. II Mehmet də bundan istifadə edib rəqiblərini bir-birindən ayırdı, ***Beyşehir döyüşündə*** Bayandurlu qoşunlarını məğlub etdi.

AZƏRBAYCAN BAYANDURLU SÜLALƏSİNİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ

Həsən padşahın həyata keçirdiyi tədbirləri və təşəbbüslərini dövr baxımından qiymətləndir.

1473-cü ilin yayında sultan II Mehmet 100 minlik qoşunla Azərbaycan üzərinə böyük yürüşə başladı. Həsən padşah bütün qüvvələrini səfərbər etdi. Osmanlı qoşunlarını sərhəddən uzaqda qarşılamaq üçün hərəkətə keçdi. **Avqustun 1-də** Fərat çayı sahilində, ***Malatya yaxınlığında ağır döyüş*** oldu. Həsən padşah Osmanlı qüvvələrini pusquya salaraq məğlub etdi. Lakin Bayandurlu hökmdarı hücumu davam etdirmədiyinə görə II Mehmet öz qüvvələrini nizama salmağa imkan tapdı.

1473-cü il avqustun 11-də *Otluqbeli adlı yerdə baş verən döyüşdə* Osmanlı tərəfi odlu silahdan geniş istifadə etməklə qalib gəldi. Lakin II Mehmet bu qələbəni böyük itkilər hesabına qazandığı üçün yürüşü davam etdirmədi. Beləliklə,

XV əsrin 70-ci illərində baş verən müharibələrdə tərəflərin heç biri öz istəyinə çatmadı. Hər iki tərəf böyük itkilər verdi. Bu döyüşlərdən sonra Həsən padşahın mövqeyi zəifləndi. İri feodalların mərkəzi hakimiyyətə qarşı mübarizəsi gücləndi.

1475-ci ildə Moskvanın böyük knyazı III İvan öz elçisini Bayandurlu sarayına göndərdi. Elçi ticarət əlaqələrini genişləndirməyi və Qızıl Orduya qarşı birgə mübarizə aparmağı təklif etdi. Lakin daha öncə Qızıl Ordu xanı qiymətli hədiyyələrlə Təbrizə elçi göndərmiş və cənub sərhədlərinin pozulmaması haqqında Bayandurlu hökmdarından təminat almışdı.

Həsən padşahın varislərinin siyasəti. Həsən padşahın vəfatından sonra taxta oğlu **Yaqub padşah** (1478–1490) çıxdı. O, atasının Şirvanla dostluq siyasətini davam etdirdi və şirvanşahın qızı ilə evləndi. Lakin Ərdəbil hakimlərinə münasibətdə müsbət meyli qoruyub saxlamadı.

Yaqub padşahın hakimiyyəti dövründə ölkə daxilində nisbi sabitlik hökm sürsə də, onun ölümündən sonra daxili çəkişmələr gücləndi. Öncə taxta oğlu **Baysunqur** (1490–1492) çıxdı.

1492-ci ildə Həsən padşahın digər nəvəsi **Rüstəm** Bərdə döyüşündə Baysunquru məğlub etdi və Təbrizə gəlib padşahlıq etməyə başladı.

Rüstəm padşah çoxlu soyurqal paylamaqla hərbi-köçmə əyanların rəğbətini qazanmağa çalışırdı. Az sonra soyurqal alan əyanlar mərkəzi hakimiyyətə tabe olmaqdan boyun qaçırmağa başladılar.

1496-cı ildə Həsən padşahın başqa bir nəvəsi **Əhməd** ***Naxçıvan döyüşündə*** Rüstəmi məğlub etdi, Təbrizə daxil olub taxta çıxdı. O, hərbi əyanların müqavimətini qırmağa, ara müharibəsinə son qoyub Bayandurlu dövlətini möhkəmləndirməyə cəhd göstərdi. İqtisadi vəziyyəti qaydaya salmaq üçün bir sıra **islahatlar keçirdi**, ***20-yə qədər vergini ləğv etdi.*** Bu addımlar hərbi-köçmə əyanların ciddi narazılığına səbəb oldu, qiyamlar baş verdi. **1497-ci ilin** sonunda qiyamçılarla döyüşdə Əhməd öldürüldü. Bayandurlu taxtına Həsən padşahın digər nəvəsi **Murad** çıxarıldı. Lakin əmisi oğlu **Əlvəndin** də hakimiyyət uğrunda mübarizəyə başlaması dövlətin bölünməsinə səbəb oldu. **1500-cü ildə** ***Əbhər*** adlı yerdə onların arasında **sülh** sazişi bağlandı: Qızılüzən çayından qərbə tərəf – Azərbaycan, Şərqi Anadolu **Əlvəndə**, İran, Kirman, İraq **Murada** çatdı.

1. Bayandurlu dövləti haqqında əlavə material topla və mətndəki məlumatlarla qarşılaşdırıb dövrün xüsusiyyətlərini dəyərləndir.

2. Bayandurlu dövlətinin sosial-iqtisadi inkişafına dair esse yaz.

3. XV əsrin 70-ci illərində Bayandurlu–Osmanlı müharibələrində niyə tərəflərdən heç biri qalib gələ bilmədi? Bu müharibələri Azərbaycanın qələbəsi hesab etmək olarmı?

4. Bayandurlu dövlətinin zəifləməsi səbəblərinə aid şaxələnmə qur.

22. ƏRDƏBİL HAKİMLİYİ

Səfəvi şeyxlərinin şiəliyi təbliğ etmələri, cəmiyyətdə üzləşdikləri ədalətsizliklərə qarşı cəsarətlə çıxmaları sadə insanların onlara rəğbətini artırdı. Azərbaycanda və qonşu ölkələrdə hökmranlıq edən sünni hökmdarların vergi və mükəlləfiyyətləri ciddi cəhdlə tələb etmələri, feodal ara müharibələri Səfəvi təriqəti tərəfdarlarının sayının sürətlə çoxalmasına imkan verdi. Çoxsaylı tərəfdar kütləsi Şeyx Səfiəddinin varislərinin hakimiyyət uğrunda mübarizəyə başlamalarına səbəb oldu.

Səncə, Ərdəbil şeyxlərinin təbliğatı niyə sürətlə yayılırdı? Onlar təriqətçilikdən necə istifadə etdilər? Bayandurlu dövlətini süquta aparan yolda Səfəvilərin rolu nədən ibarət oldu? Fikrini bildir.

Ərdəbil hakimliyi, Şeyx Səfiəddin, şiəlik, müridlər, Şeyx Cüneyd, Şeyx Heydər, qızılbaşlar

Şeyx Səfiəddin və varisləri. Səfəviyyə sufi dərviş təriqətinin əsası XIII əsrin sonunda **Şeyx Səfiəddin** tərəfindən (1254–1334) qoyulmuşdur. Mənbələrdə "türk piri", yəni "müqəddəs türk" adlandırılan Şeyx Səfiəddin Ərdəbil şəhərində moizələr oxumağa başladı. Tədricən bütün Ərdəbil əhalisi Şeyxin müridləri* hesab olunurdu.

Şeyx Səfiəddinin varisləri XIV–XV əsrlərdə Səfəvi təriqətini daha geniş əraziyə yaymağa nail oldular. Səfəvi şeyxlərinin Azərbaycanla yanaşı, Kiçik Asiyada, İraqda və Suriyada da ardıcılları çoxaldı. Bu dövrdə Səfəvi şeyxləri həm də Ərdəbil hakimi kimi mövqelərini möhkəmləndirdilər. Səfəvilərin Ərdəbil hakimliyi mərkəzləşmiş Azərbaycan dövlətinin rüşeymi oldu.



Şeyx Səfiəddinin abidəsi. Ərdəbil

**Mürid* – ərəbcə davamçı, Sufi şeyxinin şagirdi

Şeyx Səfi məqbərəsi. Ərdəbil

XV əsrin ortalarında Ərdəbil vilayətinin dini və dünyəvi hökmdarı **Şeyx Cüneyd** öz siyasi təsirini daha geniş ərazilərə yaymağa çalışırdı. Bunun üçün Səfəvi şeyxi öz təriqətini fəal surətdə təbliğata başladı. O, ***şamlı, rumlu, ustaclı, təkəli, əfşar, qacar, zülqədər*** adlı yarımköçmə Azərbaycan türk tayfalarını öz tərəflərinə çəkməklə hərbi qüvvəsini dəfələrlə artırmağa nail oldu.

Adı çəkilən tayfalar haqqında məlumat topla.

Səfəvi təriqətinin nüfuzunun güclənməsindən narahat olan Cahan şahın əmri ilə Şeyx Cüneyd 1449-cu ildə Ərdəbili tərk etdi. Bu zaman Səfəvilərlə Bayandurluların yaxınlaşması baş verdi. Şeyx Cüneyd Bayandurluların başçısı Həsən bəyin bacısı Xədicə bəyimlə evlənməklə bu ittifaqı möhkəmləndirdi.

Bayandurlu–Şirvanşah–Səfəvi münasibətlərini ifadə edən sxem qur.

Şeyx Cüneyd məqbərəsi. Qusar

Şeyx Cüneydin **1460-cı ildə** Şirvandan keçib Dağıstana yeni yürüşə başlaması Şirvanşah I Xəlilullahı və Cahan şahı qəzəbləndirdi. Onların birləşmiş qüvvələri həmin il ***Samur çayı sahilində baş verən döyüşdə*** Səfəvi müridlərini məğlub etdilər. Şeyx Cüneyd döyüşdə həlak oldu.

Şeyx Heydərin fəaliyyəti. Şeyx Cüneydin oğlu Şeyx Heydər Səfəvi təriqətinin başçısı kimi fəaliyyətini daha da genişləndirdi, dayısı Həsən padşahla ittifaqı möhkəmləndirdi. Dayısı qızı Aləmşah bəyimlə evləndi. Həsən padşah 1470-ci ildə Ərdəbil hakimliyini Şeyx Heydərə qaytardı.

Şeyx Heydərin dövründə Səfəvi döyüşçüləri başlarına on iki qırmızı zolaqlı çalma qoymağa başladılar. Ona görə də sonrakı dövrdə Səfəvi tərəfdarları həm də ***"qızılbaş"*** adlanırdılar.

İsgəndər bəy Münşi Türkman "Dünyanı bəzəyən Abbasın tarixi" kitabında yazır ki, bir gecə yuxuda sultan Heydərə qeyb aləmindən xəbər gəldi. Onun öhdəsinə qoydular ki, o gərək on iki imam əlaməti olan qırmızı zolaqlı bir papaqla öz tərəfdarlarının başını bəzəsin. Sultan Heydər bu yuxunu gördükdən sonra o vaxtlarda dəbdə olan türkman papağını on iki zolaqlı "Heydər papağı" ilə əvəz etdi. Onun arxasınca gedən adamlar və bu xanədanın bütün üzvləri həmin papağı başlarına qoymaqla başqa adamlardan seçildilər. Elə buna görə də o şan-şöhrətli adamlar "qızılbaş" ifadəsi ilə məşhur oldular.

İsgəndər bəy Münşi Türkman *"Dünyanı bəzəyən Abbasın tarixi". Bakı, 2010*

Şeyx Heydər məqbərəsi. Xızı rayonu

Şeyx Heydərin 1483-cü və 1487-ci illərdə Şimali Qafqaza yürüş etməsi, sonra isə Dərbənddən şimalda qələbələr qazanması onun nüfuzunun artmasına səbəb oldu.

Həsən padşahın ölümündən sonra taxta çıxan Yaqub padşah Səfəvi hakimliyinin təsirinin güclənməsini qısqanclıqla qarşılayırdı. Şirvanşah Fərrux Yasar da Şeyx Heydərin mövqeyini möhkəmləndirməsini özü üçün ciddi təhlükə hesab edirdi. Ona görə də **1488-ci ildə** Şeyx Heydərin Dağıstana üçüncü yürüşü zamanı birləşmiş Bayandurlu – Şirvan qüvvələri onun qarşısını kəsdilər. ***Şahdağın ətəyində baş verən döyüşdə*** qızılbaşlar məğlub oldular. Şeyx Heydər isə aldığı ox yarasından öldü.

Yaqub padşah Ərdəbilə qoşun yeridib Səfəvi müridlərinə divan tutdu. Şeyx Heydərin kiçikyaşlı üç oğlunu və Aləmşah bəyimi zindana saldırdı. Yalnız dörd ildən sonra yeni taxta çıxmış Rüstəm padşah onları həbsdən qurtardı və Səfəvi qüvvələrinin köməyi ilə rəqibi Baysunquru məğlub etdi. Lakin bundan sonra onun Səfəvilərə münasibəti dəyişdi. **1494-cü ildə *Şəməsi adlı yerdə baş verən*** döyüşdə keçmiş müttəfiqini məğlub etdi. Sonra isə bütün Səfəvi tərəfdarlarını məhv etməyə başladı. Lakin Şeyx Heydərin kiçik oğlu İsmayılı atasının dostları gizlədə bildilər.

1. Səfəvi şeyxlərinin öz təriqətlərini yaymaq uğrunda mübarizəsi haqqında sinif yoldaşlarınla müzakirə apar.

2. Şeyx Cüneyd və Şeyx Heydərin fəaliyyətini Venn diaqramında müqayisə et.

3. Bayandurlu hökmdarları ilə Səfəvi şeyxləri arasında dəyişkən münasibətlərin səbəblərini izah et.

4. Müasir dövrdə dinin dövlətdən ayrı olmasını şərtləndirən amilləri sadala.

23. XV ƏSRDƏ İCTİMAİ-SİYASİ VƏ İQTİSADİ VƏZİYYƏT

XV əsrdə Azərbaycanda hakimiyyətdə olan sülalələr Şərqin çox güclü feodal dövlətlərini yaratdılar. Azərbaycanın və Orta Şərqin böyük bir hissəsində öncə Baharlı, daha sonra Bayandurlu sülaləsi hökmdarlıq etdilər. Bu sülalələrin hakimiyyəti dövründə Azərbaycan torpaqları paytaxt Təbrizdən idarə olunurdu.

XV əsrdə hakimiyyətdə olmuş sülalələr dövləti necə idarə edirdilər? Torpaq sahibliyi, vergi və mükəlləfiyyətlərdə hansı dəyişikliklər baş verdi?

"Həsən padşahın qanunları", soyurqal, malcəhət, çobanbəyi, bəhrə

Dövlət idarəçiliyi. Baharlı və Bayandurlu sülalələrinin hökmdarları "padşah" adlanırdılar. Həsən padşah isə Osmanlı dövlətində olduğu kimi "sultan" titulu da qəbul etmişdi. Şirvanda dövlətin başçısı "şah" titulu daşıyırdı.

Padşah (şah) qeyri-məhdud hakimiyyətə malik idi. Onun bütün tapşırıqları dərhal yerinə yetirilirdi. Dövlət idarəçiliyində padşahdan sonra ikinci şəxs ordunun baş komandanı idi. O, *əmir-əl-üməra* (əmirlər əmiri) titulu daşıyırdı. Sonrakı yeri ruhanilərin başçısı – *sədr-əzəm* (mövlana) tuturdu. Dördüncü pillədə *baş vəzir* dururdu. O, daxili inzibati və xarici işlərə, dövlət gəliri və maliyyə işlərinə baxırdı. Həm də şahın möhürdarı, **sahibi-divan** idi.

Dövlətin daxili həyatında oturaq feodallar, ali müsəlman ruhaniləri, yarımköçmə hərbi əyanlar mühüm rol oynayırdılar.

Həyatının çox hissəsini hərbi yürüşlərdə, müharibələrdə keçirən hökmdarlar döyüş zamanı zirehli geyim geyinir, başlarına dəbilqə qoyurdular. Qoşun, əsasən, kaman və ox, nizə və qılıncla silahlanırdı. Həsən padşah ordunu odlu silahla təchiz etməyə təşəbbüs göstərsə də, bu işdə ciddi uğur qazana bilmədi.

Baharlı döyüşçüsünə məxsus dəbilqə. Azərbaycan Milli İncəsənət Muzeyi

Bayandurlu ağır silahlı atlı döyüşçüsü. Metropoliten muzeyi. Nyu-York

Ordunun əsasını yarımköçmə tayfalardan yaradılmış atlı qoşun dəstələri təşkil edirdi. Qoşun dəstələrinin başçısı ***əmir*** adlanırdı.

Torpaq sahibliyi və vergilər. Hərbi işlə məşğul olan yarımköçmə əyanlara qoşunda xidmət əvəzində ***soyurqal*** adlı irsi torpaqlar paylanırdı. Soyurqal sahibi vergi toxunulmazlığı hüququna malik idi. Bu dövrdə divan, xass (hakim sülaləyə məxsus), mülk, vəqf, camaat torpaqları da qalmaqda idi.

Azərbaycan dövlətlərinin iqtisadi qüdrətinin əsas mənbəyi əhalidən toplanan vergilər idi. XV əsrdə əhalidən müxtəlif vergilər toplanırdı. Əsas vergi istehsal edilən məhsula görə alınan *malcəhət* idi. Kəndlilər suvarma suyundan istifadəyə görə *bəhrə*, maldarlar otlaqdan istifadəyə görə *çobanbəyi* vergisi ödəyirdilər. Sənətkar və tacirlərdən ***tamğa*** vergisi alınırdı. Xristian əhalidən ***can vergisi – cizyə*** toplanırdı.

Həsən padşah güclü mərkəzi hakimiyyət yaratmağa, qayda-qanunu möhkəmləndirməyə çalışırdı. O, dövləti iqtisadi və siyasi cəhətdən gücləndirmək, vergi toplanmasını nizama salmaq üçün ***"Həsən padşahın qanunları"*** adı ilə məşhurlaşan, hətta XVI əsrdə də qüvvədə qalan "Qanunnamə" hazırlatdı. Müasirləri tərəfindən yüksək qiymətləndirilən bu "Qanunnamə"yə görə vergilərin miqdarı qismən azaldıldı, əsas vergi ***malcəhət*** – *məhsulun beşdə biri qədər* müəyyən edildi.



Sxemdə göstərilən vergiləri səlcuqlar dövründəki vergilərlə müqayisə et, fərqli və oxşar cəhətləri dəftərinə yaz.

İqtisadi dirçəliş. XV əsrin 30–80-ci illərində ölkəmizdə vəziyyətin qismən sabitləşməsi iqtisadi tənəzzülün dayanmasına, şəhər həyatının canlanmasına səbəb oldu. Təbrizin sənətkarlıq-ticarət mərkəzi kimi rolu daha da artdı. XV əsrin ikinci yarısında Bakı Xəzərdə başlıca limana çevrildi. O dövrdə Şamaxıda olmuş italyan səyyahı A.Kontarini bu şəhəri həyat üçün əlverişli olması və məhsul çoxluğu baxımından Təbrizdən üstün hesab etmişdi. Bu dövrdə Gəncə və Ərdəbil şəhərləri də mühüm sənətkarlıq və ticarət mərkəzləri idi.

Azərbaycan dövlətlərinin iqtisadi qüdrətinin mühüm bir mənbəyi də xarici ölkələrlə, xüsusən Avropa ölkələri ilə ticarətdən qazanılan gəlir idi. Qərb ölkələri ilə ticarətdə Azərbaycan ipəyi əsas rol oynayırdı. Azərbaycan ipəyinin əsas alıcıları olan İtaliya tacirləri Qara dənizdən Azov-Don-Volqa-Xəzər su yolu ilə Azərbaycanın ticarət mərkəzlərinə gəlirdilər. Azərbaycan xam ipəyi Bursa və İstanbulun toxuculuq müəssisələrinin xammalla təmin edilməsində də mühüm rol oynayırdı.

Xristian əhalinin vəziyyəti. Azərbaycan hökmdarları müsəlman təbəələrlə bərabər, xristian əhalinin də qayğısına qalır, onlarla şəriət qaydalarına uyğun, ədalətli davranırdılar. Xristian kilsəsi və xristian din xadimləri bir sıra imtiyazlara malik idilər. Gürcü və erməni ruhani təbəqəsi vergilərdən azad idi. Kilsə və monastırlara məxsus torpaqlara və digər əmlaka vergi toxunulmazlığı hüququ verilmişdi.

Belə əlverişli şəraitə görə erməni qriqorian kilsəsinin başçısı katolikosluğun mərkəzini Kilikiyanın Sis şəhərindən İrəvan bölgəsinə – Eçmiədzinə (Üçmüəzzin – Üçkilsə) köçürməyə icazə istədi. 1441-ci ildə Baharlı hökmdarı Cahan şah buna razılıq verdi. Bu məqsəd üçün Eçmiədzin yepiskopu azərbaycanlı feodallara – əmir Rüstəmə və əmir Səədin oğlu Pir Hüseynə məxsus torpaqları satın aldı və erməni kilsəsinə bağışladı. Bu hadisə İrəvan bölgəsində erməni təsirinin güclənməsinə səbəb oldu.

Sonrakı dövrdə ermənilər Qərbi Azərbaycanda – İrəvan və Göyçə bölgəsində alban-xristian abidələrinin kitabələrini və digər simvollarını saxtalaşdırıb erməni abidəsi kimi təqdim etməyə başladılar.

Eçmiədzin (Üçmüəzzin) yaxınlığında qədim Göy Mələkləri məbədinin qalıqları (Alban abidəsi)



Xristian-qıpçaq türklərinin məbədi. Eçmiədzin (Üçmüəzzin) bölgəsi. XIII əsr

1. XV əsrin dövlət idarəçiliyinə aid sxem qur.
2. Niyə yarımköçmə tayfalar qoşunun əsasını təşkil edirdi? Fikrini əsaslandır.
3. XV əsrin vergilərini müasir dövrün vergiləri ilə müqayisə et.
4. Həsən padşahın odlu silah əldə etmək təşəbbüsünü dəyərləndir. Niyə bu cəhd uğursuz oldu?
5. Xristian katolikosluğunun Üçkilsəyə köçürülməsinin nəticələrini şərh et.

24. MƏRKƏZLƏŞDİRİLMİŞ VAHİD AZƏRBAYCAN DÖVLƏTİ

XV əsrin sonunda Bayandurlu sülaləsinin üzvləri arasında hakimiyyət uğrunda mübarizə, həmçinin feodal çəkişmələrinin çoxalması sadə xalq kütlələrinin narazılığını artırmaqla bərabər, Səfəvi təriqətinə rəğbəti də gücləndirdi. Azərbaycanda Səfəvi sülaləsi hakimiyyətə gəldi. Səfəvi dövlətinin əsasını qoyan görkəmli sərkərdə və dövlət xadimi şah I İsmayıl (1501–1524) Ərdəbilin nüfuzlu din xadimi Şeyx Səfiəddinin nəslindən idi.

Bayandurlu sülaləsinin daxildən zəifləməsi hansı nəticələrə gətirib çıxardı? XV əsrin sonlarında Azərbaycanın qarışıq siyasi vəziyyəti kimlərin güclənməsinə imkan yaratdı?

Səfəvi dövləti, Səfəvi qoşunu, idarəçilik sistemi, şah I İsmayıl, Alma bulağı döyüşü, Mərv döyüşü

Ərdəbil şeyxi Azərbaycan şahı oldu. **1499-cu ildə** gənc İsmayıl gizli saxlandığı Lahicanı tərk edib Ərdəbilə, oradan da Astaraya hərəkət etdi. Bu zaman bölgədəki qızılbaş tərəfdarları ona qoşuldu. Bir il sonra İsmayıl Şərqi Anadoluda yaşayan qızılbaş tayfalarından hərbi qüvvə toplamaq üçün Ərzincana hərəkət etdi. Tezliklə gənc Səfəvi şeyxinin döyüşçülərinin sayı 7 minə çatdı. O, bu qoşunla Şirvana yürüş etdi.

Səncə, Azərbaycan taxtı uğrunda mübarizəyə gənc İsmayıl niyə Şirvanşahlar üzərinə yürüşlə başladı? Fikrini əsaslandır.

1500-cü ilin payızında *Gülüstan qalası* yaxınlığındakı ***Cabanı*** adlı yerdə baş verən döyüş zamanı Şirvan şahı Fərrux Yasarın qoşunu məğlubiyyətə uğradıldı. Şirvan şahı özü də döyüşdə həlak oldu. Səfəvi qoşunu bu döyüşdən sonra Şamaxını, 1501-ci ilin yazında isə Bakını tutdu. Şirvanşahların burada saxlanılan xəzinəsini ələ keçirdi. Bu qələbədən sonra Səfəvi qoşunları Gülüstan qalasını mühasirəyə aldılar. Lakin Bayandurlu hökmdarı Əlvəndin Təbrizdən qoşunla şimala doğru yürüşə başlaması xəbəri gənc İsmayılın mühasirəni dayandırmasına səbəb oldu.

Sayca az olan Səfəvi qoşunlarının Şirvan şahının üstün qüvvələrinə qalib gəlməsinin səbəbi nə ola bilərdi? Fikrini əsaslandır.

İsgəndər bəy Münşinin yazdığına görə, bu zaman cəmi 14 yaşı olan gənc İsmayıl qızılbaş əmirlərindən soruşmuşdu: "Sizə Gülüstan qalası lazımdır, yoxsa Azərbaycan taxtı?" Müqəddəs Səfəvi xanədanının etiqad sahibləri belə cavab vermişdilər: "Azərbaycan taxtı". Bu bilgilər sübut edir ki, çox gənc olmasına baxmayaraq, İsmayıl hansı taxt-taca sahib olacağını və hansı dövlətdə iqtidara gələcəyini aydın dərk edirdi.

İsgəndər bəy Münşi. *"Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi)". Bakı, 2010.*

İsmayılın Təbrizə daxil olması. Rəssam Çingiz Mehbalıyev



Şah I İsmayıl

1501-ci ilin yayında İsmayılın qoşunu Əlvənd padşahın ordusunu ***Şərurda*** məğlub edib Azərbaycanın cənubuna doğru irəlilədi. **1501-ci ilin payızında** Təbrizə daxil olub özünü şah elan etdi. Azərbaycanda Səfəvi sülaləsinin hakimiyyəti (1501–1736) başlandı.

Şah I İsmayılın növbəti addımı Bayandurlu sülaləsinin İranda hökmranlıq edən nümayəndəsi Murad padşahı sıradan çıxarmaq oldu. **1503-cü ilin yayında** Həmədan yaxınlığındakı ***Alma bulağı adlı yerdə*** baş verən döyüş zamanı I İsmayıl 12 minlik qoşunla rəqibinin 70 minlik ordu-

sunu məğlub etdi. Bununla Bayandurlu sülaləsinin hakimiyyətinə qəti son qoyuldu.

Doqquz yuz səkkizinci ildə (1503-cü il – red.) ... Həmədanın Alma bulağı adlı yerində onların (şah I İsmayılla Bayandurlu Murad – red.) arasında böyük hərb oldu... O, (şah I İsmayıl – red.) müqayisəsiz ləşkərə qalib gəldi... Bu döyüşdə müzəffər əsgərlərin əlinə bol qənimət çatdı.

İsgəndər bəy Münşi. *"Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi)". Bakı, 2010.*

Bayandurlu Murad

Həmin il İranın mərkəzi və şərq əyalətləri, daha sonra Şərqi Anadolu, Ərəb İraqı Səfəvi dövlətinə qatıldı. Bu zaman Qafqazın mərkəzi və cənub-qərb bölgələri də Səfəvi sülaləsinin tabeliyinə keçdi. 1510-cu ildə isə

AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİ (ŞAH İSMAYIL DÖVRÜ, 1501-1524-cü illər)



Mərv döyüşü. Miniatür rəsm

Dərbənd tutuldu və Dağıstanın feodal hakimləri də şah I İsmayılın hakimiyyətini qəbul etməli oldular.

Şah I İsmayılın hakimiyyəti dövründə Azərbaycan torpaqlarının əksər hissəsi vahid dövlətdə birləşdirildi. *Şirvanşahlar dövləti və Şəki hakimliyi də* mərkəzi hakimiyyətə tabe edildi, yerli sülalələrin əlində yalnız daxili idarəçilik saxlandı.

Şirvan hökmdarı Şeyxşah öz adamlarını hədiyyələrlə şah İsamayılın sarayına göndərmiş, özünün sadiq olduğuna onu inandırmış və ... İsmayılın Şirvanın idarə edilməsini ona bağışlamasına nail olmuşdur.

Oqtay Əfəndiyev. *Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993*

1510-cu ildə şah I İsmayıl Xorasana yürüş etdi və ***Mərv döyüşündə*** qalib gəldi. Özbək hökmdarı Şeybani xan öldürüldü. Xorasan ələ keçirildi. Beləliklə, Amudəryadan Fərat çayına qədər geniş ərazi Səfəvi imperatorluğuna daxil edildi.

Səfəvi şahlarının daxili siyasəti. Səfəvi sülaləsinin hakimiyyətə gəlməsindən sonra güclü mərkəzləşdirilmiş dövlət yaradılmasına başlandı. Torpaq sahibliyinin, vergi sisteminin sahmana salınması istiqamətində addımlar atıldı. Təsərrüfat həyatının bərpası, sənətkarlığın və

ticarətin dirçəldilməsi üçün tədbirlər görüldü. İlk növbədə, Baharlı və Bayandurlu hökmdarlarının geniş tətbiq etdiyi soyurqal – irsi torpaqlar bağışlanması ləğv edildi. Buna səbəb soyurqal paylanmasının mərkəzi hakimiyyəti zəiflətməsi, dövlətin nəzarətində olan yararlı torpaq fondunun və xəzinə gəlirlərinin azalmasına gətirib çıxarması idi.

Səfəvi dövlətinin bayrağı

İlk Səfəvi şahları dövründə dövlətə xidmət əvəzində ayrı-ayrı şəxslərə *tiyul* – şərti torpaqlar verilməsinə başlandı. Bu torpaqlar yalnız şahın fərmanı ilə irsi keçə bilərdi.

! ***Mərkəzi hakimiyyəti möhkəmləndirmək üçün torpaq sahibliyi qaydalarında edilən dəyişikliyi qiymətləndir.***

Səfəvi dövlətində bütün mühüm vəzifələrə Azərbaycan ***türk tayfalarının başçıları*** qoyuldu. *Ordu komandanlığı, vilayətlərin idarə olunması, saray işləri* də onların əlində idi. Ordu yarımköçmə Azərbaycan türk tayfalarından təşkil olundu. Şah sarayında, orduda və qismən diplomatik yazışmada Azərbaycan-türk dili işlədilirdi. Şah I İsmayılın dövlət işinə irəli çəkdiyi qızılbaş əmirləri bacarıqlı sərkərdələr, tədbirli dövlət məmurları idilər. Bununla belə, şah onları daim nəzarətdə saxlayır, mərkəzdən uzaqlaşma meyillərinin qarşısını çox sərt şəkildə alırdı. Şah I İsmayılın tərbiyəçisi – lələsi olan Hüseyn bəy Şamlı məhz bu səbəbdən *əmir əl-üməra* – qoşun başçısı vəzifəsindən kənarlaşdırıldı, ona tiyul kimi verilmiş vilayət əlindən alındı.

Səfəvi şahı qeyri-məhdud hakimiyyətə malik idi. Şahın yanında ***məşvərətçi orqan*** – Azərbaycanın nüfuzlu tayfa əmirlərindən ibarət ***Ali məclis*** fəaliyyət göstərirdi. İlk Səfəvi şahları dövründə şahdan sonra ikinci şəxs ***vəkil*** idi. O, şahın müavini sayılırdı. Dövlətin hərbi qüvvələrinin əsasını Azərbaycanın yarımköçmə – elat tayfalarından toplanmış ***çərik*** adlı atlı dəstələr təşkil edirdi. Çərik başçısı ***qorçubaşı*** adlanırdı.

Səfəvi dövlətində mülki işlərə və maliyyə məsələlərinə ***vəzir*** baxırdı. Dini idarələrə isə ***sədr*** başçılıq edirdi.

Qeyri-məhdud hakimiyyətin olduğu bir dövlətdə Ali məclisin səlahiyyətləri nədən ibarət idi? Fikrini əsaslandır.

Səfəvi şahları öz hakimiyyətlərinin sosial dayağını möhkəmləndirmək üçün oturaq əhaliyə, həmçinin şəhərlərin sənətkarlarına və tacirlərinə güzəştlər edir, onların nümayəndələrinə də mühüm vəzifələr verirdilər.

Səfəvi sülaləsinin hakimiyyətinin ilk dövründə əhalinin həyat şəraitini yüngülləşdirmək, dövlətin iqtisadi əsaslarını möhkəmləndirmək üçün bəzi vergilər azaldıldı, bəziləri isə tamam ləğv edildi. Əsas vergi olan *malcəhətin* miqdarı əvvəlki dövrlə müqayisədə azaldıldı, *məhsulun altıda bir hissəsi* həcmində alınmağa başlandı.

Şah I İsmayılın mühüm tədbirlərindən biri islam dininin ***şiəlik məzhəbini*** dövlət dini elan etməsi oldu. O və varisləri həm ali dünyəvi, həm də ali dini hakimiyyətin başçısı idilər. Səfəvilərin soy kökünün Məhəmməd peyğəmbərlə bağlanması onların qonşu sünni hökmdarlardan üstünlüyünü nümayiş etdirmək məqsədi güdürdü. Bu dini-ideoloji zəmin əsasında sünniliyin hökmran olduğu Osmanlı və Şeybani hökmdarlarına qarşı qəti mübarizə başlandı.

1. Səfəvi şeyxi İsmayılın Lahicandan Təbrizə qədər mübarizəsinə dair qrafik qur.

2. Səfəvilər dövlətinin yaranmasının tarixi əhəmiyyəti nədən ibarətdir?

3. Səfəvilər dövlətinin imperatorluğa çevrilməsini təhlil et.

4. Səfəvi imperatorluğu indiki hansı dövlətlərin ərazisini əhatə edirdi?

5. Səfəvi dövlətinin idarəçilik sisteminə dair təqdimat hazırla.

25. SƏFƏVİ–OSMANLI MÜHARİBƏLƏRİNİN BAŞLANMASI

XVI əsrin əvvəllərində Səfəvi dövlətinin yaranması və Azərbaycanda, Qafqazda, Şərqi Anadoluda öz mövqelərini möhkəmləndirməsi Osmanlı dövlətinin ciddi narahatlığına səbəb oldu. Azərbaycan və bütövlükdə Qafqaz uğrunda Səfəvi–Osmanlı rəqabəti fasilələrlə yüz ildən çox davam edən qanlı müharibəyə çevrildi.

Səfəvi–Osmanlı müharibələrinin səbəbləri nə idi? Bu müharibələrin nəticələri haqqında fikrini bildir.

Səfəvi–Osmanlı münasibətləri, Hörmüz, Çaldıran döyüşü, şah I Təhmasib, "yandırılmış torpaq" taktikası

Qarşıdurmanı doğuran səbəblər. XVI əsrin əvvəllərində gənc Səfəvi hökmdarının Azərbaycan və Şərqi Anadoluda öz mövqelərini möhkəmləndirmək üçün qətiyyətli addımlar atması Osmanlı dövləti tərəfindən qısqanclıqla qarşılandı. Xüsusən də, Azərbaycan uğrunda Səfəvi–Osmanlı rəqabəti gücləndi. Səfəvi–Osmanlı müharibələrində hər iki tərəfin bu ərazinin zəngin sərvətlərinə təkbaşına yiyələnmək istəyi başlıca yer tuturdu. Ona görə də əsas döyüşlər Azərbaycan ərazisində baş verdi. Müharibənin ağır məhrumiyyətlərini də hamıdan çox Azərbaycan əhalisi çəkdi.

Qərbi Avropa ölkələri Səfəvi–Osmanlı münasibətlərinin daim müharibə həddində saxlanılmasında maraqlı idilər. Roma papası şah I İsmayılın hərbi uğurlarını "Allahın xristian dünyası üçün yaratdığı bir fürsət" kimi qiymətləndirmişdi.

Qərbi Avopanın Səfəvi və Osmanlı imperiyaları arasında münasibətin kəskinləşməsində maraqlı olmasının səbəbi nə idi?

Səfəvi şahı Osmanlı dövlətinə qarşı müharibəyə hazırlaşarkən Avropadan odlu silah almağa çalışırdı. Lakin onun Roma papasına və Venesiyaya göndərdiyi məktublar nəticəsiz qaldı. 1510-cu ildə şah I İsmayıl Portuqaliya ilə əlaqə yaratdı. O, Hind okeanı və İran körfəzi vasitəsilə Qərbdən odlu

AZƏRBAYCAN SƏFƏVİ İMPERİYASI ŞAH I TƏHMASİBİN DÖVRÜNDƏ

silah və artilleriya mütəxəssisləri gətirtməyə çalışdı. Bu məqsədə çatmaq üçün Portuqaliyanın Hörmüzü ələ keçirməsinə mane olmadı. Hörmüzün tutulması ilə Səfəvilərin Hind okeanına çıxış yolu bağlandı. Lakin Portuqaliya odlu silah göndərmədi.

Hind okeanına çıxışın itirilməsinin Səfəvilər dövləti üçün iqtisadi və siyasi nəticələrini dəyərləndir.

Çaldıran döyüşü. **1514-cü il avqustun 23-də** Səfəvi və Osmanlı dövlətləri arasında Maku yaxınlığındakı ***Çaldıran düzündə qanlı döyüş*** baş verdi**.** Şah I İsmayılın ordusu sayca dəfələrlə üstün olan və odlu silahla silahlanmış Osmanlı qoşunu ilə döyüşdə məğlub oldu.

Bu qələbədən sonra hücumu davam etdirən Osmanlı qoşunu Təbrizə daxil oldu. Lakin Səfəvilərin yeni hücum təhlükəsi ilə bağlı sultan I Səlim geri dönməyə qərar verdi və bir neçə min təbrizli sənətkarı da özü ilə İstanbula apardı.

Çaldıran döyüşü. Miniatür rəsm

Çaldıran döyüşündən sonra Səfəvi dövlətinin qisas almaq üçün başlatdığı yürüş uğursuz oldu. Osmanlı dövləti Şərqi Anadoluda, Cənub-qərbi Qafqazda geniş ərazilər ələ keçirib, Yaxın və Orta Şərqdə mövqeyini daha da möhkəmləndirdi.

Sultan I Süleymanın yürüşləri. 1520-ci ildə sultan I Səlim, 1524-cü ildə isə şah I İsmayıl öldükdən sonra müharibədə bir müddət fasilə yarandı. Osmanlı taxtına yeni çıxan ***sultan I Süleyman*** (1520–1566) əsas diqqətini Macarıstanı və Avstriyanı tutmağa yönəltdi. Şah I İsmayılın ölümündən sonra Səfəvi taxtına onun 10 yaşlı böyük oğlu Təhmasib çıxarıldı. Bu zaman Səfəvi dövlətinin dayağı sayılan tayfa əmirləri arasındakı çəkişmələr mərkəzi hakimiyyəti zəiflətdi.

Səfəvi döyüşçüsü

XVI əsrin 20-ci illərinin sonunda Osmanlı dövləti yeni ərazilər ələ keçirmək məqsədilə Səfəvi dövlətinə qarşı fəal hərbi əməliyyatlara başladı. Sultan I Süleyman **1534-cü ildə** böyük qoşunla Azərbaycan üzərinə yürüşə başladı. Şah I Təhmasibin əmri ilə "yandırılmış torpaq" taktikası tətbiq edildi. Qərb sərhədləri boyundan əhali köçürüldü, da-

Şah I İsmayıl düşmən sərkərdəsi ilə döyüşdə. Miniatür rəsm

şına bilinməyən bütün ərzaq, mal-qara məhv edildi, su quyuları torpaqla doldurduldu, otlaqlar yandırıldı. Belə taktika çoxsaylı Osmanlı qüvvələrinin təchizatında ciddi çətinliklər yaratdı.

Canlı qüvvəsi çox üstün olan və odlu silahla silahlanmış Osmanlı qoşunu bu yürüş zamanı Təbrizi ələ keçirə bilsə də, burada möhkəmlənə bilmədi və geri çəkildi. Sultan I Süleymanın sonrakı il daha ciddi hazırlıqla Səfəvi mülklərinə yeni yürüşü də bir nəticə vermədi. Osmanlı qoşunu Təbrizə daxil olsa da, aclıq və səfalət onları geri çəkilməyə məcbur etdi.

Torpaqlarımızın birləşdirilməsinin başa çatması. Səfəvi şahı I Təhmasib **1538-ci ildə** Şirvanda üsyan baş verməsindən istifadə etdi. Dərbəndilər sülaləsinin hakimiyyətinə son qoydu. ***Şirvanşahlar dövlətini*** qəti şəkildə Səfəvi imperatorluğuna birləşdirdi. I Təhmasib qardaşı Əlqas Mirzəni Şirvana bəylərbəyi təyin etdi.

Şirvanda mövqeyini tədricən möhkəmləndirən Əlqas Mirzə 1547-ci ildə özünü müstəqil şah elan etdi. I Təhmasib qiyamı yatırmaq üçün Şirvana böyük qoşun göndərdi. Əlqas Mirzə məğlub olub İstanbula qaçdı.

Şah I Təhmasib

! ***Əlqas Mirzənin mərkəzi hakimiyyətə tabe olmamasını qiymətləndir.***

Sultan I Süleyman yaranmış vəziyyətdən istifadə edib **1548-ci ildə** Səfəvi dövləti üzərinə yeni yürüşə başladı. Lakin gözlənildiyinin əksinə olaraq qızılbaş əmirlərindən heç biri bu yürüşdə iştirak edən Əlqas Mirzə tərəfə keçmədi. Şah I Təhmasib yenə də "yandırılmış torpaq" taktikası tətbiq etdi. Ona görə də sultan I Süleyman Təbrizi tuta bilsə də, 4 gündən sonra geri dönməyə məcbur oldu. Osmanlıları təqib edən Səfəvi qoşunu şahın böyük oğlu İsmayıl Mirzənin başçılığı altında Qars qalasını geri alıb Ərzuruma qədər irəlilədi.

I Təhmasibin geri çəkilməyini məğlubiyyət hesab edirsənmi? Fikrini əsaslandır.

1551-ci ildə I Təhmasib ***Şəki hakimliyinin müstəqilliyinə son qoydu***. Bununla vahid Azərbaycan dövlətinin yaradılması prosesi başa çatdı.

Amasya sülhü. Səfəvi şahı I Təhmasib 1552-ci ildə böyük ordu ilə ***Şərqi Anadoluya*** yürüş etdi və Muşa qədər bütün yaşayış məntəqələrini dağıtdı. Şah I Təhmasib bu yolla Şərqi Anadolunun Səfəvi dövləti ilə həmsərhəd bölgələrini düşmən qoşununun irəliləməsi üçün mümkünsüz hala gətirməyə çalışırdı. O bu vasitə ilə barışıq təkliflərini israrla rədd edən Osmanlı sultanını yeni basqınlardan çəkindirmək ümidində idi.

"Sülh istəyirsənsə, müharibəyə hazır olmalısan" fikrini şah I Təhmasibin Şərqi Anadoluya yürüşünə aid etmək olarmı? Təhlil et.

Daha güclü orduya və odlu silahlara malik olan sultan I Süleyman isə qələbəyə ümidini itirməmişdi. Sultanın əmri ilə **1554-cü ildə** Səfəvi dövləti üzərinə yeni yürüş başlandı.

Osmanlı sultanına qarşı şah I Təhmasib artıq dəfələrlə sınaqdan keçirdiyi və uğur qazandığı taktika ilə hərəkət etdi. Şahın əmri ilə İrəvan, Naxçıvan və Qarabağ bölgələri boşaldıldı.

1554-cü il yürüşü zamanı xeyli canlı qüvvə itirən və kəskin ərzaq çatışmazlığı ilə üzləşən sultan I Süleyman Naxçıvanı yandırdırıb geri döndü. Bu hadisələrdən bəhs edən Osmanlı tarixçisi Peçevi yazmışdır ki, yanğının tüstüsündən gündüz gecəyə çevrilmişdi. İnsanlar dəhşət içində yanğın olan yerlərdən qaçırdılar.

Qəzvin şəhəri

Bu uğursuzluqdan sonra Osmanlı sultanı sülh danışıqlarına razılıq verdi. **1555-ci il mayın 29-da *Amasyada*** Osmanlı və Səfəvi dövlətləri arasında sülh müqaviləsi imzalandı. Bu sülhə görə Qərbi Gürcüstan və Ərəb İraqı Osmanlıların, Şərqi Gürcüstan Səfəvilərin ixtiyarında qaldı.

Amasya sülhündən sonra I Təhmasib paytaxtı dəfələrlə Osmanlının əlinə keçmiş Təbriz şəhərindən daha təhlükəsiz yerə – **Qəzvinə** köçürməyə qərar verdi.

1. Səfəvi–Osmanlı müharibələrinin səbəblərini izah et.
2. Çaldıran döyüşü haqqında əlavə məlumat topla.
3. "Yandırılmış torpaq" taktikası dövrün müharibə şəraitində əlverişli idimi? Fikrini əsaslandır.
4. Səfəvi–Osmanlı müharibələrinə dair xronoloji cədvəl qur.
5. Sultan I Süleymanın Azərbaycana yürüşləri və onun nəticələrinə dair şaxələnmə qur.
6. Şirvanşahlar dövlətinin və Şəki hakimliyinin müstəqilliyinə son qoyulmasının Səfəvi dövləti üçün əhəmiyyəti nədən ibarət idi?

26. XV–XVI ƏSRLƏRDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

Xalqımız qədim xalqdır, böyük tarixə, böyük mədəniyyətə malik olan xalqdır. Bu mədəniyyətimizi, onun qədimliyini, dünya miqyasında böyük şöhrətə malik olduğunu xalqımıza nə qədər çatdıra bilsək, bir o qədər də xalqımızda vətənpərvərlik hissini, həqiqi vətəndaşlıq hissini, azərbaycanlılıq hissini yüksəldərik.

HEYDƏR ƏLİYEV

Səfəvi şahları elm və mədəniyyətin inkişafına xüsusi diqqət və qayğı göstərirdilər. Şah I İsmayılın orta əsr müsəlman aləminin görkəmli miniatür ustası, istedadlı rəssam Kəmaləddin Behzadı yüksək səviyyədə qəbul etməsi, onun Təbrizdə saray kitabxanasına rəis təyin olunması haqqında fərman verməsi mədəniyyətimizə möhkəm bağlılığını sübut edir. I İsmayılın istedadlı şair olması, "Xətai" ləqəbi ilə milli ədəbiyyatımızın incilərini yaratması onu həm də böyük ədəbiyyat xadimi kimi dəyərləndirməyə əsas verir.

XVI əsrdə vahid mərkəzləşdirilmiş Azərbaycan dövlətinin yaradılması təhsilin, elmin, incəsənətin, mədəniyyətin inkişafına necə təsir etdi? Səfəvi hökmdarları hansı mədəniyyət xadimlərini himayə edirdilər?

Cahan şah Həqiqi, Xətai, Həsən bəy Rumlu, Şirvanşahlar sarayı kompleksi, "Həşt-behişt" saray kompleksi, miniatür rəssamlıq, Kəmaləddin Behzad

Təhsil və elm. XV–XVI əsrlərdə bir-birini əvəz edən türk mənşəli sülalələrin hakimiyyəti dövründə mədəniyyətin inkişafına geniş imkanlar yarandı.

Məktəb və mədrəsələr bu dövrdə əsas təhsil ocaqları kimi fəaliyyətini davam etdirirdi. Azərbaycanın bütün şəhərlərində çoxlu məktəb və mədrəsə var idi. Təhsillə bərabər, elmin müxtəlif sahələri inkişaf edir, savadlı adamların sayı artırdı. Şah I İsmayıl Təbrizdə böyük kitabxana açdırmışdı. Elm və incəsənətə xüsusi qayğı göstərən şah I İsmayıl Marağa rəsədxanasını bərpa etdirmiş, riyaziyyatçı və astronom ***Qiyasəddini*** Marağaya göndərmişdi.



Məhəmməd Füzuli

Elmin inkişafı fəlsəfə və tarixin öyrənilməsinə geniş imkanlar açmışdı. ***Məhəmməd Füzuli*** əsərlərindəki dərin fəlsəfi fikirlərə görə öz dövrünün böyük filosofu kimi qəbul edilirdi.

Tarixçi ***Həsən bəy Rumlu*** şah I Təhmasibin sarayında qulluq etmişdi. Yürüşlərdə iştirak edən tarixçi 12 cildlik "Əhsən-ət-təvarix" ("Tarixlərin ən yaxşısı") əsərini yazmışdı. Əsərin dövrümüzə qədər gəlib çatmış hissələrində Azərbaycanda və ona qonşu olan ərazilərdə XV əsrdə və XVI əsrin ilk onilliklərində baş verən hadisələrdən bəhs edilmişdir.

Füzulinin hansı əsərlərini oxumusan? Səncə, onun əsərlərini dövrün həyatını öyrənmək üçün mənbə hesab etmək olarmı?

Hökmdarlarımızın dilimizə qayğısı. XV əsrdə Azərbaycanın mədəni həyatında hökmdar-şair ***Cahan şah Həqiqinin*** böyük xidməti olmuşdur. XVI əsrdə Azərbaycan-türk dilinin Səfəvi imperatorluğunun dövlət dilinə çevrilməsi onun daha da inkişafına səbəb oldu. Səfəvi şahlarının müdrik siyasəti nəticəsində bu dövrdə fars dilində yazmaq ənənəsi tədricən öz yerini Azərbaycan-türk dilinə verdi. Azərbaycan dilində şeirlər yazılması, şeir məclisləri keçirilməsi geniş miqyas aldı.

XVI əsrdə Şah İsmayılın sarayında ədəbi məclis fəaliyyət göstərirdi. Belə məclislərdə dövrün böyük şairləri toplaşırdı. Şah I İsmayıl ***Xətai*** təxəllüsü ilə Azərbaycan dilində gözəl şeirlər yazmış, divan bağlamışdı. Azərbaycan poeziyasında ilk dəfə olaraq məhz o, şeirlərini nikbin misralarla bitirmişdir.

Memarlıq abidələri. XV–XVI əsrlərdə çoxlu sayda memarlıq abidələri – saraylar, məscidlər, karvansaralar, körpülər tikilmişdi. XV əsrdə inşa edilmiş



Şirvanşahlar sarayı kompleksi. XV əsr. Bakı

çox gözəl abidələrdən biri ***Bakıdakı Şirvanşahlar saray kompleksidir***. Bu kompleksə aid olan divanxana əsl memarlıq incisidir.

1465-ci ildə Cahan şahın əmri ilə Təbrizdə tikilən ***Göy məscid*** özünəməxsus xüsusiyyətləri ilə seçilirdi. Məscidin divarları üzərində işlənmiş göy rəngli naxışlar günəşin yerini dəyişməsindən asılı olaraq müxtəlif rəng çalarları verirdi.

Həsən padşah quruculuq-abadlıq işlərinə xüsusi qayğı göstərir, görkəmli alimləri himayə edirdi. Onun şəxsi kitabxanasında dövrün görkəmli alimləri tədqiqatlar aparırdılar. Hökmdarın tapşırığı ilə oğuz türklərinin mükəmməl tarixi yazılmışdı.

1483-cü ildə Yaqub padşahın Təbrizdə tikdirdiyi ***"Həşt-behişt" saray kompleksində*** kitabxana, məscid, şəfa evi, cıdır meydanı və xiyaban inşa edilmişdi.

Cahan şah tərəfindən 1465-ci ildə Təbriz şəhərində inşa edilmiş Göy məscidin giriş hissəsi

XVI əsrdə indiki Qusar rayonunun Həzrə kəndində tikilən Şeyx Cüneyd məqbərəsi, Naxçıvanda Əlincə çayı üzərindən salınmış körpü, Bakının Şərq darvazaları o dövrün memarlıq inciləridir.

Rəssamlıq. Tarixin yaddaşına dövrün məşhur rəssamlarının adları da yazılıbdır. Şah I İsmayıl görkəmli rəssam Kəmaləddin Behzadı saraya dəvət edərək, onu Təbrizin saray kitabxanasına rəis təyin etmişdi.

Təbriz bədii miniatür ustalarının əsərləri bütün Avropanın böyük marağına səbəb olmuşdu. Dövrün ən məşhur miniatür rəssamı Sultan Məhəmmədin əsərləri hazırda Sankt-Peterburq, London, Leypsiq və Venesiya muzeylərində saxlanılır.

Şah I Təhmasibin əmri ilə Şeyx Səfi məqbərəsi üçün toxunmuş və "Şeyx Səfi xalısı" adlanan misilsiz sənət nümunəmiz hazırda Londonun Viktoriya və Albert muzeyini bəzəyir.



Sultan Məhəmmədin Nizaminin "Xəmsə"sinə çəkdiyi miniatür

Şeyx Səfi xalısı

Yaxın və Orta Şərqdə geniş yayılan muğam və mahnıların yaradıcısı Əbdülqədir Marağayi musiqiyə aid nəzəri əsərlər də yazmışdı. XVI əsrin məşhur xanəndəsi olan Hafiz Lələ Azərbaycan musiqisinin inkişafında xüsusi rol oynamışdı.

Bu dövrün görkəmli nümayəndəsi Aşıq Qurbaninin dildən-dilə gəzən dastanları indi də aşıqlar tərəfindən məclislərdə ifa edilir.

XV–XVI əsrlərdə Azərbaycanda türk sülalələrinin davamlı hakimiyyətdə olması ölkəmizdə mədəniyyətin inkişafına müsbət təsir göstərdi. Azərbaycan hökmdarlarının elm, təhsil, ədəbiyyat və incəsənətə qayğısı bu sahələrdə davamlı inkişafı təmin etdi.

1. Cahan şahın mədəniyyətə qayğısına dair nümunələr göstər.
2. XV əsrdə inşa edilmiş memarlıq abidələrimiz haqqında təqdimat hazırla.
3. Şah İsmayılın mədəniyyət xadimlərinə qayğısını hansı faktlar sübut edir?
4. Azərbaycan rəssamlarının yaratdıqları miniatür rəsmlərin dünya muzeylərində nümayiş etdirilməsi nəyin nəticəsidir?

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. 7 cilddə. II cild. Bakı, 1998. III cild. Bakı, 1999
2. **Bünyadov Z.M.** Azərbaycan Atabəyləri dövləti (1136–1225-ci illər). Bakı, 1985
3. **Bünyadov Z.M.** Azərbaycan VII–IX əsrlərdə. Bakı, 1989
4. **Əfəndiyev O.Ə.** Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993
5. **Xacə Nəsirəddin Tusi.** Əxlaqi-nasiri. Bakı, 1980
6. Kitabi-Dədə Qorqud. Bakı, 2004
7. **Mahmudov Y.M.** Azərbaycan tarixi. İntibah dövrü. Bakı, 1996
8. **Mahmudov Y.M.** Azərbaycan. Qısa dövlətçilik tarixi. Bakı, 2005
9. **Mahmudov Y.M.** Azərbaycan diplomatiyası. Bakı, 2006
10. **Mahmudov Y.M.** Səyyahlar, kəşflər, Azərbaycan. Bakı, 2013
11. **Musa Kalankatlı.** Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. Bakı, 1993
12. **Muradov V.** Orta əsr Azərbaycan şəhərləri. Bakı, 1983
13. **Nizami Gəncəvi.** İskəndərnamə. Bakı, 2004
14. **Onullahi S.M.** XIII–XVII əsrlərdə Təbriz şəhərinin tarixi. Bakı, 1982
15. Oğuznamə. Bakı, 1987
16. **Səid Nəfisi.** Azərbaycan qəhrəmanı Babək Xürrəmdin. Bakı, 1960
17. **Rəşidəddin Fəzlullah.** Oğuznamə. Bakı, 1992
18. **Vəlixanlı N.M.** Ərəb Xilafəti və Azərbaycan. Bakı, 1993
19. **Ашурбейли С.Б.** Государство Ширваншахов. (VI–XVI вв.). Баку, 1983

BURAXILIŞ MƏLUMATI

AZƏRBAYCAN TARİXİ 7

Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün
Azərbaycan tarixi fənni üzrə
DƏRSLİK

Tərtibçi heyət:

Müəlliflər	**Yaqub Mikayıl oğlu Mahmudlu** **Qabil Əli oğlu Əliyev** **Leyla Əhliman qızı Hüseynova** **Sabir Əbdül Əziz oğlu Ağayev** **Sevil Şivəxan qızı Bəhrəmova** **Həcər Kamaləddin qızı Əlişova** **Babək Ələkbər oğlu Xubyarov**
Redaktor	**Gülər Mehdiyeva**
Bədii və texniki redaktor	**Məleykə Əsgərova**
Dizaynerlər	**Səadət Quluzadə, Təhmasib Mehdiyev**
Üz qabığı	**Təhmasib Mehdiyev**
Rəssam	**Gündüz Ağayev**
Korrektor	**Mətanət Kərimova**
Koordinator	**Ruslan Ələkbərov**

© Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi: 2018-087

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 7,65. Fiziki çap vərəqi 8,0. Formatı 70x100$^{1}/_{16}$.
Kəsimdən sonra ölçüsü: 165x240. Səhifə sayı 128.
Şriftin adı və ölçüsü: jurnal qarnituru, 10-12 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş 65. Tiraj 60150. Pulsuz. Bakı–2023.

Çap məhsulunu hazırlayan:
"Təhsil Nəşriyyat-Poliqrafiya" MMC
(Bakı, AZ 1052, F.Xoyski küç., 121a (149))

Çap məhsulunu istehsal edən:
"Təhsil Nəşriyyat-Poliqrafiya" MMC
(Bakı, AZ 1052, F.Xoyski küç., 121a (149))

PULSUZ

Əziz məktəbli!

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!